

# İlham Əliyev Beynəlxalq Olimpiya Komitəsinin medalı ilə təltif edildi

**Azərbaycan idman yarışlarında ədalət prinsipinin təmin edilməsinə böyük önəm verir. Bu barədə gənclər və idman naziri Azad Rəhimov bəyan edib. "Azərbaycan idmanda ədalət dəyərlərinin təmin edilməsində Olimpiya hərəkatının beynəlxalq prinsiplərini rəhbər tutur", - deyə A.Rəhimov Avropa Ədalətli Oyunlar Hərəkatının və Beynəlxalq Ədalətli Oyunlar (Fair Play) Komitəsinin birgə konqresində, Avropa Ədalətli Oyunlar Hərəkatının (AƏOH) 21-ci Baş Assambleyasında və ədalətli oyunlar üzrə mükafatlandırma mərasimində bildirib.**

Onun sözlərinə görə, cari ilin iyun ayında Bakıda keçirilmiş tarixdə ilk Avropa Oyunları zamanı "Fair Play" prinsipinin təmin edilməsinə böyük diqqət ayrılıb.

"Azərbaycan prezidenti və eyni zamanda Milli Olimpiya Komitəsinin rəhbəri İlham Əliyev olimpiya dəyərlərinin qorunub saxlanılması və ədalət, onlara riayət olunma prinsiplərinə xüsusi diqqət ayırır. Ədalətli oyun prinsipi Olimpiya hərəkatının ayrılmaz hissəsidir və Azərbaycanda bu prinsipə riayət etməyə çalışırlar", - deyə A.Rəhimov qeyd edib.

Konqresdə prezident İ.Əliyev Beynəlxalq Olimpiya Komitəsi tərəfindən idmanın inkişafı və "Fair Play" prinsipinin dəstəklənməsinə görə "Ədalətli oyun" medalı ilə təltif olunub. Mükafatı gənclər və idman naziri qəbul edib.

# "Pepsi-Cola Azerbaycan"ın əməkdaşı özünü yandırıb



**"Pepsi-Cola Azerbaycan" şirkətinin işçisi 27 yaşlı Ələkbər Məmmədov özünü yandırıb. Virtualaz.org-un məlumatına Ə.Məmmədov rayon icra hakimiyyətinin əməkdaşlarının hərəkətinin qarşısını almaq üçün özünə od vurub. Belə ki, icra hakimiyyətinin nümayəndələri Ə.Məmmədovun evini sökmək üçün ağır texnika ilə həyətinin qarşısına gəliblər. Yaşadığı evin damına çıxan Ə.Məmmədov evin sökülməsinin qarşısını almaq üçün üzərinə benzin töküb və özünü yandırıb. Vəziyyətin belə olduğunu görən icra nümayəndəliyinin işçiləri oradan qaçıblar. Xoşagəlməz olay Binəqədi rayonu, Mirzə Məhəmmədxan küçəsi 74 ünvanında qeydə alınıb. Ağır vəziyyətdə yaxınlıqda yerləşən xəstəxananın yanıq şöbəsinə çatdırılan Ə.Məmmədov sonradan Respublika Yanıq Mərkəzinə aparılıb. Lakin onun həyatını xilas etmək mümkün olmayıb.**

Ələkbər Məmmədovun yaxınlarının sözlərinə görə, o, yaşadığı həyətin bir hissəsini uzun müddət əvvəl Nərgiz Orucovaya satıb. Elə bütün problemlər də bundan sonra başlayıb. Həmin xanım aldığı evdən əlavə Ələkbərdən ətrafdakı torpaq sahəsini də iddia edib. Həmin xanım bu barədə 3 dəfə məhkəməyə müraciət etsədə, iddiası təmin edilməyib. Ali Məhkəməyə şikayətindən sonra isə onun xeyrinə qərar verilib. Qərara görə, Ə.Məmmədovun evinin bir hissəsi sökülüb altındakı torpaq iddiaçıya verilməli olub. ANS əməkdaşları Ə.Məmmədovun yaşadığı ünvanda olublar. Məlum olub ki, 5 il əvvəl evlənən Ə.Məmmədovun bu illər ərazində övladı olmayıb. Bu yaxınlarda isə ata olmağa hazırlaşırmış. Onun qohumları evin yerləşməsini, evdən bayıra açılan qapının sökülməsinin yaradacağı problemlərə diqqət çəkərək qonşunun əsassız olaraq məhkəmələrə üz tutduğunu bildiriblər. Ə.Məmmədovun əmisi Zakir Məmmədov deyib ki, olay Nərgiz Orucovanın gözləri qarşısında baş verib. Faktla bağlı Binəqədi Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanıb.

❑ **E.HÜSEYNOV**

"Elm" tədris mərkəzi

MAGIC LANGUAGES

➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;

# Ərdoğan: "Putinə zəng etməyimin mənası yoxdur"



**Belçikaya səfərini yekunlaşdıraraq Yaponiyaya yollanan Türkiyə prezident iRəcəb Tayyib Ərdoğan öz təyyarəsində jurnalistlərə müxtəlif açıqlamalar verib. APA-nın "Milliyet"ə istinadən verdiyi məlumata görə, sual-cavablar əsasən Suriya məsələsi və son vaxtlar bu məsələ ilə əlaqədar gərginləşən Türkiyə-Rusiya münasibətləri ilə bağlı olub.**

R. T. Ərdoğan Rusiya hərbi təyyarələri tərəfindən Türkiyənin hava sərhədlərinin pozulması ilə bağlı Moskvanın verdiyi izahatı ciddi qəbul etmədiyini söyləyib: "Qurban bayramının ərəfə günündə Moskvada Putinlə üz-üzə görüşdük. Hava əməliyyatlarının başlamasından dərhal sonra telefon danışığımız da oldu. Bütün bunlardan sonra baş verənlər və hava sahəmizin pozulması onlar tərəfindən yol verilən ciddiyyətsizlikdir. Təbii ki, bundan narazıyıq. Biz Brüsseldə olarkən NATO bu məsələ ilə əlaqədar sərt açıqlama verdi. Verilən mesaj çox açıqdır: Türkiyənin hava sahəsinin pozulması NATO hava sahəsinin pozulması deməkdir. Mövcud durumu qəbul edə bilmərik. Hava pozuntuları məsələsində Rusiyanın izahatları inandırıcı deyil".

**Gərginliyin hərbi toqquşmaya səbəb olmasının mümkünlüyü və Putinlə əlaqə saxlayıb-saxlamayacağı haqda sualı cavablandıran prezident Rusiyanın Türkiyə ilə toqquşmaya girəcəyinə ehtimal vermədiyini vurğulayıb:** "Rusiyanın belə bir addım atacağına inanmıram. NATO Şurasının təcili toplantı keçirməsi də işin ciddiliyini göstərdi. Putinlə bayram ərəfəsində görüşdük və sonra telefon əlaqəsi də saxladıq. Lakin bu görüş və söhbətlərdən sonra hava sahəmiz pozuldu. Bu şərtlərdə mənim yenidən onunla əlaqə saxlamağım mənasız olar".

**R. T. Ərdoğan gələn həftə yaranmış vəziyyəti ətraflı müzakirə etmək üçün ABŞ prezidenti Barak Obama ilə telefon əlaqəsi yarada biləcəyini diqqətə çatdırıb. Rusiya və ABŞ-ın Suriyadakı kürd qruplaşması, Türkiyənin terror təşkilatı saydığı PYD-yə münasibətdə oxşar mövqeyə malik olması barədə sualı cavablandıran R. T. Ərdoğan bu iki dövlətin tamamilə eyni mövqedə olacağına inanmadığını deyib:** "Hər şeydən əvvəl biz ABŞ-la müttəfiqik, NATO üzvüyük. Türkiyəyə qarşı bir hərəkətə hər iki ölkənin eyni münasibət göstərəcəyini necə düşünmək olar? Belə bir şey mümkün deyil. PYD-nin PKK ilə iç-içə olduğunu hər kəs bilməlidir".



## Səlim Müslümov idarə rəisini işdən çıxardı

Əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümovun sərəncamı ilə daha bir məmur işdən azad edilib.

"Qafqazinfo"nun əldə etdiyi məlumata görə, nazirin sərəncamı ilə Biləsuvar rayon Əmək və Əhalinin Sosial Müdafiəsi Mərkəzinin direktoru Xalid Rüstəmov vəzifəsindən xaric edilib.

Qeyd edək ki, nazirin daha əvvəl Xalid Rüstəmova işində yol verdiyi nöqsanlara görə xəbədarlıq etdiyi deyilir.

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

# Məhkəmə MSK-nın qərarını ləğv etdi

**Mirismayıl Hadi:** "Günahkarların cəzalandırılması üçün baş prokurora müraciət edəcəyəm"

**Oktyabrın 8-də Bakı Apelyasiya Məhkəməsi Mirismayıl Hadinin Mərkəzi Seçki Komissiyasına qarşı iddia ərizəsinə baxaraq MSK-nın qərarını ləğv edərək məsələyə yenidən baxılması haqqında qərar çıxarıb. Xəbəri "Yeni Müsavat"a Mirismayıl Hadı verib.**

Məhkəmə zamanı bəlli olub ki, Mərkəzi Seçki Komissiyasının İşçi Qrupu 79 saylı İmişli seçki dairəsi tərəfindən aldadılıb: "Dairə Seçki Komissiyası Mərkəzi Seçki Komissiyasına mənim adımdan guya seçkidə iştirakdan imtina etməyim haqqında möhürlü saxta sənəd göndərib. Bu sənəd əsasında Mərkəzi Seçki Komissiyası yanlış qərar çıxarıb. MSK nümayəndəsinin məhkəmədəki çıxışından aydın oldu ki, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinə əsasən öz qərarını ləğvetmək hüququna malik olmadığına görə məsələyə yenidən baxmayıb. Artıq əlimizdə məhkəmə qərarı var, Mərkəzi Seçki Komissiyası bizim 3 oktyabr tarixli şikayətimizə yenidən baxacaq".

**Mirismayıl Hadi düşünür ki, bu, ciddi bir saxtakarlıq olmaqla yanaşı, Azərbaycan Respublikasının nüfuzuna ciddi zərbədir:** "Buna görə də mən dövlətçiliyə zərbə sayılan bu məsələnin araşdırılaraq günahkarların cəzalandırılması üçün baş prokurora müraciət edəcəyəm".

❑ **Musavat.com**

# Ukraynada Azərbaycan diaspor liderlərini ermənilər öldürübmüş

**Ukraynanın Xerson vilayəti Azərbaycanlılar Konqresinin sədr müavini, iş adamı İlham Tağıyevin, bir müddət əvvəl itkin düşmüş, sonradan isə öldürüldüyü məlum olan digər diaspor fəalı Təbriz Ələkbərovun ermənilər tərəfindən qətlə yetirildiyi məlum olub.**

APA-nın məlumatına görə, həmin şəxslər milis tərəfindən saxlanılıb. Saxlanılanlar digər azərbaycanlı iş adamı Vüqar Nuruşovun da işgəncə ilə öldürülməsində şübhəli bilinirlər.

V. Nuruşovun qardaşı, vilayət Azərbaycanlıları Konqresinin üzvü İlqar Nuruşov APA-ya bildirib ki, Xerson milisi tərəfindən saxlanılan ermənilər Ermənistan vətəndaşı, 1974-cü il təvəllüdlü Karapetyan Sergey Razmikoviç, digəri isə Ukrayna vətəndaşı Montiyan Xaçik Stepanoviçdir.

V. Nuruşovun sözlərinə görə, Xerson milisindən hadisə ilə bağlı erməni millətindən olan daha bir neçə şəxsin axtarışının davam etdiyini bildiriblər: "Milisdən dedilər ki, tutulan ermənilər İlham Tağıyevi sifarişlə öldürdüklərini etiraf etsələr də, sifarişçinin adını hələlik istintaqa açıqlamayıblar. Qardaşımı öldürdüklərini isə boyunlarına alıblar. Guya qətl mübahisə zəminində baş verib. Amma yalan deyirlər, izi azdırmaq istəyirlər. Çünki Xersonda hamıya məlumdur ki, qardaşımla istefada olan general, erməni iş adamı Luqasyan arasında etnik zəmində ədavət olub və həmin şəxs qardaşımı hədələyib. Tutulan bu ermənilər də həmin erməni iş adamına bağlıdırlar. Bu bağlılığı istintaq zamanı özləri də gizlətməyiblər".

İ. Nuruşov onu da əlavə edib ki, tutulan ermənilərin Ukraynada erməni diasporunun fəallarından olduqları bildirilir.

# Ədəbiyyat üzrə Nobel mükafatını Belarus yazıçısı aldı

**2015-ci ilin ədəbiyyat üzrə Nobel mükafatı Belarus yazıçısı Svetlana Aleksiyeviçə verilib. Münsiflər heyətinin təqdimatında yazıçının hekayəsi "zamanımızın şücaəti və iztirablarının abidəsi" kimi təsvir edilib.**

Virtualaz.org saytı Rusiya KİV-lərinə istinadən xəbər verir ki, bu barədə İsveç Kral Akademiyasının daimi katibi Sara Danius bildirib.

Laureatın elanı mükafatın saytında birbaşa yayımlanıb. Mükafatın təntənəli təqdimat mərasimi dekabrın 10-da Stokholmda keçiriləcək.

Svetlana Aleksiyeviç rusdilli ədəbiyyatın klassiklərindəndir. O, "Müharibənin qadın siması yoxdur", "Sink oğlanlar", "Sekond hand zamanı" kitablarının müəllifidir. "Çernobıl duası" onun məşhur hekayələrindən biridir.

Nobel mükafatının 2015-ci ildəki məbləği 8 milyon İsveç kronu, yəni 953 min ABŞ dollarıdır.

Bukmeyker şirkətlərinin favoriti bu il dəbdə olan yapon yazıçısı Xaruki Murakami, keniyalı yazıçı Nqui Va Txionqo, Norveç dramaturqu Yun Fosse, Amerika klassiki Filip Rot, avstriyalı Peter Handke olub.

S.Aleksiyeviç 2013-cü ildə Nobel mükafatına namizədlərdən biri olub. O, ədəbiyyat üzrə Nobel mükafatını qazanmış sayca 14-cü qadın olub.

# Bakıya qaçan ermənінin anasını maşınla vurdular

**Bu yaxınlarda Ermənistanda üzləşdiyi təqiblərdən bezərək Azərbaycana qaçan müxalif fəal Vahan Martirosyanın anasını maşınla vurublar.**

Virtualaz.org saytı erməni KİV-lərinə istinadən xəbər verir ki, Martirosyanın anası Culyetta Virabyan dünən küçəni keçərkən yol qəzasına düşüb və maşın onu vurub.

Qadın İrəvandakı "Erebuni" tibb mərkəzinə aparılıb, hazırda xəstəxanadadır.

Xəstəxanadan bildiriblər ki, Virabyanın qabırğası sınıb. Onun üzərində müayinələr aparılır.

Xatırladaq ki, bundan əvvəl Martirosyanın Ermənistan Müdafiə Nazirliyinin mərkəzi klinik hospitalında işləyən qayınanasını işdən çıxarmışdılar.

Vahan Martirosyan Bakıda keçirdiyi mətbuat konfransında beynəlxalq ictimaiyyətə, BMT-yə müraciət edərək Ermənistanda qalan yaxınlarının taleyinə görə narahat olduğunu, xüsusi xidmət orqanlarının onlara divan tutacağını bildirmişdi.

YENİ MÜSAVAT
N 223 (6251) 9 oktyabr 2015

# "Nuşirəvan Məhərrəmli bu addımı çoxdan atmalıydı" - baş redaktordan ANS-ə ittihamlar

## Bəxtiyar Sadıqov: "Əgər kanallar milli-mənəvi dəyərlərimizi yoxa çıxarırsa, ölkədə vətənpərvərlik əvəzinə, mənəviyyatsızlığı təbliğ edirsə, bağlanmalıdır"

**Milli Teleradio Şurası tərəfindən telekanallara qarşı atılan sərt addımlar, eləcə də qurumun sədri Nuşirəvan Məhərrəmlinin son açıqlamaları cəmiyyətin ciddi müzakirə mövzularındandır. Milli kanalların efir siyasətinə qarşı hər zaman tənqidi münasibəti ilə fərqlənən, bu mövzuda dəfələrlə müəllif yazıları yazmış "Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqovla söhbətimiz də elə bununla bağlı oldu.**

*B.Sadıqov öncə MTRŞ rəhbərliyi tərəfindən atılan addımlar, sanksiyalar barədə danışdı.*

- Mən hesab edirəm ki, bu addım çoxdan atılmalıydı. Bu günə qədər Nuşirəvan müəllim də, Milli Teleradio Şurası da yerli kanallara çox güzəştə gedib. Artıq Azərbaycan tamaşaçısı teleməkandan üz çevirib, əcnəbi kanallara, eləcə də Rusiya, Türkiyə kanallarına daha çox baxır. Yerli kanalın tamaşaçıları işləməyən, mətbəxdə oturan qadınlar olub. Orda yayımlanan şou proqramların səviyyəsi o qədər aşağı, müzakirəyə qoyulan məsələlər o qədər bəsitdir ki, insan baxmaq istəmir. Orda bizim milli-mənəvi dəyərlərimiz o qədər aşağılanır ki, bu məsələlərdə həssas olan, daha səviyyəli, maraqlı, maariflənmək istəyən tamaşaçıların hamısı ondan üz döndərir. Və nəticədə belə bir vəziyyət yaranıb ki, cəmiyyət bu kimi verilişlərdən bezib. O verilişlərdə ssenari olmur, nədən başlayıb, nədə qurtarılacağı bilinmir. Otururlar çayxana söhbəti edirlər. Bəzən ictimai şəkildə müzakirəyə çıxarılması məqbul olmayan məsələlər müzakirə olunur. Cəmiyyət bezib. Artıq cəmiyyət çoxdan marağında idi ki, bu verilişlərin qarşısı alınsın.

***- Hamı öz fikrini əsaslandırmaq üçün "cəmiyyətin rəyi" deyə sitat gətirir, ona istinad edir. Maraqlıdır, bunun üçün cəmiyyətdə hansısa rəy sorğusu keçirilibmi? Konkret hansı rəy sorğusunun nəticəsinə əsasən bu fikri irəli yürüdürsüz?***

- Cəmiyyət deyəndə nəyi nəzərdə tuturuq? Mətbu orqanda çalışırıq - siz də, mən də. Sizin yazılarınızla bağlı müəyyən reaksiyalar olur. Telefon zəngləri, həmkarlarınızın, oxucularınızın dedikləri, mətbuatda bununla bağlı müzakirələr. Mən bu mövzuda ona görə belə əsəbi tonda danışıram ki, bu, bizim "Azərbaycan" qəzeti üçün uzun müddətdir, müzakirə olunan mövzulardan biridir. Hörmətli akademik, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev "Azərbaycanın efir məkanı - problemlər və vəzifələr" adlı 5-6 il əvvəl bir yazı yazdı. Bizdə dərc olunan bu yazını daha sonra digər qəzet və saytlar da tirajladılar. O yazı qədər reaksiya doğuran heç bir yazı bizdə olmayıb. Səhər saat 9-dan zənglər gəlməyə başladı. Tanışlar, dostlar şəxsən mənə, oxucular redaksiyaya zəng edib, "nə yaxşı ki, belə yazı vermisiniz" deyə təşəkkür etdilər. Adını çəkdiyim yazıya görə isə reaksiyalar saat 9-dan başlanmışdı. Sonra mənim özüm şəxsən jurnalist kimi bir neçə yazı yazmışam. O yazılarımın birində göstərmişdim ki, telekanallar o şou verilişlərini özləri üçün biznesə çeviriblər. Aparıcılarla bağlı tənqidi yazım olmuşdu. "Matəm günündə çal-çağır" yazımda da 31 martda efirin vəziyyətindən yazmışam. Yəni bu və bunun kimi bir neçə yazımda efir məkanı ilə bağlı qüsurları göstərmişəm. Reaksiyalar da çox olur. Cəmiyyət deyəndə mən bu reaksiyaları nəzərdə tuturam.

**"Hansı kanalı açırsan, oxuyançılar, toy müğənniləri ordadır. Qonaqlar onlardır, verilişin ekspertləri onlardır, qalmaqal yaradan onlardır"**

Bu proqramların hamısında bir ana xətt var: harda pis ana, pis ata, pis övlad, pis bacı-qardaş varsa, hamısını seçirlər və onlar proqramın qəhrəmanları olur. Bəs bu yaxşılar kimdir, hardadır? Onları kim tapıb üzə çıxaracaq, tərənnüm etdirəcək? Niyə bir dəfə də olsun həyat yoldaşını itirən, müharibədə şəhid verən anaları efirə çıxarıb, onları təbliğ etmir, uzun illər ərsiz övlad böyüdən qadınları fəxrlə bu cəmiyyətə təqdim etmirik?

***- Axı telekanallarda milli vətənpərvərlik mövzusunda da verilişlər gedir. Yəni milli TV-lərimizin rəhbərləri də deyə bilər ki, biz əyləncəyə də, vətənpərvərlik mövzularına da, maarifləndirməyə də yer ayırırıq. Dünya TV-lərində də mənzərə bu cürdür.***

- Mən də onu deyirəm ki, TV-lərin 3 vəzifəsi var: maarifləndirmə, məlumatlandırma və əyləndirmə. Bizdə əyləndirmə digər iki xətti udub. Maarifləndirmə verilişləri yoxdur demək olar ki. Biz müstəqil dövlət qurmuşuq, hüquq, biznes, mülkiyyət sahəsi, istehlakçının hüquqları ilə bağlı maarifləndirməyə ehtiyac var. Amma bunlar işin asanına qaçıblar. 3 nəfəri tapıb çıxarırlar efirə, qalmaqal yaradırlar. Bu ona təhqiramiz söz deyir, bu o birinə qalmaqal yaradacaq ittiham deyir... Neçə dəfə aparıcını itələyib yıxıblar, aparıcı təhqir olunub, müəyyən zümrələrin ünvanına təhqiramiz sözlər işlətdiyi üçün efirdən uzaqlaşdırılıb? O balans ki var, o pozulmuşdu. Həftədə bir-iki dəfə vətənpərvərlik mövzusunda veriliş verməklə vətənpərvərlik həll olundu ki? Biz müharibə vəziyyətində ölkəyik. Əslində bizim teleefirin qəhrəmanı Azərbaycan əsgəri, Azərbaycan zabiti, vətənpərvər gənclər olmalıdır. Müəyyən reytinq qurumları var. Onlar şüurlu şəkildə bu reytinq aparatlarını hara qoyublar? Mən bir dəfə də eşitməmişəm ki, hansısa tanışın, dostun, qohumun evində bu reytinq aparatından qoyulsun. Necə oldu ki, mənəviyyatsızlığı tərənnüm edən, ailə institutları aşağılanan, insanların bir-birinə dönüklüyünü, əxlaqsızlığını aşılayan verilişlərin hamısı reytinqli oldu? Deməli, bu reytinq ölçən qurumlar - onlar əcnəbilərdir - şüurlu şəkildə çalışırlar ki, bizim cəmiyyəti, xalqı mənəviyyatsızlığa yuvarlasınlar. Çünki bizim xalq, cəmiyyət mənəviyyatsız olandan sonra dövləti qarışdırmağa, sabitliyi pozmağa, bu cür insanları öz agentlərinə çevirməyə nə var ki? Bu reytinq qurumları kanalları reklam adı ilə şirnikləndirir, nəticədə isə uduzan Azərbaycan xalqı, bizim mənəviyyatımız olur. Ona görə də MTRŞ-nin bu addımını alqışlayıram. İndiyə qədər çox yumşaq davranıblar. Yəqin gözləyirdilər ki, açıqlamalarına, iradlarına əməl edəcəklər. Amma bu gün ki, Nuşirəvan müəllim bu cür qətiyyətli mövqe ortaya qoyur, mən onu alqışlayıram. Bu qurum nüfuzlu dövlət qurumudur və bizim qəbul etdiyimiz qanunlar əsasında fəaliyyət göstərir. Ona görə də bu gün bəzi telekanal rəhbərləri, eləcə də işçiləri bu qurum, eləcə də onun rəhbəri barədə etik sərhədi aşan ifadələr işlətməsinlər. Bu münasibət mənim xoşuma gəlmir. İraddır, haqlıdır, kimsə narazıdırsa, məhkəməyə müraciət edə bilər. Amma bu, bir sosial sifarişin nəticəsində verilən qərardır, bunu da unutmasınlar. Tamaşaçılar da, biz jurnalistlər də bezmişik. Nə qədər qalmaqal olar? Hansı kanalı açırsan, oxuyançılar, toy müğənniləri ordadır. Qonaqlar onlardır, verilişin ekspertləri onlardır, qalmaqal yaradan onlardır.



**"O reytinq aparatlarını hansı evlərə qoyublar, biləniniz var?"**

***- Məsələyə başqa cür yanaşaq: pisdirsə, camaat niyə baxır? Axı pult əllərindədir, çevirə bilərlər. O verilişin aparıcıları hansısa bir alim, ziyalı ilə küçəyə çıxsın. Xalq həmin aparıcını tanıyacaq, nəinki o alimi, ziyalını. Bəs bu tendensiya nədən xəbər verir?***

- Mən sizinlə razı deyiləm. Baxır kimdən soruşursan. Siz gedib mətbəxdə oturan qadından soruşsaz, təbii ki, mənzərə siz deyən kimi olacaq. Mən mətbəxdə oturan qadınları səviyyəsiz hesab etmirəm. Sadəcə, zövq məsələsi var. O insanlar üçün mətbəx verilişləri, kim kimə nə dedi, filankəs nə geyindi... tipli söhbətlər maraqlıdır. Amma bir ziyalıdan, təcrübəli, dünyagörmüş insandan soruşsunlar, onda görərlər ki, mənzərə necədir. Biz bilirik ki, o rəy sorğusu necə keçirilir.

***- Ziyalı demişkən, tənqid etdiyiniz verilişlərin çoxuna ekspert qismində həm də o hörmətli ziyalılar çıxır. Bu da ictimai rəyə təsir edir. O halda mənzərə niyə belədir?***

- O verilişə çıxan insanlar ki var, onlar özünə hörmət etməyən insanlardır. Çoxunun heç mahiyyətindən xəbəri yoxdur. Onlara deyirlər ki, bu məsələdə mövqe belədir, gəlin danışın. Onlar da danışırlar, aparıcı deyəni deyirlər. Bir də görürsən, aparıcı mövqe dəyişəndə bunlar çaş-baş qalırlar (gülür). Nə qədər doğru olduğunu bilmirəm, amma eşitdiyimə görə, oradakıların çoxu maaş alanlardır. Daimi tamaşaçılar, çəpik çalanlar da həmçinin, ştatdan maaş alırlar. Baxsanız müəyyən kanallarda eyni adamlardır hər gün. Ekspert anlayışının özü də nisbidir, mübahisəlidir. Onlara kim ekspert deyir axı? Bizdəki tok şouların əksəriyyəti bu və ya digər ölkələrin telekanallarında bir neçə il əvvəl nümayiş olunan tok şouların təkrarıdır. "Jdi menya" verilişi də bunlardan biri. Rus qadınının necə vəfalı olması, rus anasının necə fədakar olmasını, rus anasının necə ailəyə bağlı olmasını tərənnüm edir. Həzin, kövrək bir proqramdır. Rus qadınının vəfası hara, Azərbaycan qadınının vəfası hara? Heç bir müqayisəyə gəlməz. Amma görün o proqramda rus qadını hansı səviyyəyə qaldırılır. Bizdə isə Azərbaycan qadını o dərəcədə aşağılanır ki, insan bilmir necə ad versin o insanlara. Bizim nə qədər ailəcanlı, fədakar qadınlarımız var. Kişi kimi, ailə yükü çəkən, övladı üçün böyrəyini verən analarımız var. Belələrini tapın gətirin də. Kimi axtarırlar? Atasını-anasını atmış, Vətən borcunu yerinə yetirməmiş, gedib özü üçün Rusiyada güzəran axtaran, kefi kök birisini. Ay bala, onu tapıb gətirmək lazım deyil e. Anasını soruşmayan, Vətənin dar günündə onu atan birini tapıb bu ölkəyə gətirməyə dəyər?

***- Hər halda, məqsəd pis deyil. Ortada qara məqsəd, xəbis niyyət yoxdur. Xoş məram var - ana-balanı bir-birinə qovuşdurmaq...***

- Siz belə hesab edirsiniz ki, niyyət yaxşıdır. Niyyət başqa şeydir, onu gerçəkləşdirmək başqa şey. "Jdi menya"da peşəkarlıqla, dəyərlər qorunmaqla bu iş görülürsə, bizdə qondarma, süni şəkildə, aparıcının özünü reklam etməsi, ziddiyyətlər, süni konfliktlər yaratmaqla edilir. "Şok, şok, şok", "az sonra"... axırda da heç nə. Bütün veriliş boyu gizli reklamlar gedir. Gərək şura araşdıra ki, bu verilişdə gedən gizli reklamlardan dövlətə vergi verilirmi?

***- Nuşirəvan Məhərrəmli son müsahibəsində bəzi kanalların bağlana biləcəyinə, cəmi 4-5 kanalla da davam edilə biləcəyinə işarə vurdu. Bu isə demokratik idarəetməyə iddialı bir ölkədə ciddi senzuranın, söz azadlığının boğulmasının sübutu kimi görünür...***

- Əvvəla, kim dedi ki, kanallar bağlanacaq? Bu qurumun irad tutmaq, xəbərdarlıq eləmək hüququ var. Bunların hər ikisini edir. Xəbərdarlıqdan nəticə çıxarmayıblar. Bu səbəbdən də qurum öz səlahiyyətləri çərçivəsində cərimələr tətbiq edib. Bundan başqa, ekranı qaraltmağa, sonra bağlamağa səlahiyyəti var. Əgər bu proqramlar mənim əsrlərdən boyu süzülüb gələn milli-mənəvi dəyərlərimi yoxa çıxarırsa, ya da çox ağır müharibə şəraitində olan ölkədə vətənpərvərlik əvəzinə mənəviyyatsızlığı təbliğ edirsə, o kanallar bağlanmalıdır. Bəs informasiya təhlükəsizliyi nəyə deyirsiz? Budur da informasiya təhlükəsizliyi. Rusiyanın serialları var. Hətta onların seriallarında belə adam hüquqi cəhətdən maariflənir. Bizim seriallarda nə var? Ailə, ailə, ailə. 1 milyon qaçqın, tanımadığımız qəhrəmanlarımız var. Bunları da göstərmək, bunlardan da film çəkmək lazımdır.

❑ Sevinc TELMANQIZI

---

# "Deputat olacaq şəxslərin siyahısını gördüm"

## Elza Seyidcahan: "Əgər oktyabrın 9-da, günün birinci yarısınadək mənim şikayətim təmin olunmazsa..."

**Namizədliyi qeydə alınmayan bəstəkar-müğənni Elza Seyidcahan "Yeni Müsavat"a ilginc açıqlamalar verib. Onun sözlərinə görə, namizədliyini irəli sürdüyü 54 saylı Şabran-Siyəzən seçki dairəsindən ona qarşı təzyiqlər olub, namizədliyini geri götürmək tələb edilib: "Dedilər ki, özünü yorma, deputatlar artıq 3 ay bundan əvvəl təyin olunub. Üstəlik, deputat olacaq şəxslərin siyahısını da göstərdilər. Dedim ki, mən bunlara inanmıram. Bu, Yeni Azərbaycan Partiyası adına layiq olmayanların, seçki qanunvericiliyinə, ölkənin adına ləkə gətirənlərin mənə qarşı təxribatıdır. Bu təxribat və təzyiqlər artıq bir neçə gün idi ki, başlamışdı. Mənə inadla təklif edirdilər ki, namizədliyimi geri götürüm. Hətta seçicilərimlə görüşmək üçün Siyəzənə gedəndə insanlar gəlib mənə sual verirdilər ki, "Elza xanım, niyə namizədliyinizi geri götürdüz?"**

Bu işdə mənə xüsusilə 6 nəfər təzyiq edirdi. Əgər oktyabrın 9-da, günün birinci yarısınadək mənim şikayətim təmin olunmazsa, onların adlarını, tutduqları vəzifələr barədə mətbuata açıqlama verəcəyəm".

Elza Seyidcahan Şabran-Siyəzən seçki dairəsindən namizədliyini irəli sürən, hazırkı deputat Tahir Süleymanovu kəskin tənqid edib: "Tahir Süleymanov YAP-ın üzvü olsa da, həmin partiyadan qətiyyən məlumatı yoxdur. YAP-ın üzvü olub, ona layiq olmayan xeyli adamlar var. Məlum oldu ki, mənə qarşı təxribat törədən elə birinici Tahir Süleymanovdur. Dairədən mənə bildirdilər ki, "qanımızı tökəcəyik, amma Tahir Süleymanovu qutudan çıxardacağıq". Bu, nə deməkdir?! Tahir Süleymanov səs toplayacağımı bilib mənə şər-böhtan atmaqdan çəkinmir".

**Əməkdar artist olayla bağlı ölkə prezidentinə teleqram vasitəsilə müraciət etdiyini deyib:** "Mənə bildirildi ki, topladığım səslərin 307-si doğru, 180-i isə saxta imzadır. Bu böhtandır. Başıma gələn bu haqsızlıqla bağlı ölkə prezidentinə, birinci xanıma və digər aidiyyəti orqanlara teleqram vasitəsilə müraciət etmişəm. Güman edirəm ki, haqq öz yerini tutacaq".

Xatırladaq ki, bəstəkar-müğənni Elza Seyidcahan parlament seçkilərində iştirak etmək üçün 54 saylı Şabran-Siyəzən seçki dairəsindən namizədliyini irəli sürmüşdü. Həmin dairədən hazırkı deputat Tahir Süleymanovdur. O yenidən bu dairə üzrə namizəd olub.

❑ Xalidə GƏRAY

# Suriya müharibəsi Azərbaycan sahillərində

## NATO və ABŞ-dan Rusiyaya Xəzərdən raket zərbələri ilə bağlı xəbərdarlıq gəldi; **ekspert:** "Azərbaycana yönəlik terror-təhdid riski yüksəlir..."

**Oktyabrın 7-də Rusiyanın Xəzər donanmasının dörd gəmisindən Suriya ərazisindəki İŞİD terror təşkilatının mövqelərinə raket zərbələrinin endirilməsi dünyanın şokedici hadisələrindən sayılır. Məlumata görə, həmin anda terrorçu təşkilata aid olduğu bildirilən 11 hədəfə 26 raket zərbəsi endirilib.**




Əslində Rusiyanın Suriyada hərbi əməliyyatlara başlaması bir o qədər təəccüb doğurmamışdı və əksər ekspertlər bunu Obama-Putin anlaşmasının məntiqi nəticəsi olaraq sakit qarşılamışdılar. Lakin "sülh dənizi" adlandırılan Xəzərin müasir tarixində ilk dəfə olaraq Putinin 2 min km-lik məsafədəki hədəflərin vurulmasına göstəriş verməsi 3-cü Dünya Müharibəsi riskini artıran hadisə kimi dəyərləndirilir.

Sözsüz ki, Rusiyanın addımı Azərbaycanı da ciddi risklərə çəkir. Azərbaycanın Xəzərdəki neft və qaz yataqları da İŞİD-in və onun müdafiəçilərinin hədəfinə çevrilə bilər. Hədəflərə zərbə endirən gəmilərdən birinin - "Dağıstan"ın kapitanının əslən azərbaycanlı Vüsal Miriyevin olması da diqqətçəkəndir. Doğrudur, rəsmi Bakı baş verənlərə hər hansı reaksiya verməyib. Üstəlik, Azərbaycanın özünün hava və su məkanından Rusiyaya İŞİD-ə qarşı istifadə üçün icazə verib-vermədiyi də bəlli deyil. Rusiya isə artıq bəyan edib ki, İŞİD-in Suriyadakı mövqelərinə yalnız qırıcılardan deyil, uzaq mənzilli raketlərdən istifadə edilməklə də zərbələr endirilib.

Rusiya prezidenti Putin bildirib ki, Suriyadakı hədəflər Xəzərdəki gəmilərdən buraxılan raketlərlə vurulub. Kremlin mətbuat katibi Dmitri Peskov isə bildirib ki, Rusiya hərbi gəmilərinin Xəzər dənizindən İŞİD-in Suriyadakı mövqelərinə atdığı raketlərin trayektoriyasını rəsmi Bağdad və Tehranla razılaşdırıb.

Müşahidəçilər hesab edir ki, Rusiya bu addımı ilə həm də Xəzər regionunda gücünü göstərdi və bu bölgəyə kənar qüvvənin müdaxiləsinin mümkünsüzlüyünü nümayiş etdirmiş oldu. Konkretləşdirsək, Kreml Xəzərdəki gəmilərdən atdığı raketlərlə bu dənizin sahibinin kim olduğunu göstərdi. Eyni zamanda Moskva, İran istisna olmaqla, Xəzəryanı ölkələrdən heç kimlə hesablaşmadığını nümayiş etdirdi. Hər halda, statusu müəyyənləşdirilməyən Xəzərdə hərbi əməliyyat qərarını verməklə sahilboyu ölkələri də təhdid etmiş oldu. Bəzi ekspertlərin iddiasına görə, Azərbaycan prezidentinin rusiyalı həmkarına ad günündə zəng edib onu təbrik etməsi Suriyanın vurulması məsələsində Bakı ilə Moskva arasında anlaşma olduğunu nümayiş etdirdi. Ola bilər ki, bununla Azərbaycan özünü Rusiya təhlükəsindən sığortalamaq, proseslərdə neytral qalmaq istəyir. Ancaq fakt budur ki, Azərbaycan təhlükələrdən sığortalanmayıb. Xəzərin beynəlxalq savaşlara cəlb edilməsi Azərbaycan, onun enerjidaşıyıcıları üçün ciddi təhdidlər vəd edir.

**Azərbaycan Atlantik Əməkdaşlıq Təşkilatının sədri Sülhəddin Əkbər deyir ki, hadisələrə düzgün qiymət vermək üçün məsələyə qlobal yanaşma tələb olunur. Onun fikrincə, hazırda müəyyən məsələlərdə dünya gücləri arasında geopolitik, geostrateji qarşıdurma gedir və Ukrayna böhranında kəskinləşən bu qarşıdurma Suriya böhranı ilə daha da dərinləşib:** "Azərbaycan da həm geopolitik, həm geostrateji baxımdan bu qarşıdurmanın yaşandığı böyük alanda mərkəzi yer tutur. Yəni bir tərəfdən postsovet məkanı ilə Yaxın, Orta Şərq arasında qalıb. Postsovet məkanında Azərbaycan strateji qarşıdurmanın cəbhə xəttindədir. İndiki halda bu qarşıdurma GUAM xəttindən keçir. Digər tərəfdən, başqa cəbhə xəttini götürsək, Azərbaycan ortada qalıb. Bu baxımdan təbii ki, bu qarşıdurmalar Azərbaycandan yan keçməyəcək, getdikcə, əksinə, Azərbaycana təsirləri daha da artacaq".




**S.Əkbər məsələyə hərbi-siyasi baxımdan yanaşmanı da zəruri sayır:** "Hələ Ukrayna böhranı zamanı ekspertlər deyirdilər ki, postsovet məkanında dondurulmuş konfliktlərin yenidən qızışma ehtimalı var. O zaman da belə bir fikir vardı ki, Rusiya Ukrayna, Moldova və Gürcüstanda itirdiyi mövqeləri bu və ya başqa şəkildə, yaxud yerdə kompensasiya etməyə çalışacaq, Bunun üçün də ən uyğun yer Azərbaycandır".

**Ekspert qeyd etdi ki, rusların Şimali Qafqazda və Xəzərdə hərbi birləşmələrini gücləndirməsi Azərbaycana təhdiddir:** "Digər tərəfdən, Suriya Rusiya və İranın müttəfiqidir. Türkiyə və Azərbaycan arasında isə strateji əməkdaşlıq haqqında müqavilə var. Deməli, Türkiyə nə qədər aktiv şəkildə Suriya məsələsinə müdaxilə edirsə, dolayı yolla Azərbaycana müdaxilə riski də artır. Son zamanlar Rusiyanın artıq aktiv müdaxiləyə keçməsi bunu açıq şəkildə ortaya qoyub. Rusiya Azərbaycanın Gömrük İttifaqına daxil olması üçün təzyiqləri artırıb. Bir neçə rayonun azad olunması qarşılığında rus sülhməramlılarının Qarabağda




yerləşdirilməsi və Rusiyanın Azərbaycanda hərbi iştirakının legitimləşdirilməsindən söhbət gedir. Azərbaycan Cənubi Qafqazın yeganə ölkəsidir ki, burada Rusiyanın legitim hərbi qüvvələri yoxdur. Həm Gürcüstanın Abxaziya və Cənubi Osetiya bölgəsində, həm də Ermənistanda rus hərbi bazaları var. Belə bir mürəkkəb vəziyyətdə Azərbaycan özünü Qərbdən təcrid etdiyi halda Rusiya qarşısında mövqeləri daha da zəifləyir. Azərbaycan daxilində "beşinci kolon" da çox güclənib - hansı ki, hakimiyyətdə də çox güclü mövqeləri var. Azərbaycan parlamenti elə formalaşdırılacaq ki, istənilən rusiyayanlı qərarı ordan keçirmək mümkün olsun".

**Rusiyanın Xəzərdən istifadəsinə gəldikdə, S.Əkbər vurğuladı ki, bundan əvvəl Azərbaycanın hava məkanından da istifadə olunub:** "Azərbaycan öz hava məkanını Rusiyanın üzünə bağlaya bilməz. Birincisi, Azərbaycan hava məkanından Əfqanıstanla bağlı NATO-ya, ABŞ və Türkiyəyə icazə verib. Odur ki, Rusiyanın istəyinə qarşı çıxa bilməz. İkincisi, Rusiya Azərbaycanın hava sahəsindən istifadə etmədən də İran və İraq üzərindən Suriyaya hava dəhlizi aça bilər. Üçüncüsü, Rusiya istəsə, Bakıdan icazə almadan da Azərbaycanın hava məkanından istifadə edə bilər".

**S.Əkbər əlavə etdi ki, istənilən halda Xəzər hədəfə alına bilər:** "Rusiya artıq sünni, islamçı, terrorçu qrupların hədəfindədir. Eyni zamanda Səudiyyə Ərəbistanı, Qətər, Türkiyə başda olmaqla, İslam dövlətləri ilə münasibətlər kəskinləşməkdə davam edir. Ona görə də terror dalğasının Rusiya ərazisinə, Şimali Qafqaza, Orta Asiyaya keçməsi ehtimalı yüksəkdir. İkincisi, Azərbaycandan terror qruplaşmalarının tərkibində bu dəqiqə də döyüşənlər var, zaman-zaman ölkəmiz təhdid olunub. Üçüncüsü, Azərbaycan Türkiyənin strateji tərəfdaşıdır və Türkiyə bu münaqişədə aktiv tərəfdir. O baxımdan Azərbaycana yönəlik terror-təhdid riski yüksəlir və Azərbaycan buna uyğun təhlükəsizlik tədbirləri görməlidir".

Bu arada NATO-nun baş katibi Yens Stoltenberq Rusiyanın Suriya ərazisinə raket zərbələri endirməsi məsələsinə münasibət bildirib. NATO baş katibi bu hadisədən narahat olduqlarını və Türkiyə daxil olmaqla, regiondakı müttəfiqlərini qorumaq üçün alyans tərəfindən hazırlıq görüldüyünü bildirib. NATO Suriyanın ətrafında cərəyan edən vəziyyətlə əlaqədar olaraq Şimali Atlantika Alyansının əlavə köməyindən istifadə edilməsi məsələsini qiymətləndirir.

Rəsmi Vaşinqton da Suriyaya raket zərbələri endirdiyi üçün Rusiyaya xəbərdarlıq edib. ABŞ Dövlət Departamentinin rəsmi nümayəndəsi Con Kirbi jurnalistlərin suallarını cavablandırarkən söyləyib ki, Xəzər Dənizi Donanması raket zərbəsi mövzusundan kənar durmalıdır.

**Dövlət Departamentinin nümayəndəsi, kontr-admiral Con Kirbi Rusiyanın yaydığı görüntülərə inanmadığını bildirib:** "Mən təsdiq edə bilmirəm ki, ruslar, ümumiyyətlə, bunu ediblər. Amma Moskva məhz bunu iddia edir ki, guya Xəzərdən Suriyaya raket zərbələri endirir. Lap deyək ki, rus hərbçilər bunu edir. Ancaq bizi Rusiyanın İŞİD bazalarını vurması deyil, başqa əraziləri vurması daha çox narahat edir".

Qeyd edək ki, ABŞ İŞİD-ə qarşı mübarizədə Rusiya ilə əməkdaşlıq etməkdən qəti surətdə imtina edir. ABŞ rəsmiləri hesab edir ki, səmada münaqişələrin qarşısının alınması üçün müzakirələr aparmağa ehtiyac var. Hazırkı vəziyyət Suriya üzərindən uçan ABŞ təyyarələri üçün təhlükədir. Pilotların təhlükəsizliyi üçün lazımi addımlar atılacaq.

**Hərbi ekspert Üzeyir Cəfərova görə, Xəzər dənizindən Rusiyanın belə bir addım atmasından ən azı Azərbaycan və Qazaxıstan məlumatı olmalı idi:** "Rusiya özbaşına istədiyini edə bilməz. Qəbul edilmiş qaydalar var, Rusiyanın bu qaydalara əməl etməsi birmənalıdır. Rusiya qaydaları pozarsa, ona qarşı diplomatik, narazılıq formasında irad bildirilməlidir. Rusiya Xəzər dənizində təlimlər keçirəndə ətraf dövlətləri diplomatik kanallarla xəbərdar edir. Rusiya Suriyaya raketlər atır, həmin hava məkanında isə mülki və hərbi təyyarələr uçur, bu mümkün deyil. Əgər belə bir şey olsa idi, ən azı Azərbaycan XİN və Müdafiə Nazirliyi vasitəsilə xəbərdar edilməli idi".

**"Atlas" Araşdırmalar Mərkəzi hesab edir ki, Suriyanı Xəzərdən bombalayan Rusiya Azərbaycana da mesaj göndərmiş oldu. Sitat:** "Rusiyanın Xəzər dənizindən Suriyanı bombalaması Azərbaycana da mesajdır ki, rəsmi Bakı dənizin dibi ilə Türkmənistana boru xətti tikintisi layihəsinə dəstək verməsin. Türkmənistanla Azərbaycan arasında Xəzərin dibi ilə boru xəttinin tikintisinə ən çox lobbiçilik edənlər Türkiyə, Avropa Birliyi və ABŞ-dır. Ancaq əgər rəsmi Bakı bu layihəyə maraq göstərməsə, "Transxəzər" layihəsi alınmayacaq. Rusiyanın məqsədi rəsmi Bakını Xəzərin dibi ilə bağlı layihədə geri addım atmağa məcbur etməkdir".

**E.PAŞASOY**

### Məmmədovlar klanını qəzəbə gətirən kim və nədir?

# Ziya Məmmədovun karyerasını kompromatlar bitirə bilər

## Nəqliyyat nazirinin keçmiş şəriki Hafiz Məmmədovun qəfil iflası kimi möcüzəli dirçəlişi baş verməkdədir; "Hafka" ona pis günündə yamanlıq edənlərə "cəzalarını alacaqlar" xəbərdarlığını etmişdi; kompromat adlanan təkzibolunmaz materiallar Azərbaycanda hətta nazirləri həbsə qədər aparıb...

**"Hafka" ləqəbi ilə tanınan iş adamı, nəqliyyat nazirinin keçmiş şəriki Hafiz Məmmədovun qəfil iflası kimi möcüzəli dirçəlişi baş verməkdədir. 2014-cü ildə maliyyə vəziyyəti gözlənilmədən pisləşən "Hafka"ya ilk zərbə də şəriklərindən gəldi. Biznesmenin oğlanlarına məxsus "Bank of Azerbaijan" qapılarını bağlamağa məcbur oldu, "Bağlan Qrup"u nazirin ailəsinə məxsus "Garant Holdinq"in binasından çıxardılar.**




Eləcə də Hafiz Məmmədovun prezidenti olduğu "Bakı" klubunun bazasını və ümumiyyətlə, klubu ondan almağa cəhdlər oldu. Onun "Eurovision" ərəfəsi Bakıya gətirdiyi 500-dən çox "London taksi"sinin gömrük rüsumunu ödəmədiyi də bu ərəfədə " yada düşdü", taksilər yolda saxlanıb cərimə meydançasına aparıldı. H.Məmmədov "atam" dediyi Z.Məmmədovdan bu cür zərbə gözləmirdi və gücü çatan qədər dirəniş göstərdi də...

Məmmədovlar keçmiş şərikləri ilə dartışmada bütün mümkün variantlara əl atdılar və hətta Fransanın "Lans" klubunu ələ keçirmək üçün "Hafka"nın imzasını belə saxtalaşdırmağa getdilər. Baş verənlərdən Fransa mediasından xəbər tutan "Hafka" yazılı bəyanat yayaraq, Məmmədovları (ilk dəfə) hədələdi. Bəyanatda "Hafka" klubun səhmlərini satmadığını və bununla bağlı heç bir sənədi imzalamadığını bildirdi. H.Məmmədov ad çəkməsə də, "onlar buna görə öz cəzalarını alacaqlar" deyərək, Məmmədovlar klanını açıq təhdid etdi.

Hələ o zaman da mediada belə iddialar vardı ki, Məmmədovlar "Hafka" ilə davranışlarında sərhədləri qorumasa, onlara qarşı kompromat savaşı başlaya bilər. Çünki "Hafka" uzun illər nazirlə biznes şəriki olub və onun bir çox sirlərindən, xüsusilə də hakimiyyətdən gizli işlərindən xəbərdardır. Bu ilin mayında Beynəlxalq Bankla bağlı kredit qalmaqalına görə həbslər başlayanda "Hafka"nın da borclu olması səbəbindən ölkəni tərk etdiyi xəbəri yayıldı. Hətta H. Məmmədov barəsində məhkəmə qərarı ilə həbs-qətimkan tədbiri seçildiyi iddia olunurdu. Amma "Hafka" heç nədən çəkinməyərək, ölkəyə qayıtdı. Məlumatlara görə, "Hafka" ölkəyə qayıdaraq "Bank of Azerbaijan" üçün götürdüyü kreditlərin məsuliyyətini nəqliyyat nazirinin üzərinə qoyub. İş adamı istintaqa bankı nazir oğlu Anar Məmmədovun idarə etdiyini əsas gətirərək, kreditlərə də məhz onun cavabdeh olduğunu deyib. Hətta H.Məmmədovun bu məsələyə görə nəqliyyat nazirinin hədələdiyi, onunla bağlı problem yoluna qoyulmayacağı təqdirdə birgə gördükləri bütün "qara işləri", həmçinin nazir oğlu ilə bağlı faktları açıqlayacağı bildirilirdi. Başqa bir mənbə isə iddia edir ki, "Hafka" çevrəsində etibarlı iş adamı kimi tanınıb və "dostlarını ələ vermir".

"Hafka"nın hakimiyyətlə hansı anlaşmaya getdiyi məlum deyil, bilinən budur ki, oliqarx ağır maliyyə sıxıntılarından xilas olub. Virtualaz.org saytı xəbər verir ki, bu həftə "Hafka" "Lans" klubu ilə bağlı problemləri həll etmək üçün Bakıya gələn nümayəndələrlə görüşüb.

Görüşdə biznesmen oktyabr ayından maliyyə vəziyyətinin düzəlməyə başlayacağını və "Lans" klubu qarşısında maliyyə öhdəliklərini yerinə yetirəcəyini deyib. "Hafka" fransalı qubernatora bildirib ki, il ərzində onun maliyyə vəziyyəti mürəkkəb olaraq qalıb. Lakin oliqarx tezliklə dondurulmuş aktivlərinə çıxış imkanlarını geri qaytaracağını və borclarını ödəmək iqtidarında olacağını, o cümlədən "Lans"ın yüksək liqaya qayıtmasına kömək edəcəyini bildirib. Görüşdə "Hafka"nın hazırda tam siyasi və maliyyə reabilitasiyasının getdiyindən bəhs olunub.

Maraqlıdır, bir neçə ay əvvələdək ciddi maliyyə sıxıntıları səbəbindən hətta villasını belə itirmək həyəcanını yaşayan iş adamı yenidən biznes-elitaya qayıdır. Onun keçmiş şərikləri Məmmədovlar isə indi ağır günlərini yaşayırlar. Nazir işə çıxmır, son iki ayda ikinci "məzuniyyət"ini götürüb, oğlu ölkə xaricindədir, qardaşı deputat nişanını ayın sonunadək təhvil verir... Bu isə yalnız Məmmədovların "batan gəmisi"nin görünən hissəsidir.

Hakimiyyətdə kompromat savaşlarının tarixi yeni deyil. Kompromat adətən hakimiyyətdəki ən iri məmurlar barədə toplanır və lazım gəldikdə istifadə edilir. Mətbuata *(televiziyaya)* verilən bu tipli materiallara adətən hakimiyyət ya ciddi önəm vermir və ya qərəzli hesab edir. Əsas kompromatlar məhz iqtidar daxilində qərar verən mərkəzlərə ötürülür. İstənilən hakimiyyətin istənilən məmur haqda məxfi məlumat toplamaq imkanları yetərincədir. Amma bu məlumatlar da bəzən çox "ütülü" olur. Kompromat isə özündə o qədər sirləri ehtiva edir ki, bəzən bir ehtiyatsız sözün qeydə alınması ən qüdrətli məmuru belə bitirməyə yetərlidir... Azərbaycanda da bir neçə yüksək vəzifəli şəxsi, hətta nazirləri bu kimi təkzibolunmaz materialların bitirdiyi məlumdur.

Bəs Məmmədovları qəzəbə gətirən kim və nədir?

❑ **"Yeni Müsavat"**

# Nazirliyin vəzifəli şəxsinə cinayət işi açıldı



**Kənd Təsərrüfatı Nazirliyinin Dövlət Maşın Sınaq Stansiyasının fəaliyyətində yol verilmiş qanun pozuntuları ilə bağlı Maliyyə Nazirliyindən daxil olmuş material Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırılıb.**

Baş Prokurorluqdan "Qafqazinfo"ya verilən məlumata görə, araşdırmalar zamanı Dövlət Maşın Sınaq Stansiyasının direktoru Cavanşir Bağırov və digər vəzifəli şəxslərin vəzifə səlahiyyətlərindən sui-istifadə edərək rəsmi sənədlərə bilə-bilə yalan məlumatlar daxil etməklə vəzifə saxtakarlığı etmələri aşkarlanıb. Bundan başqa, onlar müəssisədə faktiki işləməyən şəxslərin adlarına əmək haqları yazılması, tariflərin düzgün tətbiq edilməməsi və saxta qaimələrin tərtib edilməsi yolu ilə 221.0 min manat məbləğində pul vəsaitlərini mənimsəyərək israf etməklə dövlətin qanunla qorunan mənafeyinə mühüm zərər vurublar. Fakta görə Cinayət Məcəlləsinin 179.3.2 (külli miqdarda mənimsəmə və ya israf etmə), 308.1 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə cinayət işi başlanıb. Hazırda cinayət işi üzrə istintaq tədbirləri davam etdirilir.

# III dünya narahatlığı



**Samir SARI**

**Dünyada narahatlıq var. Çox böyük narahatlıqdır. Qlobal miqyasdadır. Hamı narahatdır. Türkiyə Rusiya qırıcılarının hava sərhədlərini pozmasından narahatdır. O dərəcədə narahatdır ki, deyir, ruslar bir də belə eləsə, qırıcıları vuracağıq.**

ABŞ da öz növbəsində Rusiya qırıcılarının Türkiyə sərhədi yaxınlığındakı manevrlərindən narahatdır. Senator Makkeyn deyib ki, ruslar düz eləmir.

Rusiya Bəşər Əsədin beynəlxalq aləmdə təklənməsindən narahatdır, deyir ki, İŞİD vurulmalıdır. Prezident Putin Bağdadini diri istəyir.

Təbii ki, Bağdadi də buna görə narahatdır. O, Rusiyanın əlinə nəinki diri, heç ölü halda da düşmək istəmir.

İran Səudiyyə Ərəbistanının Yəməndə husiləri bombalamasından narahatdır, çünki husiləri məzhəb baxımından özünə yaxın hesab edir.

Səudiyyə Ərəbistanı isə məzhəb baxımından özünə yaxın olan qüvvələrin Yəməndə husilərin qarşısında zəifləməsindən narahatdır, ona görə də onlara hava bombardmanı ilə kömək edir.

Ayrıca Səudiyyə Ərəbistanı İŞİD-in bombalanmasından da narahatdır. Çünki ortada Vahab söhbəti var. Təbii ki, İŞİD özü də bu işdən narahatdır, başına bomba tökülməsini istəmir.

Yunanıstanın öz dərdi bir yana, yeni qaçqın dalğasının yaranacağından narahatdır. Ona görə ki, yunan xilasedicilər dənizdən qaçqın meyiti toplamaqdan bezar olublar.

Suriya xalqı dörd ildən çoxdur narahatdır, indi isə lap narahatdır.

Türkiyənin dənizqırağı şəhərlərinin hökumət orqanları da narahatdırlar, qaçqınları qəbul etmək, yedirib-içirtmək, çadırda yerləşdirmək, yola salmaq məsələsi problemdir.

Macarıstan hökuməti elə o vaxtdan narahatdır, qaçqınları ölkə ərazisini girməsini əngəlləyərək, təpikləyə-təpikləyə Almaniyaya yola salmaq lazımdır. Çətin işdir.

Bu səbəbdən Xorvatiya, Serbiya, Avstriya da narahatdır. Onlar da ölkələrində qaçqın istəmirlər.

Almaniya əslində çox narahat olsa da, özünü o yerə qoymur, deyir ki, qaçqınları birtəhər yerbəyer edərik.

İngiltərə və Fransa dərindən narahat olmasalar da, özlərini narahat olmuş kimi göstərirlər.

Azərbaycan regionda hərbi eskalasiyanın artmasından, Rusiya və Türkiyənin arasındakı münasibətlərin gərginləşməsindən narahatdır. Çünki bu ölkələrin ikisi də qardaş ölkə sayılır, onlar qapışsalar, tərcüməçilik etmək bizə düşəcək. Di gəl, "pəzəvəng"i rus dilinə, "durak"ı türkcəyə çevir.

Camaatımız Suriya ərazisinə göndərilən raketlərin qulağımızın dibindən atılmasına görə narahatdır. Çünki əgər o raketlərdən biri İŞİD-in əlinə düşsə və onlar da onu ordan bəri helləsələr, raket gəlib qulağımızın dibindən dəyəcək.

Ermənistan narahatdır ki, Azərbaycan regiondakı və dünyadakı narahatlıqlardan istifadə edərək Qarabağda nəsə bir narahatlıq yaradacaq.

Təbii ki, Amerika və Avropa buna görə ayrıca narahat olacaq. Çünki burada neft-qaz kəmərləri var, fəsil də üzü qışa gedir, nə olar, nə olmaz.

Beynəlxalq birjalar və fondlar narahatdır, Suriyanın bombalanması neftin qiymətini qaldıra, yeni iqtisadi böhran dalğası əmələ gələ bilər.

Hər şeyə görə narahat olan BMT neçə vaxtdan bəridir ki, İraq və Suriyaya görə çox narahatdır.

İraq İŞİD-in Suriyadakı hissəsinin bombalanmasından, özündəki hərbi birləşmələrinin bombalanmamasından narahatdır. Bağdad hökuməti istəyir ki, Rusiya İraq ərazisini də bombalasın.

Regiondakı kürdlər və türkmənlər hamıdan çox narahatdırlar. Ona görə ki, İŞİD də atanda bomba onlara dəyir, ABŞ, Rusiya, Türkiyə atanda da.

NATO narahatdır ki, təşkilatın üzvü olan ölkə müharibəyə cəlb edilə bilər. Elə olsa, gərək NATO Türkiyəyə qahmar çıxsın.

Rusiya bu məsələnin belə alınmasına görə narahatdır, amma özünü elə göstərir ki, guya NATO-filan saymır.

Ukrayna Rusiyanın dünyaya direşməsindən narahatdır, demək ki, "rus ayısı" yumşalmır.

Beləcə, dünyada hamı narahatdır. Yaxın Şərqdən uzaq olan Yaponiya da, Avstraliya da, Çili də, Kanada da rahat deyil.

Bu, son yüz ildəki III böyük narahatlıqdır. İntəhası əvvəlki ikinci narahatlığın adı müharibəydi.



# "X"-"Y"-"Z" təsnifatına sözardı

Hacı İlqar İBRAHİMOĞLU

**«Yeni Müsavat» qəzetinin «Qonaq» rubrikasında olmaq çox maraqlıdır. Növbəti günlər müsahibənin hissə-hissə verilməsi və ona reaksiyalar çox maraqlı olur.**

Bu dəfə də belə oldu. Çoxlu sayda xəbər portalı bir neçə gün davam edən müsahibəni istinadla paylaşdı. Sosial şəbəkədəki dostlar da öz töhfələrini verdilər. Mövzu spektri çox geniş olduğu üçün müxtəlif istiqamətdən reaksiyaların olduğunu gözləyirdim.

Müsahibənin geopolitik çalarları ciddi araşdırmaçılardan olan Füzuli Şəfiyevin xüsusi diqqətini çəkmişdi. Hörmətli politoloq Leyla Əliyevanın diqqətini Obamanın tənqid olunması cəlb etmişdi; dəyərli yazıçı İlqar Kamil paylaşmasında müsahibədəki nəsillərin təsnifatına vurğu etmişdi. Bir çox başqa şərhlər və rəylər də yer almışdı. Bu sırada ölkənin köşə ustalarından olan Zamin Hacının da müsahibəyə diqqət ayırması, təbii ki, diqqətəlayiqdir.

Zamin bəy müsahibəyə öz üslubunda yer ayırıb. Anlayıram ki, bu, çox çətin üslubdur. Bəzən alınmaya da bilir. Yəni oxucu ciddiyə də ala bilər. Misal üçün, oxuculardan kimdəsə elə təəssürat yarana bilər ki, Zamin Hacı son yazısında təltifatlarla mükafatlandırılmadığına görə narahatçılıq keçirdir *("Dağıl, ey dünya, bu qədər yazıram, taxta medal da verən yoxdur" tipli qeydləri nəzərdə tuturam)*. Bizimlə bağlı hissədə də, elə bu cür. Hər halda bəzi qeydləri sıra ilə yazmaq faydalı olardı:

**1)** Zamin Hacının müsahibəni oxuyub nəsillərin təsnifatından bir nümunəni ("Z" nəsli) artıq öz köşəsində qeyd etməsi ümumilikdə, çox müsbət haldır. Elmi bir mövzunun tirajlanıb populyarlaşması gerçəkdən çox böyük fayda kəsb edir.

**2)** Bölücülük haqqında zarafat hissəsi də çox uğurlu alınıb. *("Onsuz uca millətimizi parçalayan çox idi, hörmətli Hacı da bir yandan baltanı vurub, camaətimizi 3 yerə ayırmışdır: "İks", "İqrek" və "Zet" nəsilləri" hissəsi)*.

**3)** Son hissədə isə əvvəla, mövzunun elmi tərəfinə varmayıb, bir az da sanki insafdan uzaqlaşıb. Belə ki, sosioloji bölgü olan nəsil təsnifatını (X, Y, Z nəsilləri) nədənsə loqarifmik mövzu ilə əlaqələndirmək istəyib. Əlbəttə ki, interdistiplinar baxımdan bəndeyi-həqir həmin nəsillərin, ehtiyac olsa, riyazi modelləşdirilməsini də mümkün sayır. Amma sözügedən müsahibədə söhbət sırf sosioloji araşdırmalardan gedirdi. Və bir imam-camaat və ilahiyyatçı olaraq, bəndeyi-həqirin dəvət fəaliyyətində müxatibinin hansı sosio-kultural kateqoriyaya aid olmasını araşdırmasından daha təbii nə ola bilər ki? Və bu təsnifat bütün humanitar sahələrin ciddi araşdırma predmetinə çevrilməkdədir. Bu mənada, Zamin Hacının buradakı qeydləri daha çox sarkazm, bəlkə də Içernıy ömor» (qara yumor) kimi də anlaşıla bilər *("Nə etməli, bizdə vəziyyət belədir: din xadimi loqarifmik tənlik qurur, riyaziyyatçı alim isə Aşuranın hikmətlərindən danışır")*.

Məlumdur ki, yazı çətin mövzudur. Xüsusən də hörmətli Zamin Hacının seçdiyi üslubda. Ona görə də davam etməkdən başqa bir yol yoxdur. Xətalar olanda da xoşdur. Uzağı 30 dəqiqəmizi də bu yazını yazmağa sərf edərik.

İstənilən halda, elmi mövzuya aktuallıq gətirməsi baxımından, Zamin Hacının etdiyi, özü demişkən, təqdirəlayiqdir.

# Seçkiöncəsi dindarlara nəzarət güclənir

## "Azərbaycanda islamçılara qarşı aparılan siyasət onu göstərdi ki..."

**Hakimiyyət dinə nəzarəti gücləndirir. Parlamentin son iclasında "Dini etiqad azadlığı haqqında" və "Kütləvi informasiya vasitələri haqqında" qanunlara dəyişikliklər ölkəmizin dini cameəsi tərəfindən heç də birmənalı qarşılanmayıb. Bundan sonra Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi dini mərkəzdən, idarələrdən dini fəaliyyətə dair məlumatları və maliyyə hesabatlarını alacaq.**

Dəyişikliklər Azərbaycanda dini məlumatların yayılması sahəsinə nəzarətin gücləndirilməsi, din sahəsində mütəxəssislərin hazırlanmasına diqqətin artırılması ilə bağlıdır. "Dini etiqad azadlığı haqqında" Qanunun 29-cu maddəsinə edilməsi nəzərdə tutulan əlavəyə görə, bundan sonra müvafiq icra hakimiyyəti orqanı dini mərkəzdən, idarələrdən və digər dini qurumlardan dini fəaliyyətə dair məlumatları və maliyyə hesabatları da ala biləcək. Mövcud qanunvericiliyə görə, müvafiq icra hakimiyyəti orqanı dini mərkəzdən, idarələrdən və digər dini qurumlardan zəruri məlumatları alır.

Hakimiyyət dini mətbuata qarşı da siyasətində dəyişiklik edib. Belə ki, müvafiq icra hakimiyyəti orqanı dini təyinatlı ədəbiyyatın, audio və videomateriallarının, mal və məlumatların və dini məzmunlu başqa məlumat materiallarının satışı üzrə ixtisaslaşdırılmış satış məntəqələrində yoxlamalar aparacaq. Bundan başqa, din sahəsində mütəxəssislərin hazırlanması və ixtisasların artırılması üçün tədbirlər görəcək, ixtisasartırma kurslarını təşkil edəcək.

"Kütləvi informasiya vasitələri haqqında" Qanunun 14-cü maddəsinə edilməsi nəzərdə tutulan dəyişiklik isə dini mətbu nəşrlərin təsis edilməsi ilə bağlı müvafiq icra hakimiyyəti orqanının rəyinin alınmasını nəzərdə tutur. Maddəyə ediləcək əlavəyə görə, bundan sonra dini mətbu nəşrlərin təsis edilməsi ilə bağlı sənədlərə müvafiq icra hakimiyyəti orqanının rəyi də əlavə olunmalıdır.



**Parlamentdəki dinlə bağlı müzakirələrdə ölkəmizdəki dini təşkilatlardan ikisinin seçkiləri boykot etməsi məsələsinə də münasibət bildirilib. BAXCP sədri, deputat Qüdrət Həsənquliyevin çıxışı dini cameə tərəfindən heç də birmənalı qarşılanmayıb. O, bu qurumların fəaliyyətinin dayandırılmasını təklif edib:** "Azərbaycanda bu gün 2 dini təşkilat var ki, onlar siyasi açıqlamalar verirlər. Bu sahədə ciddi nəzarətin olmasına ehtiyac var. Dini təşkilatlar son zamanlar bəyanat veriblər ki, seçkiləri boykot edəcəklər. Mən azı iki belə dini təşkilatın adını çəkə bilərəm. Əslində onlar QHT-lərdir və belə bir səlahiyyəti yoxdur. Məncə, bununla bağlı Dini Qurumlarla iş üzrə Dövlət Komitəsi Ədliyyə Nazirliyinə müraciət etməli və belə qurumların fəaliyyəti dərhal dayandırılmalıdır. Mən təklif edirəm ki, komitəyə belə bir səlahiyyət verilsin. Son zamanlar mətbuatda dini ekspert kimi çıxış edənlər müəyyən siyasi bəyanatlar verirlər. Buna misal olaraq bu yaxınlarda həbsdən çıxan şəxslərdən birini qeyd edə bilərəm. Hesab edirəm ki, bu birbaşa siyasi fəaliyyətlə məşğul olmaqdır. Məncə, artıq zamanı çatıb ki, bu sahə ilə bağlı da qanunvericilik sahəsində addımlar atılsın".

**"Müsəlman Birliyi" Hərəkatının sədri ilahiyyatçı Tale Bağırzadə Milli Məclisdə qəbul edilən dinlə bağlı son qərarlara öz kəskin etirazını bildirdi:** "Hazırkı deputatlar xalqın səsi ilə Milli Məclisdə oturmayıblar. Bu xalqın Milli Məclisi deyil. "Müsəlman Birliyi" Hərəkatı olaraq, heç bir dini qurum deyilik. Parlamentdə qəbul edilən qərarlar, verilən bəyanatlar, edilən çıxışlar çox savadsız və məntiqsizdir. Orada qeyd olunub ki, dini qurumlar ləğv olunmalıdır. Biz dini qurum deyilik ki, ləğv olunaq. Sadəcə, hərəkat kimi fəaliyyət göstəririk. Dini etiqadından asılı olmayaraq, konstitusiya ilə hər kəs Azərbaycan vətəndaşıdır. Seçkilərə öz mövqeyimizi bildirə bilərik. Hər bir təşkilatın, şəxsin öz işidir. Azərbaycanda islamçılara qarşı aparılan siyasət onu göstərdi ki, keçmişdən dinə qarşı atılan addımlar uğursuzluqla nəticələndi. Əvvəllər bizi narkotiklə, silahla şərlədilər, böhtan xarakterli ittihamlarla həbsxanalara atdılar. İndi yavaş-yavaş görürlər ki, bu təzyiqlər xalqda inam yaradır. İslamçıların mövqeləri günü-gündən güclənir. Biz istəyərdik ki, birlik olsun. Siyasi partiyalar birlikdə olsunlar. Deputatın çıxışı onu göstərir ki, Milli Məclisdə kimlər oturub. Milli Məclisin son qərarları qorxudan doğur. Sivil mübarizəmizi aparırıq. İslamçıların boykot çağırışı bunları narahat edib. Ölkədə ciddi problemlər var, dini məhbuslar həbsdədir. İnsanların şəxsiyyət vəsiqələrinin dəyişdirilməsinə icazə verilmir. Orada qanunvericilikdən dəm vururlar. Amma seçki ilə bağlı qəsdən yubadılan şəxsiyyət vəsiqələrinin verilməməsi hallarına etiraz etmirlər. Bu, birbaşa konstitusiyaya hörmətsizlikdir. Məktəblərdə hicabla bağlı problem yenə də qalır. Belə bir problemi olan dini cameənin seçkilərə getməsi, seçkinin nəticələrini tanıması hörmətsizlik olardı. Ona görə də açıq mövqe ortaya qoyduq. Nə qədər ki, bu problemlər həllini tapmayıb, seçkiləri tanımırıq".

**T.Bağırzadə seçkiöncəsi dini mətbuata qarşı hücumlardan da söz açdı:** "Bunlar kağız üzərində qalan qanunlardır. 2013-cü ildə xaricdə təhsil almış ilahiyyatçıların Azərbaycanda dini mərasimlərə başçılıq etmələri ilə bağlı Cinayət Məcəlləsinə maddələr əlavə etdilər. Onların çıxışlarının qarşısını almaq istədilər. Amma göründüyü kimi, nəticəsi olmadı".

❑ Cavanşir ABBASLI

# Bu gündən təşviqat başlayır: 1 saniyəsi 20 manat...

**Oktyabrın 9-dan etibarən 2015- ci ilin noyabrın 1-də keçiriləcək parlament seçkiləri ilə əlaqədar təşviqat kampaniyasına start veriləcək. "Qafqazinfo" xatırladır ki, kampaniya oktyabrın 9-da səhər saat 08:00-da başlayıb, ayın 31-i saat saat 20:00-da başa çatacaq.**

Qeyd edək ki, Mərkəzi Seçki Komissiyası parlament seçkiləri ilə bağlı kütləvi informasiya vasitələrində ödənişsiz efir vaxtı və dərc üçün yer ayrıldığını bəyan edib.

Milli Məclisin seçkilərdə kütləvi informasiya vasitələrində seçkiqabağı təşviqat aparmaq məqsədilə ölkə üzrə birmandatlı seçki dairələrinin 60-dan çoxunda namizədləri qeydə alınmış siyasi partiyalara, siyasi partiyaların bloklarına ödənişsiz efir vaxtı və dərc üçün İctimai Televiziya və Radioda, "Azərbaycan", "Xalq", "Bakinski raboçi" qəzetlərində yer ayrılıb. Xatırladaq ki, yalnız hakim partiyanın 60-dan artıq nümayəndəsi qeydə alınıb, buna görə də YAP ödənişsiz efir imkanından imtina edib.

İctimai Televiziyada isə ödənişli efir vaxtının 1 saniyəsi 20 manat təşkil edir.

YENİ MÜSAVAT
N 223 (6251) 9 oktyabr 2015

# Dövlət universitetlərini özəlləşdirmək təklifi etiraz doğurdu

**Milli Məclisdəki büdcə müzakirələrində dövlət universitetlərinin özəlləşdirilməsi ilə bağlı təklif verilib və müzakirə edilib. Deputat Qüdrət Həsənquliyev dövlət büdcəsinin müzakirəsi zamanı bildirib ki, əgər dövlət universitetləri özəlləşdirilərsə, bu, dövlət büdcəsinə gəlir gətirər və eyni zamanda büdcənin yükünü azaldar:**



"Dövlət universitetlərini özəlləşdirmək lazımdır. Təhsil kreditləri vermək lazımdır ki, həmin kreditlər hesabına imkansız adamlar təhsil ala bilsinlər. Universitetlər isə əksinə, dövlət büdcəsindən maliyyələşməsin və dövlət büdcəsinə vergi ödəsin ki, müəllimlərin əmək haqlarını artıra bilək".

**Maraqlıdır, dövlət universitetlərinin özəlləşdirilməsi təhsilə və büdcəyə necə təsir edəcək?**

**"XXI əsr" Təhsil Mərkəzinin rəhbəri Etibar Əliyev bu fikrin absurd olduğunu dedi:** "Dövlət universitetlərinin özəlləşdirilməsi absurddur. Cəmiyyət və dövlət buna hazır deyil. Bu istiqamətdə biz tamamilə fərqli özəlliklərə malikik. 1992-ci ildən başlayaraq yaradılan özəl ali məktəblər rəqabət mühiti inkişafa yardımçı ola bilmədi. Özəl ali məktəblərin yaradıcılarının çoxu normal təhsil verməkdən çox pul qazanmaq haqqında düşündülər. Nəticədə onların bir neçəsi bağlandı.

Hazırda dünyanın inkişaf etmiş ölkələrinin demək olar ki, hamısında dövlət ali məktəbləri fəaliyyət göstərir. Məsələn, Almaniyada fəaliyyət göstərən 326 universitetin böyük əksəriyyəti dövlət ali məktəbləridir və təhsil pulsuzdur. Fransada tanınmış universitetlərin 85-i dövlət ali məktəbidir. Türkiyənin məşhur Orta Doğu Texniki Universiteti, İstanbul Texniki Universiteti, Mərmərə Universiteti kimi məşhur təhsil ocaqları dövlətə məxsusdur. Maraqlıdır ki, qardaş ölkədə son vaxtlar təsis olunmuş universitetlərin tam əksəriyyəti dövlət universitetləridir. Bizdə çox vaxt siyasətçilər, deputatlar və digər sahələrin nümayəndələri müqayisələri düzgün aparmadan nəticə çıxarırlar. Məsələn, Harvard Universitetini 1636-cı ildə ingilis missioneri və filantropu Con Harvard yaradıb və elə o vaxtdan reytinqlərdə liderliyi əldən verməyən bu universiteti özəl kimi fəaliyyət göstərir. Bununla yanaşı, Kaliforniya Universiteti, Miçiqan və Vircinya kimi tanınmış universitetlər konkret ştatlara məxsusdurlar. Azərbaycanın ən yaşlı universiteti sayılan Bakı Dövlət Universiteti yarananda özəl ali məktəb kimi yaranmayıb. Bu ali məktəbdən "dövlət" sözünü çıxarsan, dərhal nüfuzdan düşər".



**Etibar Əliyev:** "Dövlət universitetlərinin özəlləşdirilməsi absurddur"



**Vüqar Bayramov:** "Bu məsələ, ümumiyyətlə, müzakirə edilməməlidir"

**E.Əliyev dövlət universitetlərinin üstünlüklərinin çox olduğunu bildirdi:** "Dövlət universitetlərinin üstünlüyü ondan ibarətdir ki, onların tədris planları dövlətin təhsil siyasətini həyata keçirən Təhsil Nazirliyi tərəfindən tənzimlənir və standartlar hazırlanır. Bununla yanaşı, dövlət universitetlərində dərs demək istəyən müəllimlərin bilik və bacarıqlarına, elmi nəticələrinə dövlətin müvafiq qurumları nəzarət edir. Hazırda bizim dövlət ali məktəblərində təhsil alan tələbələrin 32%-i dövlət vəsaiti hesabına təhsil alır. Bu anormal haldır. Bu göstərici onu deməyə əsas verir ki, burada dövlət anlayışı simvolik xarakter daşıyır. Dövlətin adı olan yerdə təhsil pulsuz olmalıdır. Diqqət edin: yeni yaradılmış Bakı Ali Neft Məktəbi və ADA kimi ali məktəblər köhnə ali məktəbləri tədrisin keyfiyyətinə görə üstələyib. Prezident təqaüdçülərinin (690-700 bal toplayanlar)17-si Bakı Ali Neft Məktəbinə, 26-sı isə ADA-ya daxil olub. Məgər bunlar özəl ali məktəblərdir? Halbuki dövlət ali məktəblərindən Neft Akademiyası, Pedaqoji Universitet, Dillər Universiteti, özəl ali məktəblərdən Qərb Universiteti, Xəzər Universitetini prezident təqaüdçüləri seçməyiblər. Bu hal onu göstərir ki, özəl və dövlətə məxsusluğundan asılı olmayaraq yaxşı təhsil qurmaq mümkündür. Bu keyfiyyət ali məktəb rəhbərlərinin qabiliyyəti, savadı və iradəsindən asılıdır. Azərbaycan elə ölkələrdəndir ki, burada dövlət təhsilin bütün pillələrini qanadları altına almalıdır".

**Dövlət universitetlərinin özəlləşdirilməsinin iqtisadi baxımdan faydalarına gəldikdə isə iqtisadçı ekspert Vüqar Bayramov bunun dövlət büdcəsinə böyük həcmdə gəlir gətirməyəcəyini bildirdi:** "Dövlət universitetlərinin özəlləşdirilməsi məsələsi, ümumiyyətlə, müzakirə edilməməlidir. Nəzərə almaq lazımdır ki, liberal iqtisadi imkanları olan ABŞ-da belə dövlət universitetləri fəaliyyət göstərir. Amma Azərbaycanda bir sıra universitetlərin ləğv edilməsi məsələsinə baxmaq olar. Bu gün birmənalı şəkildə ali təhsil sektorunda mülkiyyət münasibətlərinə baxılmasına ehtiyac var. Bu baxımdan dövlət universitetlərinin özəlləşdirilməsi məsələsi gündəmdə olmamalıdır. Universitetlərin özəlləşdirilməsinin bir xeyri o ola bilər ki, dövlət büdcəsindən bu istiqamətə ayrılmalar azalar. Amma uzun müddətli olaraq dövlət universitetlərinin özəlləşdirilməsi dövlət büdcəsinə böyük həcmdə gəlir gətirməyəcək. Özəlləşmə zamanı dövlət universitetləri gəliri təmin edə bilər, amma sonradan büdcədən ayrılmalar azalacaq. Ancaq özəl universitetlərdən gəlir əldə etmək mümkün olmayacaq. Buna görə də düşünürəm ki, hər bir universitetə ayrı-ayrılıqda baxılmasına ehtiyac var. Bir-birini təkrarlayan universitetlərin özəlləşdirilməsi mümkündür. Məsələn, iqtisadiyyat sahəsində bir-birini təkrarlayan universitetlər var. Amma aparıcı dövlət universitetlərinin özəlləşdirilməsi indiki məqamda məqsədəuyğun deyil".

❑ **Günel MANAFLI**

# MTRŞ-ANS davasında daha bir məhkəmə iddiası

**Mehman Əliyev:** "MTRŞ müəyyən dairənin tapşırığını yerinə yetirir"

**Son günlərin əsas müzakirə mövzusu Milli Televiziya və Radio Şurası (MTRŞ) ilə telekanallarımız arasında cərəyan edən məlum hadisələrdir. MTRŞ-nin sentyabrın 30-da keçirilən iclasından sonra tərəflər arasında gərginlik hər ötən gün daha da artır.**



Mehman Əliyev

MTRŞ bir sıra tok-şou verilişlərini qapatsa da, hadisələrin mərkəzi nöqtəsində ANS dayandı. Buna səbəb də ATV-dən fərqli olaraq, ANS telekanalının prosesə direniş göstərməsidir. Ölkəmizdə fəaliyyət göstərən televiziyalar içərisində ANS yeganə kanaldır ki, arxasında heç bir məmur və ya qurum dayanmır. Yəni bir növ müstəqilliyini qismən saxlaya bilib. ANS daha çox Qərb dairələrinə yaxın kanal kimi də qəbul edilir. Bütün bunlara görə, kanalın MTRŞ-nin hər hücumunda əsas hədəfə tuş gəldiyi deyilir.

MTRŞ rəhbəri Nuşirəvan Məhərrəmlinin açıqlamalarında birbaşa ANS-i hədəfə alması, kanal barəsində sərt fikirlər səsləndirməsi bir çox mətləblərdən xəbər verdi. O, açıq şəkildə bir sıra kanalların bağlanma təhlükəsi ilə üz-üzə qaldığını üstüörtülü şəkildə vurğuladı. Onun "Azərbaycanda qoy 10 televiziya kanalı olmasın, 6 və ya 7 televiziya kanalı olsun" kimi fikirləri, bəlkə də son 10 gündə yaşanan qalmaqalların açarı idi...

Bütün bunlardan sonra bəzi ekspertlər proqnozlaşdırırlar ki, ANS-i 2006-cı ilin taleyi gözləyir. Gedən proseslər də bunu deməyə əsas verir. MTRŞ-nin son iclasında "Reklam haqqında" Azərbaycan Respublikası Qanununa əsasən, ANS-in 54 min manat məbləğində cərimə olunması, son olaraq da rəsmi qurumun seriallara ayrılan dövlət büdcəsindən kanalın düzgün istifadə etməməsi ilə bağlı məhkəməyə müraciət etməsi yaşanan proseslərin xoş sonluqla bitməyəcəyinin göstəricisidir.

Hazırda hakimiyyətə qarşı loyal münasibət sərgiləyən bir kanala qarşı seçkiöncəsi bu şəkildə basqıların olması suallar doğurmaya bilməz.

**"Turan" İnformasiya Agentliyinin rəhbəri Mehman Əliyev bildirdi ki, hər seçkiöncəsi ANS-ə qarşı belə təzyiqlər olur:** "Seçkiöncəsi daim şahidi oluruq ki, ANS-ə ya xəbərdarlıq edilir, ya da Vergilər Nazirliyi araşdırmalara başlayır. Bu, daha çox parlament seçkiləri zamanı kanalın özünü müəyyən çərçivədə saxlaması ilə bağlıdır. Reallıqdır ki, bütün media orqanlarında az-çox dərəcədə senzura var. Bu, birbaşa seçkilərlə əlaqədardır".

**M.Əliyev ANS-in 2006-cı ildəki qədər təzyiqlərə məruz qalmayacağını düşünür:** "İndiki vaxtda belə bir vəziyyət görmürəm. 2006-cı il kifayət qədər gərgin dövr idi. Əhalinin qarşıdan gələn seçkilərdə fəal olmasını istəmirlər. MTRŞ müəyyən dairənin tapşırığını yerinə yetirir. Çünki müstəqil qurum deyil və Prezident Administrasiyasına bağlıdır. Cəmiyyət kanallardan obyektivlik, düzgün məlumat, balans qoruma gözləyir. Çünki hər bir vətəndaş normal məlumat almalıdır ki, buna uyğun da hərəkət etsin. Bütün bunlar hüquq və qanunların pozulmasıdır. MTRŞ-nin özü də əsasnaməsinə əməl etmir. O zaman kimə lazımdır bu qurum?"

**"Turan" rəhbəri ANS-in Qərblə bağlı olması fikirlərini qəbul etmir:** "Açığı, ANS-in Qərbə bağlı olduğunu, Qərbin müəyyən dairələri tərəfindən dəstəkləndiyini görmürəm. Əslində daha çox prezidenti və onun yaxın ətrafını təqdir edir. Tək ANS böhranda deyil. Bütün telekanallar bu vəziyyətdədir. Azərbaycan mediası da bu vəziyyəti yaşayır. Bu ondan irəli gəlir ki, bütün mediaya hakimiyyət tərəfindən ciddi təzyiqlər var. Hamı qorxu altındadır. Müxtəlif təzyiq növləri ilə media nəzarətə götürülüb. Medianın özünü dolandıra bilməməsi kimi ciddi problem var. Uzun müddət davam edən vəziyyətdir. ANS bu vəziyyətin bir tərkib hissəsidir".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 223 (6251) 9 oktyabr 2015



# Mənəvi dəyərlərə uyğun sürüşmə

Zamin HACI
zaminhaci@gmail.com

"Bu saatda mən səni qandırım, balam! Mənə yəqin hasil olubdur ki, bizdə hər adət və xasiyyət var isə, əksi Parij əhlindədir. Məsələn, biz əlimizə həna qoyarıq, firənglər qoymazlar, biz başımızı qırxarıq, olar başlarına tük qoyarlar; biz papaqlı oturarıq, olar başı açıq otururlar, biz aşkara peşkəş alarıq, olar gizlin alarlar, bizdə çox arvad almaq adətdir, Parijdə çox ər almaq".

**(Mirzə Fətəli Axundov, "Hekayəti-Müsyo Jordan həkimi nəbatat və dərviş Məstəli şah cadukuni-məşhur")**

**Bakı Beynəlxalq Avtovağzalının çox qeyri-praktik bina olduğunu, Ziya müəllimin yüz milyonlarla dövlət pulunu çalaya gömməsini qabaqlar çox yazmışam. İndi başqa bir maraqlı, simvolik olay yaşanır: Ziya Məmmədovun vurulması prosesi ilə eyni vaxtda avtovağzal da çökür. Orda sürüşmə zonaları, hansısa hissənin çökməsi dəfələrlə olub, diqqətli oxucular yada sala bilər. Amma budəfəki çökmə nəsə maraqlı şəkildə gedir. Nə qədər yamasalar da qabağını ala bilmirlər. Bəlkə qəsdən almırlar? Axı deyilənə görə, orda sürüşməyə baxıb qiymət verənlər... Fövqəladə Hallar Nazirliyinin əməkdaşlarıdır.**

Ya da ola bilər vağzal Ziya müəllimlə ayrılığa dözmür, onun arxasınca sürüşməyi qərara almışdır. Hər halda, yaxın günlərdə həm avtovağzaldan, həm başqa nəqliyyat obyektlərindən yararlanan zəhmətkeşlərimizdən maksimum diqqətli olmağı xahiş edərdik. Mərrix ulduzunun fəlakəti Ziya müəllimin başı üzərində dolaşır. Elə orda da su tapmışdılar bu yaxınlarda. Bəlkə vağzalımızın, türkün məsəli, altını isladan naməlum su mənbəyi elə Mərrixdədir?

Şeytan detallarda gizlənir, necə deyərlər. Örnək üçün, dünənki yazımda da toxunmuşdum, MTRŞ-nin bəzi telekanalizasiyalardan mənəvi dəyərlərimizə uyğunluq sertifikatı tələbinin mənası nədir? Azərbaycan camaatının başqa dünya xalqlarından fərqlənən hansı müsbət dəyəri var ki, onu televizorda təbliğ etməlidirlər? Bəlkə biz başqa xalqlara nisbətdə az yalançıyıq, az yaltağıq, az saxtakarıq? Bunlar boş-boş söhbətlərdir. Biz başqa xalqlardan nə əskik, nə artığıq. O cümlədən, hansısa fövqəladə milli-mənəvi dəyərimiz də yoxdur. Statistika bunu göstərir.

Xəbər lentlərinə baxın. "Ata sevişdiyi gəliniylə birləşib oğlunu öldürdü", "Qardaş qardaşı bıçaqladı", "Oğul anasını doğradı", "Məktəb direktorunun oğlu azyaşlını çimərlikdə zorladı" tipli cinayət xəbərləri balaca ölkəmiz üçün çoxdur. Avropanın bəzi ölkələrində heç illərlə belə cinayətlər olmur. Belə mühiti nəyə görə başqa xalqlara örnək göstərməlisən?

Özü də xalq bu "mentalitet", "mənəvi dəyərlər" tipli söhbət müştəvilərində saxta ziyalılarından, ikiüzlü rəhbərlərindən daha səmimidir. Misal üçün, bizdə guya vətəndaş nikahına, həmçinin nikahdan kənar uşaq doğulmasına mənfi münasibət var. Guya bu kimi şeylər mənəvi dəyərlərimizə ziddir, Qərbin, masonların-zadın bizə sırıdığı şeylərdir. Eləmi? Onda buyurun, Dövlət Statistika Komitəsinin rəsmi informasiyasını oxuyun: "Azərbaycanda 2013-cü ildə rəsmi nikahı olmayan qadınlar tərəfindən 25069, 2014-cü ildə 25486 uşaq doğulub. 2014-cü ildə belə uşaqların sayının nisbətən artmasına baxmayaraq, şəhər yerlərində rəsmi nikahda olmayan qadınların doğduğu uşaqların sayı azalıb. 2013-cü ildə şəhər yerlərində 10892, 2014-cü ildə isə 9772 uşağı rəsmi nikahda olmayan qadınlar dünyaya gətirib. Kənd yerlərində isə rəsmi nikahda olmayan qadınlar tərəfindən 2013-cü ildə 14177, 2014-cü ildə 15714 uşaq doğulub" (Trend İA).

Bu, illik uşaq doğulmasının hardasa 20-25 faizə qədəridir. Deməli, Azərbaycan xalqı dövlət sənədlərinə barmaqarası yanaşır, sevgi, iki insanın bir-birinə səmimi hissləri kimi cəhətlərə önəm verir. Çox da əcəb eləyir.

Əlbəttə, bunun içində dini nikahlar, rəsmi olmayan münasibət pozularkən iqtisadi mübahisələrin həllində çətinlik, uşaqların gələcəkdə üzləşə biləcəyi maddi və psixoloji problemlər də var. Mən sadəcə ümumi tendensiyanı, azərbaycanlıların başqa xalqlardan hansısa uydurma mənəvi, məişət üstünlüyünün olmadığını göstərmək istədim. O şeyi ki, əslində hamı bunu ürəyində bilir, dilinə gətirmək istəmir. Bəlkə bizim mənəvi dəyərimiz elə budur - saman altından su yeritmək?

Əgər elədirsə, avtovağzal tam mənəvi şəkildə çökür.

# Bakıdan Avropa Şurası baş katibinə sərt etiraz

## "Anti-Azərbaycan qüvvələri öz çirkin oyunlarına son qoymağa çağırırıq..."; Novella Cəfəroğlu: "Gərək baş katibə işçi qrupun fəaliyyəti barədə məlumatlar verəydik"

**Xəbər verildiyi kimi, Avropa Şurasının İnsan haqları üzrə Azərbaycanla birgə işçi qrupdan çıxdığı barədə Avropa Şurasının baş katibi Torbyorn Yaqlandın mətbuat katibi bəyanat yayıb. Bəyanatın mətnində deyilir ki, Yaqland oktyabrın 7-də Nazirlər Komitəsinə Azərbaycanda insan hüquqları üzrə birgə işçi qrupda iştirakına son qoymaq qərarını açıqlayıb.**




2014-cü ilin oktyabrından Avropa Şurasının nümayəndəsi Bakıda Azərbaycan vətəndaş cəmiyyəti və hakimiyyət arasında dialoqun bərpasına yönəlmiş görüşlərdə iştirak edib. Bu təşəbbüslərə baxmayaraq, ölkədə hüquq müdafiəçiləri ilə bağlı ümumi vəziyyət həddindən artıq pisləşib. Həbs edilmiş hüquq müdafiəçilərinin sayı artır, Avropa Şurası isə onların saxlanılma şəraitinin qəbuledilməz olduğu haqda həyəcan doğuran məlumatlar alır. Bəyanatda sonra deyilir ki, bununla əlaqədar baş katib Azərbaycan prezidenti İlham Əliyevə öz qərarı haqqında məlumat verib.

**İşçi qrupunun üzvü, Dilarə Əliyeva adına Qadın Hüquqları Cəmiyyətinin sədri, hüquq müdafiəçisi Novella Cəfəroğlu "Yeni Müsavat"a açıqlamasında Yaqlandın bəyanatından təəccübləndiyini bildirdi:** "Ona görə ki, əslində Avropa Şurası heç vaxt Azərbaycanda yaradılmış İnsan haqları üzrə birgə işçi qrupun üzvü olmayıb. Sadəcə olaraq, Avropa Şurasının nümayəndəsi qrupun iclaslarında müşahidəçi qismində iştirak edirdi".

**Cəfəroğlu xatırlatdı ki, birgə işçi qrup Avropa Şurası ilə əməkdaşlıqdan əvvəl də fəaliyyət göstərib:** "İşçi qrup həm Prezident Administrasiyası, həm prokurorluqla danışıqlar aparır, işlər görülür. Mən hesab edirəm ki, işçi qrupun fəaliyyətini dayandırmaq olmaz. Əgər bir sadə vətəndaşa köməklik göstərilirsə, bu təqdirəlayiqdir. İşçi qrupda olanlar təcrübəli hüquq müdafiəçiləridir. Bir il ərzində 50 nəfərin işinə təzədən baxılmasına nail olunub. İşçi qrupun fəaliyyəti nəticəsində bir neçə nəfər həbsdən azad edilib, bir neçəsinin cəzası azaldılıb, evindən qanunsuz çıxarılanlar evinə qaytarılıb. İkincisi, biz bu qrupda Yaqlanda və ya Avropa Şurasına görə deyil, Azərbaycan vətəndaşlarına lazım olanda dəstək olmağa görə varıq. Hesab edirəm ki, işçi qrup bu müddətdə özünü doğruldub. Biz gərək Avropa Şurasının baş katibinə işçi qrupun fəaliyyəti barədə məlumatlar verəydik. Bu zaman o, başqa fikirdə olardı. Biz vaxt tapsaq Strasburqa gedib Yaqlandla görüşəcəyik".

Hüquq müdafiəçisi onu da bildirdi ki, sanki Avropada bəzi qüvvələr Azərbaycana hər vasitə ilə təzyiq eləmək yolunu tutublar və Yaqlandın məlum bəyanatı da bunun üçündür.

**Dünən İnsan haqları üzrə işçi qrupu təcili bəyanat yayaraq Avropa Şurasının baş katibi Yaqlandın bəyanatındakı fikirlərin əsassız olduğunu bildirib:** "2005-ci ildə insan hüquqlarının müdafiəsi təşkilatlarının və Azərbaycan hakimiyyətinin nümayəndələrindən ibarət tərkibdə Azərbaycanda insan hüquqları məsələləri üzrə birgə işçi qrupu yaradılıb. Ölkəmizdə insan hüquqlarının müdafiəsi ilə bağlı bir sıra məsələlərin ortaya çıxarılması ilə əlaqədar olaraq işçi qrupu bu məsələlərin insan hüquqlarının müdafiəsi təşkilatlarının nümayəndələrinin dövlət hakimiyyəti ilə əməkdaşlığı çərçivəsində ölkə daxilində həll edilə biləcəyini vurğulayıb. Lakin anti-Azərbaycan qüvvələri o cümlədən Avropa Şurasındakı bəzi dairələr ölkəmizdə vətəndaş cəmiyyəti ilə hökumət arasında dialoqun qarşısını almağa səy göstərib. İşçi qrupunun üzvləri Avropa Şurasını bu dialoqa maneələr törətməməyə çağırıb, lakin Avropa Şurasının Parlament Assambleyası öz qərəzli yanaşması nəticəsində 2008-ci ildə işçi qrupunun fəaliyyətinin dayandırılmasına nail olub - baxmayaraq ki, qrupun fəaliyyəti dövründə məsələləri hüquq-müdafiə təşkilatları tərəfindən qaldırılmış 150-yə yaxın məhkum azad edilib.

2014-cü ildə Avropa Şurasının baş katibi Torbyorn Yaqland Azərbaycan Respublikasının prezidenti İlham Əliyevə müraciət edərək birgə işçi qrupunun fəaliyyətinin bərpa olunmasını xahiş edib və Azərbaycan prezidenti xoş niyyətini nümayiş etdirərək buna razılıq verib.

Azərbaycan vətəndaş cəmiyyətinin və hakimiyyətinin nümayəndələrindən ibarət birgə işçi qrupu 2008-ci ildən sonra birinci iclasını 2014-cü il oktyabrın 22-də keçirib. Birgə işçi qrupunun Avropa Şurası baş katibinin nümayəndəsinin iştirakı ilə keçirilmiş iclaslarında qrupun üzvləri mal edilən şəxslərlə bağlı məsələləri müzakirə edib və bu məsələlərin həlli üçün müvafiq dövlət orqanlarına, o cümlədən məhkəmələrə təkliflər hazırlayıb. Bundan əlavə, birgə İşçi Qrupunun iclaslarında insan hüquqları və vətəndaş cəmiyyətinin inkişafı ilə bağlı aktual məsələlər müzakirə olunub, bəzi problemlərin həll edilməsi üçün konkret tədbirlər həyata keçirilib. Qısa müddətdə işçi qrupunun fəaliyyəti nəticəsində insan hüquqlarının müdafiəsi təşkilatlarının siyahılarında qeyd olunmuş 16 nəfər azad olunub, 1 nəfərin cəza müddəti azaldılıb. Bu nəticələr göstərir ki, işçi qrupun fəaliyyəti insan hüquqları ilə bağlı məsələlərin səmərəli şəkildə həll olunmasına, Azərbaycanda vətəndaş cəmiyyəti ilə hakimiyyət nümayəndələri arasında konstruktiv və açıq dialoqun inkişafına xidmət edib. Bu şəraitdə Avropa Şurası baş katibinin bəyanatı yalnız təəccüb və təəssüf hissləri doğura bilər".

**Bəyanatda işçi qrupunun üzvləri onu da bildiriblər beynəlxalq hökumətlərarası təşkilatlar müəyyən dairələrin göstərişlərini yerinə yetirmək əvəzinə, hər bir üzv dövlətdəki vəziyyətə obyektiv yanaşmalı, əməkdaşlıq sayəsində əldə edilən müsbət nəticələri düzgün qiymətləndirməli, vətəndaş cəmiyyəti ilə hakimiyyət arasında dialoqu dəstəkləməlidir:** "İşçi qrupu anti-Azərbaycan qüvvələri öz çirkin oyunlarına son qoymağa çağırır və bəyan edir ki, bu oyunlar Azərbaycanda insan hüquqlarının inkişaf etdirilməsinə və vətəndaş cəmiyyəti ilə dövlət orqanları arasındakı dialoqun davam etdirilməsinə maneə törədə bilməyəcək".

❑ Etibar SEYİDAĞA



# ABŞ Azərbaycandakı vəziyyətlə bağlı müzakirələrin formatını dəyişdi

## Seminar təşkil edildi və səfir Elin Süleymanov sual yağışına tutuldu

**ABŞ paytaxtının əsas diplomatik nəşri olan "The Washington Diplomat" qəzeti tərəfindən 6 oktyabr tarixində Vaşinqtonda Azərbaycana aid seminar keçirilib. Virtualaz.org Azərbaycanın ABŞ-dakı səfirliyinə istinadən bildirir ki, səfir Elin Süleymanovla açıq müsahibə formatında keçirilən tədbirdə Vaşinqtonun siyasi, diplomatik və biznes dairələrinin çoxsaylı nümayəndələri iştirak edib. "The Washington Diplomat" qəzetinin bu yeni təşəbbüsünün ilk tədbiri məhz Azərbaycana həsr olunub.**

Bir gün sonra səfir E.Süleymanov Merilend ştatının paytaxtı olan Annapolis şəhərinin Beynəlxalq Klubunun yüzdən artıq üzvü qarşısında sonuncuların dəvəti ilə çıxış edib.

Vaşinqtonda keçirilmiş tədbir zamanı qəzetin aparıcı jurnalisti olan Lari Luksnerin suallarına cavab verərək səfir, Azərbaycanın müstəqilliyinin yenidən bərpa edildiyindən sonra gözəçarpan inkişaf yolu qət etdiyini bildirib, ölkənin nailiyyətlərindən söz açıb. Hər iki tədbirdə, diplomat Azərbaycanın təşəbbüsü ilə Bakı-Tiflis-Ceyhan neft boru kəməri və Bakı-Tbilisi-Ərzurum təbii qaz xətti kimi irimiqyaslı layihələrin uğurla həyata keçirildiyinin yalnız Azərbaycan deyil, regionun digər ölkələrinin inkişafına da töhfə verdiyini qeyd edib.





Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən bəhs edərək səfir E.Süleymanov Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzü və onun nəticələri, o cümlədən münaqişə ilə bağlı BMT TŞ-sı və digər beynəlxalq təşkilatların qəbul etdiyi bir sıra sənədlər barədə geniş məlumat verib. Münaqişənin həlli barədə suallara cavab verərək o bildirib ki, münaqişənin həlli formulası hamıya bəllidir və masa üzərindədir, bu ilk növbədə Azərbaycanın işğal olunmuş ərazilərinin Ermənistan silahlı qüvvələri tərəfindən boşaldılması və oradan qovulmuş bir milyon qaçqın və məcburi köçkünlərin öz yurdlarına qayıtmasıdır. Diplomat qeyd edib ki, beləliklə, münaqişənin həlli üçün çatışmayan yeganə amil hazırda yalnız Ermənistan rəhbərliyinin, o cümlədən Ermənistan xalqının gələcəyi və ölkənin inkişafı naminə onun həll edilməsi üçün siyasi iradəsinin olmamasıdır.

Noyabrın 1-də Azərbaycanda keçiriləcək parlament seçkiləri barədə danışan səfir E.Süleymanov bildirib ki, seçkilərlə bağlı Milli Məclisdə nəzərdə tutulan 125 deputat yerinə 1000-ə yaxın nümayəndənin namizədliyi irəli sürülüb və hər bir namizədin seçki kampaniyası üçün müvafiq şərait yaradılıb, o cümlədən ictimai mediada təmənnasız efir vaxtı ayrılıb, həmçinin seçkilərin şəffaf və demokratik şəraitdə keçirilməsinin təmin edilməsi üçün ölkədə lazımi tədbirlər görülməkdədir.

Regionda və dünyada baş verən hadisələrlə bağlı sualları cavablandıran diplomat qeyri-sabitlik, aqressiv separatçılıq və ekstremist hərəkatlar tərəfindən mövcud olan təhlükəni vurğulayıb. Dünyada dəyişən mühitdə ABŞ tərəfindən daha strateji və praqmatik yanaşmanın vacibliyini vurğulayan səfir ABŞ-ın tərəfdaş dövlətləri, o cümlədən Azərbaycanla daha aydın, obyektiv və konstruktiv siyasətin aparılmasının əhəmiyyətini bildirib. Diplomat qeyd edib ki, ikili standartlar və səthi yanaşmalar regionun inkişafına mənfi təsir göstərir.

Qeyd edək ki, ABŞ-da son vaxtlara qədər Azərbaycanla bağlı dinləmələr, dəyirmi masalar tez-tez keçirilirdi. Bu cür tədbirlərə Azərbaycandan həm rəsmi şəxslər, həm də hakimiyyətə tənqidi mövqedə olan vətəndaş cəmiyyəti fəalları dəvət olunurdular. Belə tədbirlərdə ABŞ siyasətçiləri, bu ölkədə yaşayan azərbaycanlı fəallar da iştirak edirdi və Azərbaycanda durum müzakirə edilirdi. Bu cür müzakirələrdə tənqidin çox olması və ümumiyyətlə, bu tipli tədbirlər Azərbaycan hakimiyyəti tərəfindən yaxşı qarşılanmırdı. Rəsmi Bakının bundan narahat olduğu verilən reaksiyalardan açıq duyulurdu. Hətta bir sıra hallarda ABŞ-a rəsmi müraciətlər olurdu ki, belə dinləmələr Azərbaycanın daxili işlərinə qarışmaq kimi qəbul edilir.

İndi belə görünür ki, artıq ABŞ Azərbaycanla bağlı müzakirələrin formatını dəyişir. Rəsmi Bakının narazılığına əsas olmasın deyə, birbaşa Azərbaycanın səfiri Elin Süleymanovun iştirakı ilə seminar təşkil edilir. Yeni formatda Azərbaycan səfiri sual yağışına tutulur.

❑ **E.SEYİDAĞA**

# "Putin baba yolunda"



**Aygün MURADXANLI**

**Bir neçə il qabaq Türkiyənin yaşayan ən böyük tarixçilərindən İlbər Ortaylını canlı dinləmək fürsətim olmuşdu. Ərzurumda tatarların tarixdəki və çağdaş dünyadakı yeri mövzusunda simpoziuma fəxri qonaq olaraq dəvətli idi. Ana tərəfdən tatar olan İlbər Hoca dedi ki, tarix boyu həm savaşda, həm elmdə öndərlik edən tatarların çöküşü tatar qadınların təzə dil açan övladlarına "yapma", "etmə" yerinə, "nelzya", "ne delay" deməsi ilə başladı, millətin yabançı dili irəlilədikcə xalq özü yavaş-yavaş "əridi".**

8 dili ana dili kimi mükəmməl bilən, bu bacarığı ilə ən qədim mədəniyyətlərə aid qaynaqları orjinaldan incələmək imkanı olan, ABŞ-ın, Avropanın nüfuzlu universitetlərinə illərlə dərs deyən professor Ortaylı bu təsbiti ilə dilin bir xalqın özünə sahib olması və inkişafı üçün ən əsas, ən vacib, ən əvəzedilməz element olduğunu çatdırmağı bacarmışdı. Simpoziumdakı dünyanın ən nüfuzlu universitetlərində dərs deyən tatar alimlər İlbər Ortaylının sözlərini başları ilə təsdiq işarəsi verərək qarşılayırdılar...

"Yeni Müsavat" redaksiyanın yerləşdiyi binanın alt qatında özəl uşaq bağçası var. Rusdilli bağçadı. Aylığı 350 manatdı. Hər səhər valideynlərin ora öz qarabaş balalarını gətirib "poka-poka delay pape (mame)" deyibən tərbiyəçilərə təhvil vermələrini, uşaqlara "vışel zayçik poqulyat", "xorovod", "kalinka-kamalinka" öyrədilməsini izləmək ürək ağrıdır.

Heç şübhəsiz, insanların 350, bəzən 400 manat verib millətin kökünü kəsməsinin səbəbi bir yox, bir neçədir. Belə görünür, övladının rusca dil açmasını istəyən valideynlərin böyük çoxluğunun rusca ilə bağlı kompleksləri var. Sovetlər dönəmində daha çox rusca danışan Bakı elitasına və paytaxtın mədəni mühitinə ruscanı bilmədikləri üçün inteqrə edə bilməyənlər bu açıqlarını övladlarının rusca danışması ilə qapatmaq istəyirlər. "Biz geridə qalmış deyilik, bizim ailədə də ruskayazışnı var" məsələsi... Digər bir kəsim bunu ciddi mədəniyyət problemi olduğu üçün edir. Çox qəribədir, bu təbəqə ilk baxışda modern görünür. Geyim-keçimi, yaşam standartları ilə onları toplumun ən azsaylı orta təbəqəsinə aid etmək olar. Savadları ilə yox ha, yalnız "vizual effektləri" ilə. Düşünmək qabiliyyətləri də görüntüləri kimi modern olsaydı, dünyadan xəbərdar olar, bilərdilər ki, heç bir inkişaf etmiş xalq övladına yabançıca dil açdırmır. Özünə sayğı duyan millətlər - fransızlar, ingilislər, almanlar yaponlar, çinlilər, ruslar... heç zaman öz nəslinə bu pisliyi eləmir. İnkişaf etmiş millətlər dərk edir ki, insan hansı dildə danışırsa, düşünürsə, daha çox o dilin, o mədəniyyətin daşıyıcısı olur, sonucda da o dili daşıyan xalqın köləsinə çevrilir. İstisnalar olsa da, genəldə belədir.

Kiçik bir kəsim isə bu addımı "uşaq məktəbə gedəndə ona dərsini kim öyrədəcək" düşüncəsi ilə atır. Bunlar artıq "köklü natamamlardır", ata-anaları onların evini rus məktəbinə verib, rusbabı edəndə yıxıb. Neçəsini tanıyıram... nə isadandılar, nə musadan... Adamın rəhmi gəlir, ana dilində danışmaq gərək olanda kəkələyə-kəkələyə qalırlar.

İnsanların aid olduqları millət, mədəniyyətlə bağlı aşağılıq hissi yaşamalarının ən böyük və ən dəhşətli səbəbi isə bu gün Azərbaycanın hakim siyasi elitasının rusca danışmasıdır. YAP-dakı naxçıvanlı-ermənistanlı havasını boş verin, üst düzeydə "dogma" dil ruscadı. Müstəqil Azərbaycana rəhbərlik eləsələr də 22 ildir ana dilimizi höccələməkdən, qırıq-qırıq, rabitəsiz danışmaqdan qurtula bilməyiblər. Çoxlarının övladı rusca dil açıb, indi də ingiliscə danışır. Xalqla hökumət arasında illərdir dialoq olmamasının bir səbəbi də budur. Biz, sadəcə, bir-birimizi anlamırıq, çünki başqa dillərdə düşünürük.

Bu gün Azərbaycan gündəmini sarsıdan neçə olayın kökündə duran məsələ rusqafalılıqdan doğan bəlalardır? Kim deyir ki, dil bilmək pisdir? Bəlli bir yaşdan sonra insanın daha çox dil öyrənməsi onun gələcəyinin təminatıdır. Ancaq niyə bir insan 3 yaşında öz kökündən qoparılaraq başqa millətə kölə kimi böyüdülsün? Hansı ağıllı millət öz kökünə belə balta vurar?

Daha bir vacib məqam. Bu ölkədə dövlət dili ana dilimizdir. Niyə bu işə məsul şəxslər, özünü ziyalı, alim adlandıranlar bağçada, məktəbdə, dövlət idarəsində, restoranda, mağazada, kinoteatlarda ağalıq edən ruscaya yerini göstərmirlər? "Milli düşüncə" deyəndə pafosu özünü partladanlar belə susqundu...

Hər səhər qulağım o bağçadadı, görüm, hələ körpələrə "Putin baba yolunda" şeirini öyrətməyə başlamayıblar ki?...

YENİ MÜSAVAT
N 223 (6251) 9 oktyabr 2015

# Böhran qapıda: gömrük və vergi sahibkarların yükünü azaltmalıdır

## İqtisadçı ekspertlərdən vəziyyətlə bağlı hökumətə mühüm təkliflər: “Bu, son nəticədə qiymətlərin sabitləşməsinə, yeni iş yerlərinin açılmasına xidmət edərdi”

**Yaranmış qlobal böhranın Azərbaycana da öz təsirlərini göstərməsi artıq yüksək səviyyədə etiraf olunur. Manatın devalvasiyası və neft gəlirlərinin azalması səbəbindən Azərbaycan təkcə 2015-ci ildə böyük miqdarda vəsaitlərdən məhrum olub.**

Prezident İlham Əliyev bir müddət öncə keçirdiyi müşavirədə büdcədən qənaətlə istifadə barədə tapşırıqlarını vermişdi və 2016-cı ilin dövlət büdcəsində Neft Fondundan transfertlərin əhəmiyyətli dərəcədə azaldılması da məhz bunun məntiqi nəticəsi sayılır. Ölkə başçısı bir neçə gün önceki çıxışında növbəti illə bağlı gözləntilərini də bölüşüb. “2016-cı il də iqtisadiyyat üçün asan il olmayacaq. Biz bunu bilirik və bilməliyik”-deyən prezident Azərbaycanda bütün sosial proqramların icra ediləcəyini, iqtisadi inkişafın təmin olunacağını da vurğulayıb. Bununla belə, dünyada cərəyan edən hadisələrin Azərbaycana təsirsiz ötüşməyəcəyi də qəbul olunur. Düzdür, Azərbaycan nefti son günlər yenidən sürətlə bahalaşmağa başlayıb. Artıq ikinci gündür ki, qiymət artımı sayəsində Azərbaycanın Supsa, Batumi və Ceyhan limanları vasitəsilə dünya bazarına çıxararaq satdığı “Azeri LT CIF” markalı xam neft təqribən 4,2%-ə qədər bahalaşıb. Hazırda “Azeri LT CIF” markalı neftin bir barelinin qiyməti 54,18 dollara bərabərdir.

Caspian Barrel bildirir ki, 2015-ci il sentyabrın 23-dən başlayaraq Azərbaycan neftinin bir bareli bazarlarda 50 dollardan aşağı qiymətə satılırdı. Xatırladaq ki, “Azeri LT CIF” kotirovkasının minimal qiyməti 2001-ci ilin dekabrında (19,15 dollar), maksimal qiyməti isə 2008-ci ilin iyulunda (149,66 dollar) qeydə alınıb. Ancaq bu vəziyyətin özü belə, ideal sayıla bilməz.

**Doğrudur, gələn ilin dövlət büdcəsində Dövlət Neft Fondundan asılılıq azaldılıb. Maliyyə naziri Samir Şərifov Milli Məclisdə “Azərbaycan Respublikasında 2016-cı il dövlət büdcəsi haqqında” qanun layihəsinin müzakirəsi zamanı da bu barədə deyib. Nazir bildirib ki, gələn il Dövlət Neft Fondundan büdcəyə 6 milyard manat vəsait transfer olunacaq:** “Neft gəlirlərinin azalması qeyri-neft sektorunun inkişafına təsir göstərəcək. Ümumiyyətlə, gələn il bir neçə yenilik olacaq.Yeniliklərdən biri qeyri-neft sektorundan gəlirlərin artırılmasıdır. Digərləri isə vergi sahəsinə aiddir. Belə ki, gələn il vergi güzəştlərinə yenidən baxılacaq. Güzəştlər məhdudlaşdırılacaq və hətta ləğv olunacaq. Vergilərin sadələşdirilməsi istiqamətində işlər aparılacaq ki, bu da sahibkarlığın inkişafına şərait yaradacaq. Sahibkarlığın inkişafı isə dövlət büdcəsinə əlavə gəlirlər gətirəcək”. Ancaq indiki halda da sahibkarların vəziyyəti ürəkaçan sayılmır. İri biznesmenlərdən tutmuş, xırda ticarətçilərə qədər vəziyyətdən narazıdırlar. Üstəlik, vergi yığımı ilə bağlı sahibkarların sıxışdırılması, əlavə ödənişlərin tələb olunduğu barədə xəbərlər var. Büdcədəki vəsaitlərin vergilərin artırılması hesabına artırılması zərurətindən danışılır və vergi güzəştlərinin ləğvi məqsədəuyğun sayılır ki, bu da ölkədəki pulların xaricə axınını şərtləndirir, üstəlik, sahibkarlıq subyektlərinin durumu ağırlaşır, biznes mühiti daha da pisləşir. Ekspertlər hesab edir ki, qeyri-neft sektorunu inkişaf etdirmək ən ideal variantdır və bu, neftdən asılılığımıza töhfə vermiş olar. Bu, sahibkarlığın inkişafına mane olan gömrük və vergi bürokratiyasının aradan qaldırılması, bu sahələrdəki şərtlərin yüngülləşdirilməsi şəraitində mümkündür.


Qubad Ibadoğlu


Azər Mehtiyev

**İqtisadi Tədqiqatlar Mərkəzinin rəhbəri Qubad Ibadoğlu “Yeni Müsavat”a dedi ki, böhran dövründə iqtisadi sistemin 3 iştirakçısı əziyyət çəkir:** “Dövlət, biznes və istehlakçı. Bu şəraitdə biznes və istehlakçının böhrandan qorunması üçün daha çox məsuliyyət dövlətin üzərinə düşdüyündən iqtisadi sahədə dövlət siyasəti biznesin və istehlakçıların maraqlarının müdafiəsi üzərində qurulmalıdır. Bu yeni siyasət də onlar üçün yeni və daha münbit iqtisadi şərait formalaşdırmalıdır. Biznes bu şəraitdə böhrandan itirdiklərini kompensasiya etməklə özü də siyasətində korrektələr etməlidir. Amma təəssüf ki, böhrandan zərbə alan və müəyyən itkilərə məruz qalan biznes strukturları qarşısında vergilər və gömrük orqanları daha yüksək tələblər qoyur və onların xərclərini artırmaqla fəaliyyətlərinin genişləndirməsi imkanlarını məhdudlaşdırırlar. Bu isə qısa müddətli dövrdə büdcə qarşısında öhdəliklərin icrasını təmin etsə də orta və uzunmüddətli dövr üçün ciddi çətinliklər yarada bilər”. **Q.İbadoğlu vəziyyətdən çıxış yolunu da göstərir:** “Hazırda bir çox hallarda əsassız olaraq hesablanan vergi borclarına görə vergi və gömrük orqanlarının məhkəməyə verilməsi hallarının kütləviləşməsini və bu müstəvidə problemin həlli perspektivinin görsənməmədiyini nəzərə alaraq ilk növbədə vergi amnistiyasının verilməsi və borcların silinməsi, ikincisi isə yeni biznes şəraitinə uyğun olaraq vergi siyasətinin aparılmaqla vergi və rüsum dərəcələrinin aşağı salınmasını təklif edərdim. Bu, son nəticədə qiymətlərin sabitləşməsinə, yeni iş yerlərinin açılmasına və bütövlükdə böhrana müqavimətinin artırılmasına xidmət edərdi”.

**İqtisadi Təşəbbüslərə Yardım Mərkəzinin rəhbəri Azər Mehtiyev isə deyir ki, bu sualı hökumətə ünvanlamaq daha doğru olardı:** “Əslində hazırda tələb olunan da məhz budur: sahibkarlıq mühitini yaxşılaşdırmaq, inhisarçılığı aradan qaldırmaq və rəqabət mühiti yaratmaq. Bunun üçün ilk növbədə, gömrük prosedurları sadələşdirilməli, burda inhisarçılıq aradan qaldırılmalıdır. Kiçik və orta sahibkarlığa olan hər cür basqılar - vergi qurumlarından icra hakimiyyəti qurumlarınadək - aradan qaldırılmalıdır. Əks təqdirdə, qeyri-neft sektorunun inkişafı mümkünsüzdür”. **Bəs niyə bunu etmirlər, sualına gəldikdə, A.Mehtiyev deyir ki, burada iki hal ola bilər:** “Ya qərar qəbul edənlərin iqtisadi düşüncələri hələ də sovet düşüncəsindən uzağa getməyib, ya da sadəcə, bunu etmək istəmirlər. İqtisadi sahədə rəqabət mühitinin təmin edilməsi mütləq ciddi islahatları qaçılmaz edir ki, bu islahatlar sonradan siyasi sferaya keçir, orada islahatları qaçılmaz edir. Buna görə də hökumət hər hansı liberal addımlara getmək istəmir. Ya da inhisarçılar və məmurlar özlərinin iqtisadi nəzarət sahələrini məhdudlaşdırmaq istəmirlər. Belə təsəvvür yaranır ki, onlar hələ də vəziyyətin gərginliyini tam hiss edə bilmirlər. Hələlik atılan addımlar inzibati-polis nəzarətinin gücləndirilməsinə xidmət edir. Böhrandan çıxış üçün hökumətin ciddi iqtisadi proqrama malik olması görünmür”.

❑ Cavid TURAN

# Deputat diplomatların maddi durumunun yaxşılaşdırılmasını təklif edir

## Asim Mollazadə: “İlk növbədə vergi sistemində təkmilləşməyə ciddi ehtiyac var”

**“Ölkə iqtisadiyyatının gücləndirilməsi və şaxələndirilməsi üçün kiçik və orta sahibkarlığın inkişafına şərait yaratmaq lazımdır. Məhz kiçik və orta sahibkarlığı inkişaf etmiş ölkələr dünyada dayanıqlı, sabit inkişaflı ölkələr sayılır. Heç də böyük sahibkarlığı, iri korporasiyaları olan ölkələr inkişaf etmiş hesab edilmirlər. Onlarda iqtisadi sabitlik dayanıqlı olmur”.**



Bu fikri Milli Məclisdə 6 komitənin birgə iclasındakı çıxışı zamanı deputat, **Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə** deyib. 2016-cı il dövlət büdcəsi layihəsinin müzakirəsi zamanı çıxış edən deputat, kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi üçün sahibkarlara lazımi şərait yaradılmasına, ilk növbədə vergi sistemində təkmilləşməyə ciddi ehtiyac olduğunu bildirib. “Biz Azərbaycanda xidmət, kənd təsərrüfatı sektorunun inkişaf etdirilməsi üçün ciddi tədbirlər həyata keçirməliyik. Bu sahələrin inkişafı peşəkar mütəxəssislər tələb edir ki, bu mütəxəssislərin hazırlanması üçün də peşə təhsili sahəsi gücləndirilməlidir. Azərbaycanda xidmət sahəsi inkişaf edir, müasir hotellər, istirahət mərkəzləri yaradılır. Lakin ölkəyə turistlərin cəlb edilməsi üçün turizm sahəsi inkişaf etdirilməlidir. Turizm sahəsinin də inkişafı üçün gənc, peşəkar menecerlərə ciddi ehtiyac var. Hazırda bu sahədə çalışan menecerlərin çoxu xaricdən gələn mütəxəssislərdir. Biz bu sahənin inkişafı üçün yerli mütəxəssisləri hazırlamağa çalışmalıyıq” deyə, Asim Mollazadə əlavə edib.

**Deputat həmçinin diplomatların maddi durumunun yaxşılaşdırılması təklifi ilə çıxış edib. O bildirib ki, “Diplomatik xidmət haqqında” Qanuna görə rotasiya zamanı mərkəzi aparatda işləməli olan diplomatların maaşlarının artırılması vacibdir:** “Bizim diplomatik korpusda bir neçə xarici dil bilən gənc, peşəkar diplomatlarımız fəaliyyət göstərir. Onlar rotasiya qaydasına uyğun olaraq, xaricdə diplomatik xidmət müddətləri başa çatandan sonra vətənə qayıtmalı və xidmətlərini mərkəzi aparatda davam etdirməlidirlər. Bu zaman onların maaşları diplomatik xidmət zamanı aldıqları maaşlara adekvat olmalıdır ki, öz maddi ehtiyaclarını təmin edə bilsinlər. Elə şərait yaratmaq lazımdır ki, illər ərzində yetişmiş bu savadlı, peşəkar insanlar vətənə qayıtsınlar və xidmət etsinlər. Hökumət bu istiqamətdə müvafiq addımlar atmalıdır”.

A.Mollazadənin kiçik və orta sahibkarlığın inkişafına dair təklifinə cavab olaraq maliyyə naziri Samir Şərifov bildirib ki, prezident də kiçik və orta sahibkarların dövlət tərəfindən dəstəklənməsi üçün tapşırıqlar verib və hökumət bu istiqamətdə müvafiq addımlar atacaq.

❑ CAVİD

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi





# Qarabağ uğrunda təbliğat savaşında yeni ştrixlər

## Ceyms Uorlik niyə həqiqəti deyə bilmir? Amerikalı həmsədrin amerikalı ermənipərəst konqresmenlərə gizli təəssübünün təhlükəli pərdəarxası; ABŞ-ın işğalçıya gizli-açıq himayəsi təkcə xristian amili ilə bağlı deyil...

**Erməni tərəfinin cəbhədəki son qarşıdurma zamanı böyük itkiyə məruz qalması - onlarla hərbçisinin sıradan çıxması (4 ölü, 16-ya yaxın yaralı) onu yeni diplomatik fəallığa sövq edib. Serj Sərkisyanın BMT Baş Məclisinin yubiley sessiyasında çıxışı və sessiya çərçivəsində Nyu-Yorkda ATƏT-in Minsk Qrupunun həmsədrləri ilə bir araya gəlməsi, paralel olaraq Ermənistan xarici işlər naziri Edvard Nalbəndyanın da eyni vaxtda Amerikada görüşlər keçirməsi sözsüz ki, son hərbi uğursuzluğun doğurduğu situasiyanın xilasına, bir az da daxili auditoriyanı sakitləşdirməyə yönəlmişdi.**

Təsadüfi deyil ki, həm Sərkisyanın, həm də Nalbəndyanın ABŞ-dakı çıxış və görüşlərindəki fikirlərinin leytmotivini Azərbaycana hücumlar, ölkəmizi qaralamaq və onu “aqressor” kimi təqdim eləmək cəhdləri təşkil edirdi. Lakin Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarov bu qəbildən ittihamlara layiqli cavab versə də əfsus ki, erməni yalanları qismən də olsa Amerika ictimai rəyinə hopa bilib.

Bunun əsas səbəbi sözsüz ki, üç mühüm vasitəçi dövlətdən biri olan ABŞ-da güclü erməni lobbisinin mövcudluğudur. Təəssüflər olsun ki, Amerikadakı diplomatlarımız və diasporumuz bu amili hələ də sanballı şəkildə neytrallaşdıra bilmir. Belə olmasaydı, Minsk Qrupunun amerikalı həmsədri Uorlik ABŞ-da azərbaycanlı diaspordan daha çox, erməni lobbisinin təmsilçiləri ilə tez-tez bir araya gəlməzdi. Elə olmasaydı, Sərkisyan və Nalbəndyanın anti-Azərbaycan çıxışlarından dərhal sonra ABŞ Konqresinin Xarici Əlaqələr Komitəsinin sədri, ermənipərəst kimi tanınan Ed Roys və komitənin nüfuzlu ermənipərəst üzvü Eliot Engel vasitəçi Ceyms Uorlikə, faktiki, erməni mövqeyinin müdafiəsinə yönəlik məktubla müraciət eləməzdilər, həmin məktubu daha sanballı eləməkdən ötrü Konqres üzvlərinin imzasını toplamağa başlamazdılar.

Adıçəkilən konqresmenlər məktubda “Dağlıq Qarabağ məsələsinin təhlükəsizlik və status baxımından həll edilməsinə təkan vermək üçün” bəzi təkliflər irəli sürüb, ABŞ və ATƏT-i “zorakılıq aktlarına cavab olaraq uğursuz olan yanlış bərabərlik siyasətlərindən əl çəkməyə” çağırıblar.

**Sitat:** “ABŞ və ATƏT-in təmas xəttində hər bir hücuma ümumi yanaşaraq, tərəfləri zorakılıqdan çəkinmək çağırışları təkrar eskalasiya vəziyyətinə gətirib çıxarıb. Əvəzində bu süni tərəfsizlik siyasəti təhlükəli şəkildə gərginliyi artırır. Məsuliyyət olmasa, sülh olmayacaq”, - deyə məktubda qeyd olunur.

**Müraciətdə qısa müddətdə insanları qoruya biləcək və müharibədən çəkindirəcək 3 əsas təklif göstərilir:** “Bütün tərəflər təmas xəttindən snayperləri geri çəkmək barədə razılaşma əldə etməli, təmas xəttində hücumun mənbəyini müəyyənləşdirmək üçün ATƏT-in monitorinq, silahlokator sistemləri və səsölçən avadanlıqları yerləşdirilməli və atəşkəs rejiminin pozulmasını daha yaxşı monitorinq etmək üçün əlavə ATƏT müşahidəçiləri müəyyənləşdirilməlidir”. Qeyd olunur ki, bu addımlar regionun bütün əhalisi üçün hərtərəfli və davamlı sülhə töhfə verəcək.

*****

Göründüyü kimi, müraciət bütünlüklə işğalçı tərəfin maraqları əsasında tərtib edilib və Azərbaycanı tənbeh eləməyə yönəlib. Təsadüfi deyil ki, orada Ermənistanın işğalçılıq siyasəti barədə bir kəlmə də deyilmir, o ki ola sülhə əsas maneənin məhz erməni işğalçı qoşunlarının olmasının xüsusi vurğulanması. Üstəlik, belə təəssürat yaranır ki, ermənipərəst konqresmenlər təcavüzkarla təcavüzə məruz qalan ölkə arasında bərabərlik işarəsi qoyulmasından daha çox, məhz Azərbaycanı təcavüzkar kimi göstərməyə, Azərbaycana qarşı tədbir görməyə çağırırlar. Halbuki işğala məruz qalan ölkə kimi Azərbaycanın işğalçı ilə istənilən vasitələrlə, o cümlədən snayperlərlə mübarizə aparması tam təbiidir.



Ceyms Uorlik

Məntiqlə Ermənistan, onun Amerikadakı havadarları erməni əsgərlərinin Azərbaycan ərazilərində məhv edilməsini həqiqətən istəmirlərsə, o zaman bunun çox sadə yolu var - işğala son qoyulsun. Belədə snayperlərə də, atəşkəsin kim tərəfindən pozulduğunu müəyyənləşdirmək üçün baş sındırmağa, yaxud xüsusi avadanlıqlara da ehtiyac qalmaz.

**Əfsuslar olsun ki, amerikalı həmsədr Ceyms Uorlik də məsələyə bu elementar məntiqdən yox, faktiki surətdə, ermənipərəst konqresmenlərə qahmar çıxmaqla yanaşır. Bunu onun Roys və Engelin müraciətinə cavab olaraq Ermənistanın H 1 televiziyasına müsahibəsi əyani təsdiqləyir. Uorlik deyib:** “Etimad tədbirləri və insanlararası münasibətlərə dair proqramlar gərginliyi azaldır və davamlı sülhə əsas yaradır. Təklif olunan hər hansı təşəbbüsü tərəflərin qarşısında qaldırmışıq və sülh yolu ilə həllə nail olmaq üçün bütün addımları atmağa davam edəcəyik”.

Diplomat, üstəlik, Nümayəndələr Palatasının Xarici Əlaqələr Komitəsi tərəfindən qaldırılan sağlam düşüncəli təşəbbüsə Obama administrasiyasının dəstəyini ifadə edib.

*****

“Təcavüzkarla təcavüzə məruz qalan arasında etimad tədbiri...” 22 ildir Minsk Qrupu həmsədrləri, ələlxüsus, ABŞ-dan olan vasitəçilər beləcə beynəlxalq hüquq normalarına, BMT qətnamələrinə söykənən elementar və ədalətli həll yolunu qulaqardı edib özlərini dağa-daşa salmaqla, reallaşması heç vaxt mümkün olmayan əcaib “təkliflər” irəli sürməklə, boş yerə vaxt itirməklə, əslində isə ermənipərəstliklə, gizli xristian təəssübkeşliyi ilə məşğuldurlar.

Bəs bizim ABŞ-dakı diplomatik nümayəndəliyimizin və diasporumuzun operativ işi, kontur-fəaliyyəti harda qaldı? Nədən bu təxribatın qarşısı alınmadı, heç olmasa, orada etiraz aksiyası keçirilmədi?

Qarabağ həqiqətləri barədə özümüz deyib özümüz eşidəcəyiksə, o zaman Amerika, Qərb toplumu niyə də erməni yalanlarına inanmasın? Unutmayaq ki, düşmən millət xristian faktoruna görə onsuz da ABŞ-a, Avropa dövlətlərinə, Rusiyaya bir-iki köynək yaxındır.

Ancaq təksə xristian amili də əsas deyil. Əks təqdirdə, Krım separatçıları da ABŞ-da sərbəst dolaşar, Denverdə “Krım pavilyonu” açılardı. Başqa sözlə, problemin ədalətli həllinə əngəl olan türk, Türkiyə amilləri də var. Bir şey dəqiqdir ki, Dağlıq Qarabağın taleyi indi həm də təbliğat müharibəsində həll olunur.

Hərçənd mövcud vəziyyətə görə öz günahlarımızı görməyi də bacarmalıyıq. Bu da növbəti fakt. Məsələ ondadır ki, Ceyms Uorlik ermənipərəst konqresmenlərin müraciətini cavablandırdığı vaxtda Kolorado ştatının Denver şəhərində Denverlə qardaşlaşmış şəhərlərə həsr olunan festival keçirilib və orada on ölkənin nümayəndələri, ştatın və Denverin rəsmi şəxsləri ilə yanaşı, separatçı Dağlıq Qarabağ rejimi ayrıca pavilyonla iştirak edib - əlbəttə ki müstəqil qurum kimi özlərini təbliğ eləmək üçün.

Əlbəttə ki, ermənilər buna ilk növbədə Amerikadakı lobbilərinin sayəsində nail olublar.

# “Moskva deyə bilmədiyini Sərkisyanın dili ilə deyir”

## Rusiyalı politoloq: “Bakının Rusiya sülhməramlılarının Qarabağa girməsinə icazə verməsi inandırıcı deyil...”



Vadim Dubnov

**“Qarabağda yeni müharibənin olacağı çox da inandırıcı deyil. Kiçik qarşıdurmaların olması mümkündür, lakin real olaraq böyük müharibədən danışmaq tezdir. Çünki bu müharibə nə Azərbaycana, nə Ermənistana, nə də ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrinə sərf etmir. ABŞ və Avropanın müharibəni niyə istəməməsi aydındır. Rusiyanın özü də regionda yeni münaqişə arzulamır”.**

Publika.az xəbər verir ki, bunları rusiyalı politoloq Vadim Dubnov deyib. Onun sözlərinə görə, Rusiyanın Qarabağa sülhməramlı çıxarması mümkündür: “Lakin bu, Moskvanın Azərbaycanı birdəfəlik itirməsi ilə nəticələnə bilər. Bunu Kreml istəmir. Bakının sülhməramlıların Qarabağa daxil olmasına icazə verməsi də inandırıcı deyil. Ən azından Rusiya bunun əvəzində ona ciddi vəd verməlidir. Halbuki Moskva belə bir vəd verə bilmir”.

V. Dubnov qeyd edib ki, təmas xəttində artilleriyanın işə düşməsi yaxşı hal deyil: “Lakin fikrimcə, münaqişəyə nəzarət olunur. Sadəcə olaraq, hazırkı status-kvo Azərbaycana sərf etmir və o, dünyanın diqqətində bu məsələni daim gündəmdə saxlamağa çalışır. Ermənistana gəlincə, Serj Sərkisyan müharibə ritorikası ilə məşğuldur. Eyni zamanda o, təkcə Ermənistanın mövqeyini nümayiş etdirmir, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı, həmçinin Rusiyanın deyə bilmədiklərini də dilə gətirir. Yəni Moskva özünün birbaşa demək istəmədiklərini Sərkisyanın dili ilə söyləyir”.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi



# Kaş bütün “boş söhbət”lər belə çin olaydı...

**Hüseynbala SƏLİMOV**

**Həmişə demişəm ki, insan ildə bir dəfə insan olduğundan qürur duyur. Yox, bu, irili-xırdalı idman yarışlarına aid deyil. Bəlkə də kimsə hansısa futbolçunun başı ilə topu qapıya necə yollamasından vəcdə gəlir, ola bilsin ki, başqa birisi böyük bir ağırlığı başı üzərinə qaldıran atletə heyrətlə baxır...**

Amma mən həmişə düşünmüşəm ki, insanı insan edən onun başının çölü yox, içidir. Biz nə ayaqlarımızla, nə qollarımızla təbiətdə kimsə rəqib ola bilmərik, amma başımızın içindəki “boz maddə” bizə bütün canlılardan bir baş yuxarıda dayanmağa imkan verir...

Ona görə də bir ilin heyrətli həftələrindən söhbət düşəndə mən Nobel mükafatının elan olunduğu günləri nəzərdə tuturam. Bilirsiniz, maraqlısı nədir və adamın başını daha çox nə “gicəlləndirir”?

Nobel mükafatının maddi vəzni, maddi ifadəsi elə də böyük deyil. Bəlkə də Azərbaycanda ən kiçik məmur belə bundan çox qazanır... Ona görə də bələlərinin məntiqinə görə, əslində bu, çox gülünc işdir - bütün ömrünü sərf etdin və cəmi bir neçə yüz min dollar qazandın ki, buna da Bakıda uzağı iki və ya üç mənzil almaq olar...

Bəli, ilk baxışda burada nə var ki? Adam var, az qala Bakının yarısını alıb, amma heç adını da bəlkə düz-əməlli yaza bilmir...

Nə isə. Çox da uzağa getməyək. Həyat belədir, həyatda “meşşanlar” həmişə daha çox olur. Qayıdaq Nobel mükafatına. İki sahədə verilən mükafatdan mən nəsə anlaya bilirəm - bunlardan biri fizika, digəri isə ədəbiyyatdır...

Daha çox da fizika sahəsindəki mükafatları izləməyə cəhd edirəm. Bu il belə deyilirdi ki, onu iki sovet əsilli fizikə - A.Starobinskiyə və A.Lindeyə verəcəklər. Onların hər ikisini hələ tələbəlik vaxtı görmüşdüm və yaxşıca da tanıyırdım...

Xüsusən də Starobinski yadımdan çıxmır. O, çox pis danışır, çox kəkələyirdi. Amma ingilis dilini təmiz bilir, tez-tez də xarici qonaqları tərcümə edirdi. Çox maraqlıdır ki, onun kəkələyə-kəkələyə danışması heç kimi bezdirmirdi, heç kim bundan usanmırdı. Daha çox diqqət çəkən və yadda qalan bu idi ki, Starobinski bir də görürdün deyirdi ki, sual budur, cavab isə belə olacaq! Belə anlarda bütün zal sadəcə, köks ötürürdü, çünki hamı başa düşürdü ki, qarşılarında adi adam dayanmayıb...

Amma nə qədər qəribə olsa da, Nobel Komitəsi başqa qərar qəbul etdi. Mükafatı bir kanadalı və yaponiyalı aldı. Fəqət, iş yenə də olduqca maraqlıdır. Hələ təxminən yarım əsr bundan əvvəl italyan əsilli sovet fiziki B.Pontekorvo belə bir hipotez irəli sürmüşdü ki, təbiətdə mövcud olan üç cür neytrino biri-birinə çevrilə bilər...

Bəlkə də bunu oxuyan orta statistik oxucu deyəcək ki, nə olsun? Bunu yetərincə dəyərləndirmək üçün gərək biləsən ki, neytrino nədir? Bu, elə bir hissəcikdir ki, Yer kürəsini heç nə olmamış kimi dəlib keçir... Fizikada zərrəciklər çoxdur. Amma onların heç biri neytrino, bəli, adı “kiçik neytron” mənasını verən neytrino qədər fiziklərin başını ağrıtmayıb...

Konkret olaraq, bu kəşf nə verir? Birincisi, nəzəriyyəyə görə neytrinolar biri-birinə çevrilirsə, deməli onların kütləsi var. Bu, çox fundamental, hətta deyərdim ki, dramatik məsələdir - sovet fiziki Y. Zeldoviç deyirdi ki, əgər neytrinonun kütləsi olmasaydı, onu fikirləşmək lazım gələrdi. Yada salım ki, bunu Volter bir vaxt Allah haqqında demişdi - bəli, belə söyləmişdi ki, əgər Allah olmasaydı, onu fikirləşib uydurmaq lazım gələrdi...

Amma əsas məsələ kimin nə deməsində deyil... Bu vaxta qədər belə hesab olunurdu ki, Kainatda böyük bir kütlə gizli haldadır, buna elə “gizli kütlə” də deyirdilər. Gizli kütlə üçün ideal namizəd məhz neytrino idi. Neytrinonun çox kiçik kütləyə malik olması yetərli idi ki, gizli kütlə problemi həll olsun...

Hətta bir vaxt Lyubimov (indi adını unutmuşam!) adlı bir fizik bəyat etmişdi ki, onun qrupu neytrinonun kütləyə malik olmasını sübut edib. Amma 80-ci illərin əvvəlində verilmiş bu elmi bəyanat təəssüf ki, başqa təcrübələrdə təsdiq olunmadı...

Digər məsələ Günəş neytrinosu ilə bağlıdır. Günəşdə nüvə reaksiyaları zamanı neytrino ayrılır. Amma təcrübi olaraq tutulan Günəş neytrinosu nəzəriyyənin dediyindən həmişə az olurdu və buna da elmdə “neytrino defisiti” deyirdilər. Bir az əvvəldə dediyimiz hipotez də - neytrinoların biri-birinə çevrilməsi ideyası da ilk dəfə məhz Günəş neytrinosu ilə bağlı irəli sürülmüşdü. Bəli, indi demək olar ki, hər şey izahını tapdı...

# Tural Abbaslı Müsavatdan çıxarılacağını gözləyir

## Partiya öz təşəbbüsü ilə deputatlığa namizədliyini irəli sürənlər barəsində qərar qəbul edəcək

**Müsavatın sabiq Divan üzvü, başqanlığa keçmiş namizəd Tural Abbaslı partiyadan xaric oluna bilər. Belə ki, “AĞ blok”un yaradıcılarından olan, 21 saylı Nəsimi seçki dairəsindən namizədliyi qeydə alınan Müsavat gənclərinin sabiq sədri və öz təşəbbüsləri ilə deputatlığa iddiaçı olan digər müsavatçılar barəsində partiya qərar qəbul edəcək.**



**Bu barədə Müsavat başqanının müavini Elman Fəttah modern.az-a açıqlama verib:** “Partiya Məclisin qərarından kənar namizədliklərini irəli sürənlərlə bağlı qərar qəbul edib. Bu, partiyanın nizamnaməsi və siyasətinə qarşı davranışdır. Çünki həmin insanlar namizəd olmaq üçün əvvəldən Müsavat Partiyasına müraciət edə bilərdilər. Partiyadan kənar namizədliklərini irəli sürdüklərinə görə onlara xəbərdarlıq olunub. Seçki prosesinin davamında, qeydiyyat başa çatdıqdan sonra da nizamnaməyə və Məclisin qərarına uyğun olaraq onlar haqqında qərarlar qəbul olunacaq”.

**Məsələ ilə bağlı T.Abbaslının mövqeyini öyrəndik. O, partiya daxilində ona qarşı kampaniya aparmaq üçün müxtəlif bəhanələrdən istifadə olunduğu qənaətindədir:** “Son bir ildə Müsavat Partiyasında baş verənlər heç bir məntiqə sığmır. Partiyada qrup maraqları çərçivəsində olan idarəçilik gördük. Bu da şəxsi maraqlardan doğan emosionallıqdır. Məhz bunun nəticəsində partiya günü-gündən geriləyib və gücsüz hala gəlib. Belə düşünürəm ki, bütün bunlar düşünülmüş şəkildədir. Çünki həyatının böyük bir hissəsini partiyaya həsr etmiş bir insan gözü görə-görə Müsavatın çöküşünü qəbul etməz. Partiya artıq kağız üzərində fəaliyyət göstərəcək qurumlar səviyyəsinə enib. Son bir ildə atılan addımlar bunu deməyə əsas verir. Atılacaq növbəti addımlar bizə təəccüblü gəlməyəcək. Çünki son bir ildə onlarla cəmiyyət arasında tanınmış şəxs qurumu tərk edib. ”Yıxılmadıq, ayaqdayıq” kimi pafoslu sözlər heç nəyi dəyişmir. Müsavatın hansı vəziyyətə düşdüyü göz önündədir. Kimisə qovmaqla, cəzalandırmaqla hədələmək siyasət deyil. Bu baxımdan mənə qarşı atılacaq hər bir addıma təəccüblənməyəcəm. Bütün bunlar bəhanədən başqa bir şey deyil”.

**T.Abbaslı Müsavatdan çıxarılacağını gözlədiyini də qeyd etdi:** “Arif Hacılının başqanlığa keçdikdən sonra bu qərarın hər an veriləcəyini gözləyirəm. Bizlərin ”satqın”, “xain” çıxarılması bu qərarın atılacağının göstəricisidir. Ətrafımda Müsavat uğrunda canını fəda edən beş nəfər vicdan məhbusu var. Ən ağır repressiya illərində bu insanlar sınmadı. İndi Müsavat rəhbərliyinin hədələri qarşısından geri çəkiləcəklər? Açıqlamanı verən şəxs rəhbərliyin göstərişini yerinə yetirib. Namizədlərin partiyaya müraciət etməsi ilə bağlı fikirlər, sadəcə, taftologiyadır. Çünki 2010-cu ildə mən və digər şəxslərin namizədliyi partiya tərəfindən irəli sürülmüşdü. Bizdə yeni simalar Kərim Ağarza və Elbəy Əsədov ola bilər. Məlum olan bir məsələ ilə bağlı müraciət etməyin önəmi yoxdur. Müsavat 65 dairədən namizəd vermişdi. Hamısını qoyuram kənara, 20-30-nun ərizəsini göstərsinlər. Elə namizədlər olub ki, sənədləri belə olmayıb. Məclisdə sadəcə görüntü xətrinə elan ediblər. Bir çox namizədlər “sən öl, mən ölüm”lə gətirilib. Xahiş-minnətlə namizəd gətirdiklərini yaxşı bilirlər. Gündəmdə qalmaq üçün belə fikirlər səsləndirmək, guya daxildə narazılıqların qarşısını alıb, kənar işlərlə məşğul olmaq kimi görüntü yaratmaq Müsavat kimi bir partiyaya yaraşmaz. Müsavat on minlik mitinqlərlə, hakimiyyətə alternativ olmaqla, mübarizə ilə gündəmə gəlməlidir. Təsadüfi şəkildə rəhbərliyə gəlmiş şəxslərin yersiz açıqlamaları gündəm deyil”.

**Başqanlığa sabiq namizəd Müsavat tərəfindən heç bir xəbərdarlıq almadığını bildirdi:** “Mənə rəsmi şəkildə heç bir xəbərdarlıq olunmayıb. Digər ”AĞ blok”da olan namizədlərə də. Yəqin ki, özləri qərar verib, özləri oxuyurlar. Günü bu gün birinin bağ evində yığışıb, bizi partiyadan çıxarmaq barədə qərar versələr, təəccüblənmərəm. Sadəcə, düşünmək lazımdır ki, bu cür çıxarmalar, Osman Kazımovun dili ilə desək, “təmizləmələr” Müsavata, yoxsa bizə xeyirdir? Gedənlər və gələnləri analiz etmək lazımdır. Əgər düşünürlər ki, gedənlər itirib, Müsavat qazanıb, o zaman bu templə də davam etsinlər. Əminəm ki, bu gedişlə bir ilin hesabatını verə bilməyənlər, heç beş il rəhbərlikdə qala bilməyəcəklər”.

**❑ Cavanşir ABBASLI**

# Əli Kərimlidən ayrılan cəbhəçilər müşavirə keçirdi

## Razi Nurullayev iştirakçıların suallarını cavablandırıb



Razi Nurullayev

**AXCP Etimad Qurultayı Təşkilat Komitəsi (EQTK) konfransı keçirilmiş rayon şöbələri sədrlərinin və Ali Məclis üzvlərinin iştirakı ilə geniş müşavirə keçirib. Müşavirədə 44 rayon şöbəsi iştirak edib. Yığıncaqda etimad qurultayına hazırlıq məsələləri və qarşıya qoyulan vəzifələr müzakirə edilib.**



Virtualaz.org bildirir ki, bu barədə təşkilatın mətbuat xidmətindən xəbər verilib.

Bildirilib ki, müşavirəni giriş sözü ilə AXCP EQTK-nın üzvü Rafiq Daşdəmirli açıb. Daha sonra AXCP EQTK-nın sədri Razi Nurullayev çıxış edib.

R. Nurullayev partiyanın gələcək siyasi fəaliyyət istiqamətlərindən danışaraq, AXCP-nin real və həqiqi müxalifət yaratmaq uğrunda mübarizəyə başladığını bəyan edib.

**Razi Nurullayev** AXCP EQTK-nın oktyabrın 18-də keçiriləcək qurultayından danışıb və bununla Azərbaycanda yeni siyasi proseslərin əsasının qoyulacağını deyib: “18 oktyabrda Azərbaycanın Müstəqillik Aktının qəbul olunduğu gündə AXCP-nin qurultayı olacaq. Biz sizlərlə birlikdə söz vermişik, inanmışıq və inanırıq ki, ayın 18-də Azərbaycanda yeni, saf bir siyasətin əsasını qoyacağıq. Möhtəşəm bir qurultay keçirəcəyik və bu qurultayımız təşkilatın bacarığına və eyni zamanda demokratik yanaşmasına görə ilk olacaq. Bu ilk digər siyasi partiyalar və siyasətçilər üçün də, eyni zamanda Yeni Azərbaycan Partiyası üçün də bir nümunə yaradacaq. Elə bir nümunə ki, baxıb görsünlər ki, demokratiya, şəffaflıq necə olur və necə idarə edilir. Qurultayda AXCP-nin proqramları qəbul olunacaq”.

Qarabağ məsələsinə də toxunan sədr vurğulayıb ki, torpaq üzərində heç bir siyasət qurula bilməz, Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir, AXCP hər zaman bu istiqamətdə fəaliyyətini davam etdirəcək.

"AXCP Elçibəy ideyalarının gerçəkləşməsi uğrunda hər zaman öz siyasətini həyata keçirəcək" deyən R.Nurullayev onu da qeyd edib ki, Bütöv Azərbaycançılıq, milli məfkurə AXCP-nin əsas prinsiplərindəndir.

Qurultayla bağlı tövsiyələrini açıqlayan Razi Nurullayev AXCP adından heç bir halda imtina edilməyəcəyini bildirib.

Sonra AXCP EQTK üzvləri, rayon şöbə sədrləri, Ali Məclis üzvləri çıxış edərək AXCP-də baş verənləri qiymətləndirib, Əli Kərimlinin partiyada yaratdığı avtoritarizmə etiraz olaraq bundan sonrakı fəaliyyətlərini AXCP EQTK-da aparacaqlarını bildiriblər.

Müşavirənin sonunda Razi Nurullayev iştirakçıların suallarını cavablandırıb.

YENİ MÜSAVAT
N 223 (6251) 9 oktyabr 2015

# Kenquru ətindən kolbasa qalmaqalı böyüdü

## Yolçu Xanvəli: "Kenquru ətindən hazırlanan kolbasaların ölkəmizə idxalına Dövlət Baytarlıq Xidməti icazə verməyib"

## Azad İstehlakçılar Birliyinin sədri: "Kenquru ətinin qadağan olunması barədə isə heç bir rəsmi sənəd yoxdur"

**Bir neçə gün əvvəl vətəndaş mağazaya girərək Rusiya istehsalı olan kolbasa almaq istəyib. Kolbasanın tərkibinə nəzər saldıqda isə dəhşətə gəlib. Belə ki, kolbasanın kenquru ətindən hazırlandığı qeyd olunub. Satıcıya etiraz etdikdə isə onlar xəbərsiz olduqlarını deyərək boyun qaçırıblar.**


Yolçu Xanvəli


Eyyub Hüseynov

Rəsmi məlumatlara görə isə kenquru ətinin və kenquru ətindən hazırlanan məhsulların ölkəmizdə satışı qadağandır.

Maraqlıdır, bəs nəyə görə kenquru əti qadağandır? Ümumiyyətlə, kenquru ətinin nə kimi faydaları və zərərləri var?

### Avstraliyada insandan çox olan kenqurular

Kenquru Avstraliyada ən sevimli heyvandı və qitənin rəmzi hesab edilir. Bu heyvanlar Avstraliyadan başqa dünyanın heç bir yerində yaşamır. Avstraliyada kenquruların sayı insanların sayından çoxdur. Kenqurunun 69 növü var. Onların çəkisi 500 qramdan 90 kiloqrama qədər olur. Kenquru əsasən otlarla qidalanır. Suya çox ehtiyac duymur və aylarla susuz qala bilir. Kenquru otlarla qidalandığı üçün onun yeyilməsi İslam dininə görə haram sayılmır. Ancaq kenquru ətinin yeyilməsi Azərbaycan xalqına xas olan qida deyil.

Ümumiyyətlə, kolbasalarla bağlı neqativ halların olması danılmazdır. Çoxları bilir ki, əksər hallarda rayonlarda heyvanlar öldüyü zaman həmin heyvanların ölmüş cəsədləri məhz paytaxt Bakıya, yaxud da kolbasa sexlərinə ucuz qiymətə satılır. Bu isə yüzlərlə, hətta minlərlə insanın hansısa xəstəliklərə yoluxması deməkdir. İddialara görə, hazırda dünyanın bir sıra iri kolbasa istehsalçısı sayılan dövlətlərdə kolbasa ətdən hazırlanmır. Azərbaycanda kolbasaları böyük partiya ilə satılan Rusiyada bir qram da kolbasa və farş məhsullarında təbii ət yoxdur. Hələ 1989-cu ildə SSRİ-də 1 milyon ton süni ət hazırlanıb. Son illər isə quş peyini hidroliz edilərək bundan ət alınır. Zülala çevrilmiş peyinə rəng qatıb kolbasa istehsal edilir. Mənbələr göstərir ki, yarandığı vaxtlarda kolbasa qatqısız ətdən hazırlanıb. Xırda-xırda doğranmış ət tikələri təmizlənmiş heyvan bağırsaqlarına doldurulub. Daha sonra isə ədvalar və duz əlavə olunaraq, ucları bağlanıb və qurutmaq (qaxac halına salmaq) üçün kölgədə asılıb. Kolbasalar bir çox hallarda tüstünün üzərinə də asılıb. Belə halda kolbasa daha tez quruyub və yandırılan alma, qızılağac budaqlarının ətrini canına çəkib. Tüstü həmçinin milçək və digər həşəratları qaçırıb. Bu üsulla hazırlanan kolbasa daha dadlı və ləzzətli olmaqla bərabər, həm də gigiyenik baxımdan istifadə üçün daha təhlükəsiz olub. Yeri gəlmişkən, kolbasa hazırlamaq üçün qoyun, mal və donuz ətindən başqa, delfin ətindən də istifadə edilib. Heyvan içalatından da kolbasa (tulturma) düzəldilib. Əsasən türk xalqlarına məxsus olan bu reseptə görə, heyvanın ürəyi, qara ciyəri, piyi və içalatı xırda-xırda doğranıb, un və ya yarma əlavə edilərək bişirilib. Hazırda isə kolbasaların hazırlanma resepti müxtəlifdir. Lakin o zamanla müqayisədə bu gün qida kimi istifadə etdiyimiz kolbasaları tam ət məhsulu hesab etmək olmaz. Çünki onun tərkibinə ətlə bərabər donuz piyi, nişasta, natrium nitrit, kompleks qarışıq ətriyyatlar, boya, müxtəlif ədviyyatlar var. Baş çəkdiyimiz marketlərdə də kolbasaların qiyməti 2 manatdan başlayırdı. Tərkibi isə müxtəlif qarışımlar... Satıcılar isə daha çox üzərində "halal" yazılan kolbasaların alındığını deyirlər.



### Dövlət Baytarlıq Xidməti nə deyir?

**Dövlət Baytarlıq Xidmətinin mətbuat xidmətinin rəhbəri Yolçu Xanvəli bu məsələni araşdırıb lazımi tədbir görəcəklərini bildirdi:** "Rusiya istehsalı olan kolbasaların kenquru ətindən hazırlanması xəbərini biz də oxuduq. Ilk olaraq onu bildirim ki, kenquru ətindən hazırlanan kolbasaların ölkəmizə idxalına Dövlət Baytarlıq Nəzarəti Xidməti tərəfindən icazə verilməyib. Ölkəmizdə kenquru ətindən nələrsə hazırlayan istehsalat müəssisəsi fəaliyyət göstərmir. Ola bilər ki, kimlərsə hansı yollarla bu kolbasaları gətirib mağazalara veriblər. Kimlər ki, bu məhsulları alıb, biz onlara müraciət edirik. Bu məhsulları Dövlət Baytarlıq Nəzarəti Xidmətinə təqdim etsinlər. Biz də bunun haradan necə gətirildiyini araşdıraq. Biz rəsmi olaraq bildiririk ki, kenquru ətindən hazırlanan kolbasaların ölkəmizə idxalına Dövlət Baytarlıq Xidməti tərəfindən icazə verilməyib. Bu sahəyə tam nəzarət olunur. İstər ölkə daxilində, istərsə də xaricdən ölkəmizə idxal olunan heyvan və heyvan mənşəli məhsullara Dövlət Baytarlıq Xidməti tərəfindən tam nəzarət həyata keçirilir. Gələn məhsuldan nümunələr götürülür və həmin nümunələr Respublika Baytarlıq Laboratoriyasında bakterioloji, virusuoloji, radioloji, kimya teksoloji və digər istiqamətlərdə müayinələr aparılır. Həmin məhsullar aparılan müayinələrin nəticəsinə uyğun olaraq sənəd əsasında qəbuluna və satışına icazə verilir. Bir daha qeyd edim ki, icazə verilmədiyi halda gizli yollarla Azərbaycan bazarına çıxan kenquru ətindən hazırlanan kolbasaların satışını biz qınayırıq. Biz bu məsələni araşdırıb lazımi tədbiri görəcəyik".

**Y.Xanvəli Azərbaycanda heyvan cəsədlərinin kolbasa sexlərinə verilməsi məsələsinə də aydınlıq gətirərək bu kimi halların qarşısını almaq üçün daim mübarizə apardıqlarını bildirdi:** "Biz bu kimi neqativ halların qarşısını almaq üçün daim mübarizə aparmışıq. Mütəmadi olaraq bir neçə reydlərimiz olub. Həm ayrı-ayrı qeyri-qanuni fəaliyyət göstərən kəsim sexlərinə qarşı, qeyri-qanuni ticarət aparanlara qarşı mübarizə aparmışıq. Biz tonlarla həm iri buynuzlu, həm də xırda buynuzlu heyvanın, həm də balıqların ətinin zərərsizləşdirilməsini həyata keçirmişik. Bu istiqamətdə işimiz davam edəcək".

Maraqlıdır, kenquru ətinin ölkəmizdə qadağan olunmasına baxmayaraq bu kolbasalar ölkəmizə necə yol tapıb?

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov bildirdi ki, əgər malın üstünə onun kenquru ətindən hazırlandığı yazılırsa, istehsalçı istehlakçını aldatmır:** "SSRİ vaxtı ətlərin qiymətləri ilə bağlı bütün respublikalar üçün sənəd hazırlandı. 004-07-ci qiymət sənədində Azərbaycanda eşşək və at əti yemeli ət kimi qeyd olunub. 15 SSRİ respublikaları arasında yalnız Azərbaycanda o növlərə bölünüb. Bu vaxta qədər bu sənəd heç bir dövlət orqanı tərəfindən yenidən təklif edilməyib. Kenquru ətinin qadağan olunması barədə isə heç bir rəsmi sənəd yoxdur. Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin bu işlərdən xəbəri yoxdur. Bu işlərə nəzarət edən orqanlar gömrük orqanı və səhiyyədir. Əgər malın üstünə onun kenquru ətindən hazırlandığı yazılırsa, istehsalçı istehlakçını aldatmır. Burada heç bir qanun pozuntusu yoxdur. Yox, əgər həmin kolbasalar qeyri-qanuni gətirilibsə, bu artıq başqa məsələdir. Ümumiyyətlə, kolbasa məhsullarında problem yaşanır. Kolbasaların tərkibinə vurulan inqridientlərin, yeni qida əlavələrinin miqdarı, təhlükəsizliyi barədə tədqiqat çox azdır. Bu sahədə böyük problemlər yaşanır".

❑ Günel MANAFLI



## Xəbərdarlıq: "Ölkədə kəskin virus infeksiyası yayılıb"

**"Azərbaycanda qripəbənzər kəskin respirator virus infeksiyası yayılıb. Bununla bağlı müraciətlər olur, amma kəskin qrip xəstəliyi qeydə alınmayıb". Bu barədə açıqlamanı Klinik Tibbi Mərkəzin (KTM) hava-damcı infeksiyası şöbəsinin həkimi Nigar İsmayılova verib.**

Onun sözlərinə görə, respirator virus infeksiyası ilə bağlı müraciət edənlər arasında üstünlüyü hamilə qadınlar təşkil edir: "Artıq payız-qış mövsümü olduğundan bu virus geniş yayılıb. Hamilə qadınların immuniteti zəif olduğu üçün bu virusa yoluxma daha tez olur. Bundan əlavə, ürək-damar, ağciyər xəstəliyinin daşıyıcılarında da bu virus fəsad verir. Belə xəstələrdə yuxarı tənəffüs yollarının xəstəliyi daha ağır formada keçir".

**Həkim yuxarı tənəffüs yollarının müxtəlif əlamətləri ilə onlara müraciətlər olunduğunu deyib:** "Müxtəlif əlamətlərlə bizə xəstələr gəlir ki, onlar da müalicə olunaraq evə yola salınır".

**Nigar İsmayılova onu da əlavə edib ki, bir gündə müraciət edənlərin konkret sayı məlum olmasa da, qəbulunda olanlar daha çox ağırlaşmış xəstələr olur:** "Konkret bizdə ölüm faktı olmayıb. Qripdən yox, amma qripin fəsadlarından konkret ölüm ola bilər. Miningit və zaringitdən ölüm halları istisna deyil".




## "Hər hansı dərman bir aptekdə olmasa da, başqasında var"

**Tarif Şurasının məlum qərarından sonra qiyməti ucuzlaşan dərman pereparatlarının apteklərdə tapılmaması ilə bağlı mediada məlumatlar yayılıb.**

Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzinin Dərmanların Keyfiyyətinə Nəzarət İnspeksiyasının rəisi Pərviz Əzizbəyov "qafqazinfo"ya açıqlamasında bildirib ki, apteklərdə təsiredici maddələrlə bağlı heç bir problem yoxdur və bir təsiredici maddə ilə bir neçə adda dərman vasitəsi tapmaq olar: "55 təsiredici maddə üzrə 1079 ticari adlı dərman qiyməti təsdiqlənib. Bu, o deməkdir ki, 1 təsiredici maddə ilə bir neçə ölkənin, bir neçə istehsalçının dərmanı var. Biz özümüz də monitorinqlər aparırıq. Bu monitorinqlər zamanı qiyməti təsdiqlənən dərmanların apteklərdə olmaması halını müşahidə etməmişik. Hər hansı dərman bir aptekdə olmasa da, başqa bir aptekdə var. Vətəndaşlar ticari adla dərman preparatlarını tapmaqda çətinlik çəkirlərsə, həkimlərə müraciət edə bilərlər. Biz həkimlərə də tövsiyə etmişik ki, reseptlərdə təsiredici maddə göstərilsin. Çünki eyni təsiredici maddə ilə müxtəlif adlarda, müxtəlif ölkələrin dövlət qeydiyyatına alınmış dərman vasitələri hazırda apteklərdə var. Yəni hər hansı bir təsiredici maddə ilə hər hansı bir dərman apteklərdə yoxdur demək düzgün deyil".

**Pərviz Əzizbəyov qiymətində dəyişiklik olunan dərman vasitələrinin siyahısının apteklərə verilməməsinə də aydınlıq gətirib:** "Təsdiq olunan qiymətlər qərarda göstərilən vaxt qüvvəyə minir. İlkin olaraq, 25 təsiredici maddə üzrə qiymətlər sentyabr ayından qüvvəyə minib. Tarif Şurası tərəfindən 5 oktyabrda təsdiqlənən 1079 dərman vasitəsinin qiyməti isə dekabr ayının 1-dən qüvvəyə minəcək".

YENİ MÜSAVAT
N 223(6251) 9 oktyabr 2015




# Mübahilə günündə baş verən tarixi dönüş

**Cümə söhbətləri**

**Bismilləhir-Rahmənir-Rahim! Zilhiccə ayında olan mühüm tarixlərdən biri Mübahilə günü ilə bağlı məsələlərdir. Bu gün - öz əhəmiyyətinə, öz fəlsəfəsinə görə əslində İslam tarixində çox böyük yer tutur. Bu gün - müəyyən mənada İslamın son din olaraq təsdiqinə aiddir və digər tərəfdən, insanların Əhli-beyti (ə) tanımasına, düzgün seçim etməsinə xeyli dərəcədə yardım edən bir fenomendir.**



Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

"Mübahilə" - qarşılıqlı nifrin etmə mənasına dəlalət edən bir məfhumdur. Bu tarixi olay, Həzrət Peyğəmbərin (s) axırıncı peyğəmbər olaraq, Xatəmül-ənbiya olaraq hudayət missiyası ilə, haqq yola dəvət vəzifəsi ilə bilavasitə əlaqəli məsələdir. Belə ki, Həzrət Rəsuli-Əkrəm (s) Nəcran məsihilərini İslama dəvət etmişdi. Onlar isə müəyyən bəhanələr gətirərək, bu təklifi qəbul etməmişdilər. Bundan sonra bir hadisələr baş vermşdi ki, çox geniş surətdə yayılaraq, milyonlarla insanın haqq yolunu seçməsinə kömək etmişdir.

Vaqiə belə olmuşdu. Nəcran - Yəmənlə sərhəddə yerləşən bir məntəqədir. Nəcranın əhalisi xaçpərəstlərdən ibarət idi. Peyğəmbərimiz (s) onların yanına təbliğatçılar göndərərək, öz İlahi missiyası ilə bağlı onları məlumatlandırdı və İslama dəvət etdi. İslam Peyğəmbərinin (s) göndərdiyi mübəlliğlər Nəcranda kifayət qədər böyük sayda insanın sonuncu Peyğəmbərin gətirdiyi dinə yönəlməsinə səbəb oldular. Amma nəcranlılar arasında böyük bir qrup da var idi ki, bu dəvəti cavablandırmadı. Rəsuli-Əkrəm (s) onlara məktub yazdı, İslamın haqq və sonuncu din olmasını onlara çatdırdı. Axı o Həzrət (s) bir millətə, bir ölkəyə gəlməmişdi. Bütün bəşəriyyəti hidayət etmək üçün məbus edilmişdi.

Nəcran məsihiləri bu məktuba cavab olaraq, Mədinəyə - Peyğəmbərimizin (s) yanına nümayəndə heyətini göndərdilər. Bu heyət 14 nəfərdən ibarət idi. Bu heyətin başında 3 nəfər ən nüfuzlu xristian ruhanisi dururdu.

## Həzrət Adəmin (ə) misalı

Heyət Mədinəyə çatır və Rəsuli-Əkrəmin (s) hüzuruna gəlir. Onların İslama dəvətin mahiyyəti ilə bağlı suallarının cavabında Peyğəmbəri-Əkrəm (s) buyurur ki, dəvətin mahiyyəti - insanları tövhid (təkilahlıq) dininə dəvət etməkdir, yəni, onlara təklif etməkdir ki, Allahdan başqa ibadət ediləcək məbudun olmadığına və Həzrətin (s) nəbiliyinə şəhadət versinlər. Peyğəmbərimizin (s) İslama dəvətinə cavab olaraq, onlar Rəsuli-Əkrəmin (s) İsa peyğəmbər (ə) haqqında rəyini bilmək istədilər. Həzrət Peyğəmbər (s) onlara bildirdi ki, Həzrət Məryəmin oğlu İsa (ə) - Allahın Rəsuludur, Aləmlərin Rəbbinin peyğəmbəridir. Allah Təbarəkə və Təala Həzrət İsanı (ə) öz elçilərindən biri kimi tanıdıb. Həzrət İsa (ə) - Allahın bəndəsidir və Allah tərəfindən xəlq edilmişdir.

**Lakin xristian nəcranlılar bunu qəbul etmədilər və bəyan etdilər ki, Həzrət İsa (ə) atasız dünyaya gəldiyi üçün biz onu (nəüzübillah!) Tanrının oğlu kimi tanıyırıq. Bu haqda Rəsuli-Əkrəmə (s) vəhy nazil oldu:** "Həqiqətən, Allah yanında İsanın hekayəti (yaradılışın necəliyi baxımından) Adəmin hekayəti kimidir. Allah onu torpaqdan yaratdı, sonra ona "(canlı insan) ol!" dedi, o da oldu (... onların hər ikisi Allahın əzəli əmrilə, atasız insan oldular. Əgər belə bir iş ilahlığa dəlalət edirsə, gərək onların hər ikisi ilah olsunlar". ("Ali-İmran" surəsi, 59-cu ayə). Yəni Allah Təala Həzrət Adəmi vasitəsiz, yəni ata-anasız yaratdığı kimi, Həzrət İsanı da vasitələrdən biri olmadan, yəni atasız olaraq dünyaya gətirmişdir. Əgər atasız dünyaya gəlmək insanın Tanrı olması deməkdirsə, nə üçün bu, təkcə Həzrət İsaya aid edilir? Nə üçün Həzrət Adəmə aid edilmir?

## Mübahilə təklifi

Lakin Nəcran məsihiləri bu məntiqi qəbul etmədilər. Daha doğrusu, qəbul etmək istəmədilər. Çünki bu dəlil, onların dünyagörüşlərini alt-üst edirdi və onların üzərinə gerçək araşdırma aparmaqla bağlı müəyyən vəzifələr qoyurdu. Əlbəttə ki, əgər xəlq olunmuşlardan kimsə, Allah Təalanın hikməti üzündən, fərqli olaraq dünyaya gəlirsə, məgər bu, ilahlığın göstəricisidirmi?! Nəcran məsihiləri bu sadə məntiqi qəbul etmək istəmədilər. Onlar zahirdə İslamı qəbul etdiklərini dedilər. Peyğəmbərimiz (s) isə onlara bildirdi ki, siz gerçəkdə iman gətirməmisiniz. İslam - ürəklə qəbul etməyi şərtləndirən bir dindir. Belə olduqda, onlar İslamı qəbul etməkdən imtina edirlər. Beləliklə, nəcranlılar əks təklif irəli sürdülər. Onlar təklif etdilər ki, müəyyən bir yerdə, müəyyən bir vaxtda yığışaq və haqqın üzə çıxması, nahaqqın məhvi üçün qarğış edək. Bu zaman Peyğəmbərimizə (s) ayə nazil oldu: "Buna görə də, sənə elm gəldikdən sonra, onun barəsində (Həzrət İsa haqqında) səninlə mübahisə edən (höcətləşən) kəsə de: "Gəlin biz öz oğullarımızı və siz öz oğullarınızı, biz öz qadınlarımızı və siz öz qadınlarınızı, biz özümüzü (bizim canımız kimi olan kəsləri) və siz də özünüzü çağıraq, sonra bir-birimizə nifrin edək, beləliklə, Allahın lənətini yalançılara yağdıraq"". ("Ali-İmran" surəsi, 61-ci ayə).

Çox incə bir mətləbdir ki, görəsən Peyğəmbər (s) "oğullarımız" olaraq kimləri özü ilə götürəcək, "qadınlarımız" dedikdə kimləri götürəcək və "özümüz" dedikdə kimi özü ilə götürəcək?

Nəcran məsihiləri bu təklifin ədalətliliyi ilə razılaşırlar və mübahilə üçün vaxt və məkan müəyyən edərək, hazırlaşmağa gedirlər.

## Necə bir heyət gələcək?

Axşam yetişir. Məsihilər müşavirə təşkil edərək, sabahkı günü müzakirə edirlər. Bunların başbilənləri deyirlər ki, əgər sabah yeni dini gətirən, peyğəmbərliyə iddialı olan həmin şəxs öz səhabələri ilə gəlsə, deməli, o, İlahi peyğəmbər deyil. Amma əgər öz ev əhli ilə gəlsə, demək onun iddiası həqiqidir və onda biz gərək bu işə getməyək. O zaman bizim mübahilə etməyimiz pis olar. Çünki o, öz ev əhlini bu işə dəvət etsə və hazır olsa ki, onları fəda etsin, hazır olsa ki, onlar İlahi əzaba düçar olsun - deməli, həqiqi peyğəmbərdir və iddiası həqiqidir. Bu, ona dəlalət edir ki, o, öz iddiasına arxayındır və yəqini var, tam xatircəmliyi var ki, İlahi əzab ona nazil olmayacaqdır.

Nəcranlılar bu düşüncə ilə səhəri açırlar və mübahilə olunacaq yerə gedirlər. Həmin qərarlaşdıqları yerə çatanda görürlər ki, İslam Peyğəmbəri (s) gəlir və qucağında bir uşaq var. Başqa bir uşağın da əlindən tutub, yanında gətirir. Onun ardınca da nuranikdə tayı-bərabəri olmayan bir xanım və bir kişi gəlir.

Nəcranlılar görürlər ki, gələn cəmin xüsusi bir mənəvi haləti, böyüklüyü, vüqarı vardır. Xüsusi bir mənəvi heybətlə həmin məkana yaxınlaşırlar.

**Nəcranlılar görürlər ki, Rəsuli-Əkrəm (s) yanındakı mübarək cəmə müraciətlə:** "Hər zaman ki, mən nifrin dedim, siz "amin" deyərsiniz", - deyə buyurur.

Nəcranlılar mübahilə səhnəsini müşahidə etməyə gələn mədinənilərdən soruşurlar ki, bəs Rəsuli-Əkrəmin (s) yanında gələn insanlar kimdir? Mədinəlilər cavab verirlər ki, bunlar - Həzrət Peyğəmbərin (s) yaxınlarıdır, Əhli-beytidir (ə). Və izah verirlər ki, nuraniyyət və əzəmət təcəssümü olan o kişi - Həzrət Əlidir (ə). Nuraniyyət və iffət təcəssümü olan o xanım - qızı Həzrət Fatimədir (s.ə). Qucağında olan o məsum körpə - nəvəsi İmam Hüseyndir (ə). Əlindən tutduğu o məsum uşaq - böyük nəvəsi İmam Həsəndir (ə).

**Vəziyyəti belə görən məsihi ruhanilərin böyüyü bildirdi**: "Mən özümü əzabın bir neçə addımlığında görürəm". Bu sözlər tarixə düşmüşdür. Həzrət Peyğəmbəri (s) və Əhli-beytini (ə) tanımayan, amma onların sonsuz nuraniyyətini və mənəvi halətlərini görərək, onların mənəvi üstünlüyünü birmənalı olaraq qəbul edənlərin şəhadətidir bu. Nuraniyyət və mənəviyyat zirvəsi qarşısında təzim edənin şəhadətidir bu.

Bu hadisə hicrətin 10-cu ili zilhiccə ayının 24-də baş vermişdir. İslam Peyğəmbəri (s) öz Əhli-beyti (ə) ilə Məscidül-İcabə yerləşən məkana gəldilər. Amma Nəcran nümayəndələri onları gördükdə dedilər ki, əgər Rəsuli-Əkrəmin hər nifrininə bu insanlar "amin" desələr, onların kökü kəsilər. Və mübahilədən imtina edərək, İslamın himayəsi altına keçirlər.

## Ali-Əba (ə) hadisəsi

**Bəli, Həzrət Peyğəmbər (s) bu hadisədə İmam Həsənlə İmam Hüseyni - övladları, Həzrət Fatiməni - xanım nümayəndə və Həzrət Əlini öz canı kimi götürüb "mübahilə"yə, yəni ayədə işarə olunan qarşılıqlı nifrin etmə mərasiminə apardı. Amma bundan öncə, mübahiləyə getməzdən əvvəl, bir əbanı çiyninə saldı və Həzrət Əlini (ə), xanım Fatiməyi-Zəhranı (s.ə), İmam Həsəni (ə) və İmam Hüseyni (ə) əbanın altına salıb, dedi:** "İlahi, hər peyğəmbərin əhi-beyti olmuşdur ki, ona insanların arasında ən yaxınları olmuşlar. İlahi, bunlar da mənim əhli-beytimdir (ev əhlimdir). Onlardan şəkk və günahı uzaqlaşdır. Onları bütün pisliklədən paklandır".

**Bu zaman Həzrət Cəbrayıl nazil oldu və onlar haqqında İlahi vəhyi gətirdi:** "Həqiqətən, Allah (xüsusi yaradılış iradəsi ilə) siz ?hli-beytdən (əqidə, əxlaq və əməllərdə) hər cür pisliyi təmizləmək və sizi - paklığın bütün cəhətlərində - pak etmək istəyir". ("Əhzab" surəsi, 33-cü ayə).

Mübahilə hadisəsi tarixi baxımdan çox önəmli hadisədir. Amma onun əsas önəmliliyi təkcə tarixi fakt olmaqlığı ilə bitmir. Bəlkə də bundan daha artıq əhəmiyyətlisi - müsəlmanlara Peyğəmbərimizin (s) haqq yolunu tapmaqda yardım etməkdir. Belə ki, insanlara Peyğəmbərin (s) ən yaxın insanlarının kim olduğunun bildirilməsi ilə, yəni dini təmsil edən bir məsələdə, peyğəmbərlik iddiasını təsdiqləyən bir missiyada özü ilə götürdyü insanların tanıtdırılması ilə haqq yolunun təqdimatı edilir. Müsəlmanlara haqq yol tanıtdırılır. Kimlərdən Rəsuli-Əkrəmin (s) mənəvi irsini öyrənməli olduqları iman əhlinin diqqətinə çatdırılır.

"Oğullarımız" dedikdə, Həsən və Hüseyni təqdim edir ümmətə Rəsuli-Əkrəm (s). "Qadınlarımız" deyiləndə, Həzrət Fatiməni (s.ə) tanıtdırır ümmətə. Bütün möminə qadınların, İslamı təmsil edə biləcək qadınların ünvanı qismində tanıtdırılır Həzrət Zəhra (s.ə). "Biz özümüz" dedikdə, "canımız" deyildikdə - Həzrət Əlini (ə) təqdim edir bəşəriyyətə. Və bu nuraniyyəti təsdiqləyən nəcranlılar geri çəkilir və bu mənəvi cəmin bütün təbərrüklüyünü bir daha təsdiqləyirlər.

## Rüku halında sədəqə

**Zilhiccə ayının 24-də digər bir əlamətdar hadisə də baş verib. Həmin gün Həzrət Əli (ə) namaz qıldığı zaman məscidə dilənçi daxil olub, sədəqə istəyir. Həzrət Əi (ə) namazın rükusunda olan bir vəziyyətdə mübarək əlini dilənçiyə tərəf uzadır və işarə ilə barmağındakı qiymətli üzüyü götürməyi bildirir. Dilənçi həmin üzüyü götürür. Bu zaman ayə nazil olur:** "Həqiqətən sizin başçınız və işlərinizin ixtiyar sahibi Allah, onun Peyğəmbəri və o iman gətirənlərdir ki, namaz qılıb rüku halında zəkat verirlər". ("Maidə" surəsi, ayə 55)

İslamın hər 2 məzhəbinin alimləri bu ayənin şərhində nəql edilən hədislərdə təsdiq etmişlər ki, cəm şəkildə buyurulan bu ayənin yeganə nümunəsi - Həzrət Əlidir (ə) və onun rüku halında üzük bağışlama hadisəsidir.

Nəql edirlər ki, bu ayə nazil olan kimi Peyğəmbər (s) məscidə getdi. Bu zaman bir dilənçinin sevincək halda məsciddən çıxdığını gördü. Həzrət (s) bunun səbəbini soruşduqda, dilənçi namaz halında olan bir şəxsi göstərib dedi: "O, rükuda olduğu zaman əlini mənə tərəf uzadıb, barmağındakı bu üzüyü mənə verdi". Peyğəmbərimiz (s) namaz halında olan şəxsin Həzrət ?li (ə) olduğunu görəndə, təkbir ("Allahu Əkbər!") deyərək buyurdu: "Ayə ?linin barəsində nazil olmuşdur!"

## Mübahilə gününün əməlləri

Zilhiccə ayının 24-də bir neçə bəyənilən əməl var. O cümlədən, müstəhəb qüsl almaq, oruc tutmaq, 2-rükətli namaz qılmaq. Bu namazın hər rükətində "Həmd" surəsindən sonra 10 dəfə "İxlas" surəsi, 10 dəfə "Ayətül-kursi", 10 dəfə "Qədr" surəsini oxumaq lazımdır.

Eləcə də həmin gün "Mübahilə" duasını oxumaq bəyənilmişdir. Həzrət Əlini (ə) bu gün ziyarət etmək də çox bəyənilmişdir. Bilavasitə ziyarət edə bilməyənlər, müvafiq ziyarətnamə oxumaq kimi imkanlardan yararlana bilirlər.

Bundan əlavə, həmin gün fəqir insanlara sədəqə vermək çox bəyənilmişdir. Əlbəttə ki, sədəqə vermək İslam dini tərəfindən hər zaman bəyənilir, amma xüsusi günlər var ki, bunlarda əməllərin savabı daha çoxdur.

**O cümlədən:**

**gözəl və təmiz paltar geyinmək,**

**xoş ətir vurmaq,**

**möminlərin təqsirlərindən keçmək, onları sevindirmək,**

**möminlərin hacətlərini yerinə yetirmək,**

**sileyi-rəhm etmək,**

**möminlərə iftar yeməyi vermək,**

**möminlərin ziyarətinə getmək,**

**təbəssüm etmək,**

**möminlərə hədiyyə göndərmək,**

**çoxlu salavat göndərmək - bəyənilən əməllərdəndir.**

**Allahım! Bizləri Əhli-Beytin (ə) həqiqi davamçılarından qərar ver! Amin!**

YENİ MÜSAVAT
N 223 (6251) 9 oktyabr 2015

# Öldürülmüş polisin məhkəməsində gərgin anlar yaşandı

## Qatilin vəkilinin vəsatəti mərhumun yaxınlarını hiddətləndirdi: "Psixoloji problemi olan adam bu işləri görə bilməz!"



**Bakı Ağır Cinayətlər Məhkəməsində Polis Akademiyasının müdavimi olmuş Ravil İbayevin cinayət işi üzrə məhkəmə prosesi keçirilir. İttiham aktına görə, R.İbayev bu il aprelin 18-də müdavim yoldaşı Muxtar Qadir oğlu Kazımzadəni Xətai rayonu ərazisindəki mənzildə öldürüb. Sonradan isə meyitini sandığa qoyaraq Türkan qəsəbəsi ərazisinə, dəniz sahilinə apararaq üzərinə benzin tökərək yandırıb. Hər iki şəxs İmişli Rayon Polis Şöbəsinin (RPŞ) əməkdaşı olublar, Bakıya Polis Akademiyasında imtahan verməyə gəliblər.**

Oktyabrın 7-də hakim Əlisoltan Osmanovun sədrliyi ilə baş tutan prosesdə Nicat Kərimov şahid qismində ifadə verib. Deyib ki, təqsirləndirilən Ravil İbayevlə iş yoldaşı Elvin vasitəsilə tanış olub. Spirtli içkilərin daşınması üzrə ixtisaslaşan firmanın sürücüsü olan şahid bildirib ki, Elvinin xahişi ilə Xətai Rayon Polis İdarəsinin 36-cı polis bölməsinin qarşısını gediblər: "Elvin dedi ki, idarə etdiyi "Ford"u tanışı Ravilə verib. Maşında 2 qutu araq vardı. Xahiş etdi ki, gedib mənim maşınımla götürüb aparıb sifarişçiyə çatdıraq. Mən də onunla getdim. Ravil bölmədən çıxıb maşını açdı, araq qutularını götürüb mənim maşınıma qoyub getdik".

**Şahid suallara cavab olaraq bildirib ki, sonradan dəhşətli hadisə haqda məlumat alıb:** "Ravil Elvinə demişdi ki, maşını cehiz daşımağa alıb. Sonradan bildik ki, belə bir hadisə baş verib".

**Mərhumun yaxınları şahidə bir neçə sual veriblər. Onlar N.Kərimovdan Elvinlə birgə bölmənin qarşısına gedərkən orada olan axsaq şəxsin kimliyi ilə maraqlanıblar. Şahid isə belə bir şəxsi görmədiyini söyləyib. Onun bu sözləri zərərçəkən tərəfə xoş getməyib. Qətlə yetirilən M.Kazımzadənin anası N.Kərimovu cinayət haqda bildiyi məlumatları gizlətməkdə suçlayıb:** "Ravil cinayəti tək törətməyib, onun köməkçiləri olub. Ravilin 70 kiloqram çəkisi var, o, 100 kiloqram çəkisi, 185 sm boyu olan oğlumu öldürə, onu sandığa qoyub apara bilməzdi! Liftin qapısı 60 santimetr açılır. Liftə sandığı necə yerləşdirib? Hamınız yalan danışırsınız. Onun köməkçiləri olub. Tələb edirik, həmin adamlar tapılıb tutulsun".

Bundan sonra hakim iş üzrə digər şahid Adil Xəlilovun zala dəvət olunmasına göstəriş verdi. Bu şəxs Ravil İbayevə 5 manata sandıq satıb. İttiham aktına görə, R.İbayev müdavim yoldaşını yaşadığı evdə öldürəndən sonra həmin sandığa yerləşdirib. Yaşadığı binanın qarşısındakı yuyucuya gedərək oranın işçisindən cehizləri maşına daşımaqda kömək etməsini xahiş edib. Sandıqda isə cehiz əvəzinə M.Kazımzadənin meyiti olub. İşdə həmin sandığın qalıqları maddi sübut kimi var. Maraqlısı budur ki, həmin sandığın ölçüləri, 100 kiloqram çəkisi, 185 sm boyu olan bir şəxsin cəsədinin həmin sandığa yerləşib-yerləşməməsi məhkəmədə eksperiment keçirilməklə aydınlıq gətirilmədi. Hakim R.İbayevə həmin sandığı 5 manata satmış A.Xəlilovun məhkəməyə gəlmədiyini söyləyərək şahidlərin dindirilməsinin məhdudlaşdırılmasını təklif etdi. R.İbayevin vəkilləri və zərərçəkənlərin nümayəndəsi hakimin təklifinə etiraz etmədiklərini dedilər.

Hakim sənədlərin tədqiqatı mərhələsinin başladığını elan etdi. Bundan sonra R.İbayevin vəkilinin verdiyi vəsatət zərərçəkmiş tərəfin ciddi narazılığına səbəb oldu. Belə ki, vəkil R.İbayevin psixoloji durumunun yoxlanılması üçün təkrar olaraq məhkəmə psixiatrik ekspertizasının təyin edilməsi haqda vəsatəti məhkəməyə təqdim etdi.

**Mərhum M.Kazımzadənin anası vəsatətin R.İbayevi cəzadan yayındırmağa hesablandığını hakimin diqqətinə çatdırdı:** "Onun nəyi dəlidir? Dəli Polis Akademiyasında oxuyar? Dəli adam öldürüb gedib sandıq axtarar? Cinayəti törətdiyi şəxsləri gizlədə bilər?"

**Hakim vəsatətə növbəti prosesdə münasibət bildirəcəyini söylədi. Bundan sonra proses oktyabrın 14-nə qədər təxirə salındı.**

❑ E.MƏMMƏDƏLİYEV



# Villasında narkotik əkən hansı vəzifəlinin oğludur?

**Dübəndi qəsəbəsində yerləşən üç mərtəbəli villanın birinci mərtəbəsində narkotik plantasiyası salınması ilə bağlı hadisənin bəzi təfərrüatları məlum olub. APA TV-nin əldə etdiyi məlumata görə, villa 1982-ci il təvəllüdlü Ağabalayev Səid Şahmar oğluna məxsusdur.**

Saxlanılan bu şəxsin Xəzər Rayon İcra Hakimiyyətinin Təsərrüfat şöbəsinin sabiq baş məsləhətçisi Şahmar Agabalayevin oğlu olduğu bildirilir.

Şahmar Ağabalayev ixtisasca botanikdir və "Miçurin" mükafatına və 2012-ci ildə dövlət mükafatına layiq görülüb. İstintaq araşdırmaları zamanı o da məlum olub ki, onun oğlu Səid Ağabalayev 5 ildir narkotik vasitələrdən istifadə edir və narkotik bitkilərin demək olar ki, bütün növlərini tanıyır: "Narkotik maddəni çoxdan əldə etmişdim. Rayondan 20-30 qram gətirmişdim, yavaş-yavaş istifadə edirdim. Xəstəliyimə görə 5 ildir istifadə edirəm".

Səid Ağabalayev xarici ölkələrin birində təhsil alıb və bir neçə dövlətdə olub. O, istintaqa verdiyi ifadəsində villanın birinci mərtəbəsində əkdiyi narkotik xassəli bitkilərin toxumlarının xaricdən gətirildiyini deyib. Onun Yasamal rayonunda yerləşən digər mənzilindən isə narkotik bitkilərin adları əks olunan kitablar aşkarlanıb. Buna rəğmən Səid Ağabalayev dibçəklərdə əkdiyi narkotik xassələri bitkilərə aqrotexniki qaydada kimin qulluq etdiyini açıqlamayıb. İstintaq çəkilişlərindən içərisi plantasiyaya çevrilmiş evin yüksək zövqlə inşa olunduğu görünür. Mənzilin 2-ci və 3-cü mərtəbəsinə keçmək ilk cəhddən mümkün olmayıb. Bunun üçün əməliyyatçılar kitab rəfini xatırladan mebelin orta qapısını açmalı olublar. Evin demək olar ki, hər küncü kameralarla təchiz olunub. Səid Ağabalayevin sürücüsü və narkotik vasitələrin satışında kuryerlik edən Əliyev Əkrəm Malik oğlu bu evdə qeyri-rəsmi münasibətdə olduğu qadınla yaşayıb. Evin təmizliyinə və yeməklərin hazırlanmasına adı istintaq tərəfindən açıqlanmayan qadın məsuliyyət daşıyıb. İlkin ehtimala görə, narkotik vasitələrin bir qisminin paylanmasına sürücü Əkrəm Əliyev nəzarət edib. Saxlanılan zaman onun üstündən də narkotik vasitə aşkar edilib. Əkrəm Əliyev üzərindən tapılan narkotik maddənin ona məxsus olmadığını deyir: "O mənim deyil... Çantamda qalmışdı... Toyda vermişdilər. Uzun müddət idi çantamda qalmışdı".

Qeyd edək ki, qeyri-adi plantasiyanın aşkarlanması əməliyyatını Yasamal rayon 26-cı polis bölməsinin əməkdaşları həyata keçiriblər. APA TV-nin əldə etdiyi məlumata görə, artıq bu qeyri-adi plantasiya işi ilə bağlı daha 3 nəfər Yasamal Rayon Polis İdarəsinə çağırılıb və dindirilib. Dəstənin əhatə dairəsinin daha geniş olduğu istisna olunmur. Plantasiyanın sahibi Səid Ağabalayev və onun sürücüsü Əkrəm Əliyev artıq Kürdəxanıda yerləşən Bakı İstintaq Təcridxanasına aparılıb.



# «Bakcell» şirkətinin "Applab" proqramı bir illiyini qeyd edir

**Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi «Bakcell» şirkəti gələcək nəsil mobil texnologiyalar sahəsində dünya lideri olan "Qualcomm" şirkəti ilə birgə əməkdaşlıq çərçivəsində 2014-cü ilin sentyabr ayında start verilmiş "AppLab" innovativ mobil developer layihəsinin bir illiyini qeyd edir.**

**"AppLab" regional səviyyədə ideyaların, mobil tətbiqlərin və texnologiyaların pilot variantından istifadəyə buraxılan tam hazır varianta qədər çatdırılmasında seçilmiş developerlərə kömək etmək üçün nəzərdə tutulan sürətləndirilmiş icra modelidir. Otən bir il ərzində proqram gənc yerli developerlərin öz ideyalarını yerli və beynəlxalq səviyyəli mobil applikasiyalara tətbiq etmələri üçün unikal bir mühit olduğunu sübut edib. Bu günə qədər "Applab" layihəsi çərçivəsində təqdim olunan 100-dən çox ideyanın qəbul əmsalının 10%-dən az təşkil etməsi yalnız keyfiyyətli ideyaların seçilməsi üçün zəmin yaradıb.**

**Bir müddət bundan öncə, 2015-ci ilin iyununda «Bakcell» "Applab" layihələri sırasında Betchlip (https://bethclip.com ttps://bethclip.com) və xercim.az (http://xercim.az ile:///C:\Documents%20and%20Settings\Admin\Moi%20dokumentı\Downloads\(http:\xercim.az) mobil proqramlarını təqdim edib. Yaxın gələcəkdə "Applab" iştirakçıları tərəfindən hazırlanan daha çox tətbiqetmələr bazara təqdim olunacaq.**

**"Applab" çərçivəsində yeni və parlaq ideyalar meydana gəlib. Biz oyunlar, təhsil, səyahət və turizm, məhsuldarlıq, musiqi, kitablar və digər məqsədlər üçün yaradılmış müxtəlif proqramlar gördük. «Bakcell» bu proqramları yaratmaq üçün iş məkanı və alətlər təqdim etməklə yanaşı, gənc istedadları təlimatlandırır, onlara ideyalarını monetizasiya edə bilməsi məqsədilə biznes yanaşmasını aşılayır. Azərbaycanda developerlərin startap icmasını dəstəkləməmizin müsbət nəticəsinin şahidi oluruq. Ümidvarıq ki, bu layihə mobil proqram tərtibatı seqmentinə daha çox developer və sahibkarları cəlb edəcək",-deyə «Bakcell» şirkətinin baş icraçı direktoru cənab Riçard Şirer bildirib.**

**«Bakcell» şirkəti Azərbaycanda mobil proqram tərtibatı sahəsinin zəruri şəraitlə təmin olunması istiqamətində əlindən gələni edir. Məqsəd mobil proqram tərtibatçılarının öz həmkarları ilə təcrübə mübadiləsi apara biləcəyi lazımi mühit yaratmaqdır. Bununla yanaşı, «Bakcell» şirkəti mobil proqram tərtibatı və yayımı üçün developerləri vacib alətlərlə təmin edir.**

**"Applab" icmasına qoşulmaq istəyən gənc developerlər http://applab.bakcell.com/registration/ linkinə daxil olub qeydiyyatdan keçməklə ideyalarını təqdim edə bilərlər.**

## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra **Tel: (012) 437-88-05; (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

## Elan

**"TİKMAT" təchizat şirkəti tərəfindən Əsgərov Füzuli Sahib oğlunun adına verilmiş M.Hadi və X.Məmmədov küçələrinin kəsişməsi, məhəllə 2944 a-da yerləşən 1 saylı binanın A bloku, 32 N-li mənzilə aid müqavilə və maliyyə arayış itdiyi üçün etibarsız sayılır.**

## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34

YENİ MÜSAVAT

Son səhifə

N 223 (6251) 9 oktyabr 2015

# Ronaldoya nömrəsini vermədi



Sosial şəbəkədə modellərin şəkillərinə rəy yazan Madrid "Real"ının ulduzu Kriştianu Ronaldonun budəfəki hədəfi ingilis model Rayan Suqden olub. Moderator.az xəbər verir ki, modelin şəkillərini görən portuqaliyalı ulduz ondan nömrəsini istəyib. Lakin Suqden Ronaldonun bu istəyini geri çevirib. İngiltərədəki dostlarından modelin nömrəsini tapan Kriştianu bir neçə dəfə cəhd eləsə də, onunla danışa bilməyib. Ronaldonun əl çəkmədiyini görən Suqden "Real"ın ulduzundan uzaqlaşmaq üçün nömrəsini dəyişib. Yaxınlarda İngiltərədə bir jurnala poza verən Suqdenin şəkillərinin yenə Ronaldonu başdan çıxaracağı bildirilir.



## Məşhur modelin gözəllik sirri... bostandaymış

Avstraliyalı top model Miranda Kerr "Tatler" jurnalı üçün fotosessiya etdirib. Axşam.az-ın məlumatına görə, 60-cı illərin obrazında kamera qarşısına keçən Miranda gözəllik sirlərini bölüşüb. O, təbii qidaların üstünlük verdiyini deyib: "İndi yaşadığım evin öz bağı və bostanı var. Orada hər cür meyvə və tərəvəz yetişdirirəm. İnsanlar inanmırlar, amma mən harasa gedəndə, hətta təyyarəyə belə öz hazırladığım yeməkləri aparıram. Hotellərdə qalanda isə mənə buxarda bişirilmiş tərəvəzlər və göyərti soku gətirilməsini istəyirəm. Çünki onlar dəriyə, saçlara və dırnaqlara faydalıdır. Şkafımda hər zaman şokoladım olur. Saçlarımın belə təbii görünüşü də təbii qidalardandır. Yeri gəlmişkən, oğlum Flinnin saçları da mənimkinə bənzəyir. Ancaq o, atası Orlando kimi əsl Britaniya ləhcəsi ilə danışır". Hazırda 25 yaşlı milyarder Evan Şpiqellə sevgili olan Miranda keçmiş həyat yoldaşı, aktyor Orlando Blumdan da danışıb: "Bizim münasibətimiz çox yaxşıdır. Boşansaq da, hər gün zəngləşirik, bayramları bir yerdə qeyd edirik. Biz çox yaxınıq və hər zaman da bir-birimizi sevəcəyik".

## Ana bətnində oxuyur...

İspan alimlər fenomenal araşdırma aparıblar. Onlar müəyyənləşdiriblər ki, ana bətnindəki körpə 14 həftəliyindən etibarən səsləri duymaqla yanaşı, musiqini də ayırd edə bilir. Milli.az european-a istinadən bildirir ki, İspaniyanın Barselona şəhərindəki Markes İnstitutunda aparılan araşdırmada könüllülər qismində hamiləliyin 14-39-cu həftələrində olan qadınlar iştirak ediblər. Onların olduqları otaqda musiqi səslənib. Bu zaman xanımlar növbə ilə, ayrı-ayrılıqda ultrasəs müayinəsindən keçiblər. Məlum olub ki, hamilə qadınların 87 faizinin bətnindəki körpələr musiqi səsini eşidir, musiqiyə reaksiya verirlər. Üstəlik, bir neçə körpə musiqini eşidəndə oxumağa başlayıb. Araşdırmaya başçılıq etmiş professor Mariza Lopes-Teyhonun dediyinə görə, bətndəki körpələr dodaqlarını və dillərini tərpədiblər, sanki oxumağa çalışıblar. "Daha sonra abdominal üsulla bətndəki körpəyə səsi çatdırdıq. Hamiləliyin 16-cı həftəsindən sonra qadınların bətnlərindəki körpələrin musiqini ayırd etdiklərini artıq dəqiqləşdirdik", - professor söyləyib.





## Ərini gizli izləmək istədi və...

Səudiyyə Ərəbistanında gizli kamera ilə ərinin o evdə olmayanda nələr etdiyini maraq üçün çəkən və sonra da bu videonu sosial şəbəkələrdə paylaşan qadını ağır cəza gözləyir. Milli.az emirates 24/7-yə istinadən bildirir ki, hadisə Dəmmam şəhərində baş verib. Ərinin şorgözlüyündən, evdəki qulluqçu qadınlara sataşmasından və onları tovlamağa çalışmasından bezən qadın mətbəxə gizli kamera qoyub. Kişi axşam saatlarında qulluqçu qadını qucaqlayıb öpməyə çalışanda baş verənləri kamera çəkib. Qadın ərinin bu "macəra"sının əks olunduğu videonu YouTube-da paylaşıb. Az sonra həmin video sosial şəbəkələrdə yayılıb. Videonu çəkən qadını isə ağır cəza gözləyir. O, ən yaxşı halda 500 min səudi rialı məbləğində cərimələnəcək, ən pis halda isə 1 il müddətinə həbs ediləcək.




QOÇ - Təəssüf ki, ixtiyarınızda olan bu tarixdə hansısa ciddi müvəffəqiyyətə nail olacağınız gözlənilmir. Ələlxüsus da günün birinci yarısında. Amma naşükürlük etməyin, yeni həftəyə böyük ümidlər bəsləyən.

BUĞA - Günün ilk yarısında səhhətinizlə bağlı problemlərin həlli ilə məşğul olun. Sonrakı müddətdə isə planlarınızın əksəriyyəti qaydasına düşməyə başlayacaq. İmkan varsa, ailə üzvlərinizə sürprizlər edin.

ƏKİZLƏR - Əgər hansısa uğursuzluqla rastlaşırsınızsa, bunun səbəbini başqalarında deyil, özünüzdə axtarın. Yaxın on gündə görəcəyiniz sənəd işlərini dəqiqləşdirin. Saat 16-dan sonra sizə ehtiyac duyanlara baş çəkin.

XƏRÇƏNG - Bu gün gələcək büdcənizi rahatlamaq üçün əhəmiyyətli sövdələşmələrdə iştirakınız labüdləşəcək. Belə görüşlərdə və qonşuluq münasibətlərində gərginliyə yol verməyin. Özünüzü soyuqdəymədən qoruyun.

ŞİR - Ulduzlar qarğış və söyüşlərdən uzaq olmağı, falçı və cadugər yanına getməməyi məsləhət görür. Çünki indi sizin ruhi saflaşma prosesinizdir və gərək Tanrıya xoş getməyən addımlardan yayınasınız.

QIZ - Saat 15-17 arası sizin üçün təhlükəli vaxtdır. Bu səbəbdən də həmin vaxt daha çox neytrallıq nümayiş etdirməyiniz lazım gələcək. Günün qalan hissəsində isə iş və maliyyə məsələlərində uğurlar olacaq.

TƏRƏZİ - Ətrafınızı dəyişməkdənsə, özünüzü dəyişməyiniz daha asan olar. Gün ərzində özünüzü gümrah aparın, hər kəslə dil tapmağa çalışın. Əmin olun ki, bunu bacarsanız, axşama fərqli bir insan olacaqsınız.

ƏQRƏB - Ümumi mənzərəyə görə yaxşı gün demək olar. Əqidə və ideyalarınızdakı doğruluğu, saflığı qorusanız, belə də olacaq. Sevgidə təşəbbüskar və mərhəmətli olun. Keçmişinizdən hər zaman dərs götürün ki, uduzmayasınız.

OXATAN - Qurulan yeni əlaqələr istər fəaliyyət zəminində, istərsə də qarşılıqlı münasibətlərdə sizə böyük səmərə verəcək. Amma hər şeydən əvvəl sağlamlığınızın qayğısına qalmalısınız. Bu gün səfərə çıxmayın.

OĞLAQ - Daha çox istirahət edin. İndi konfliktlərə girişməkdənsə, qarşılıqlı münasibətləri mülayimləşdirmək daha sərfəlidir. Onsuz da sidq-ürəklə "dost!" deyib çağırdığınız adamlar kifayət qədər deyil.

SUTÖKƏN - Gözlədiyiniz xoş məqamların vaxtı yetişməkdədir. Bu səbəbdən evdə oturmaqdan vaz keçin. Sizə daha çox ünsiyyət lazımdır, hətta yaxın ünvanlara səfər də olar. Hamı bu gün sizi anlayacaq.

BALIQLAR - Uzaq yola çıxmaqdan, riskli pul sövdələşmələrində iştirak etməkdən çəkinin. Bu iki amildən başqa bütün sahələrdə müvəffəqiyyət sizinlə olacaq. Gecəni öz evinizdə keçirin. Sevgisiz qalmayın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## "Paramparça" 80 ölkənin diqqət mərkəzində



Fransanın Kann şəhərində keçirilən "Mipcom 2015" festivalında türk seriallarının təqdimatı davam edir. Axşam.az-ın Türkiyə mediasına istinadən məlumatına görə, ən çox diqqət çəkən ekran işlərindən biri "Paramparça" olub. "Broken Pieces" adıyla tanınan serial 50 ölkəyə satılıb, 30 ölkə isə yayım haqlarını almaq üçün danışıqlar aparır.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "E-Q" mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.300